Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

«Mədəniyyət» qəzetinin xüsusi buraxılışı

iyul 2019-cu il

İmadəddin Nəsimi 650

Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ildə böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi tamam olur.

İmadəddin Nəsimi Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarındandır. O, Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirmişdir. Mütəfəkkir şairin dərin poetik fikirlərlə fəlsəfi görüşlərin vəhdətində olub, dövrün elmi-fəlsəfi düşüncəsinin aydın ifadəçisinə çevrilmiş müstəsna əhəmiyyətli ədəbi irsi qədim köklərə və çoxəsrlik ənənələrə malik Azərbaycan ədəbiyyatı tarixində xüsusi mərhələ təşkil edir.

Nəsimi dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutan əsərlərində daim insanın əzəmətini, insani məhəbbəti və şəxsiyyətin azadlığını tərənnüm etmişdir. Anadilli şeirin humanist ideyalarla, yeni məzmun, deyim tərzi və bədii lövhələrlə daha da zənginləşməsində unudulmaz şairin misilsiz xidmətləri vardır. Nəsiminin mənbəyini xalq ruhundan almış parlaq üslubu orta əsrlər Azərbaycan dilinin məna imkanlarını bütün dolğunluğu və rəngarəngliyi ilə əks etdirir. Sənətkarın yaradıcılığı bir sıra xalqların bədii-ictimai fikrinin inkişafına qüvvətli təsir göstərmişdir.

Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması ötən əsrin 70-ci illərində öz geniş fəaliyyəti sayəsində tarixi-mədəni dəyərlərimizə münasibətdə əsaslı dönüş yaratmış ümummilli lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Məhz ulu öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyi UNESCO-nun tədbirləri siyahısına daxil edilmiş və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunmuşdur.

Həmin dövrdən etibarən Nəsimi irsinin və bütövlükdə klassik Azərbaycan mədəniyyətinin daha əhatəli araşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Nəsiminin yaradıcılığı artıq milli-mənəvi varlığımızın ayrılmaz tərkib hissəsidir.

Azərbaycan ədəbiyyatı və incəsənətində Nəsiminin yaddaqalan obrazı yaradılmış, Bakının mərkəzində şairin əzəmətli heykəli ucaldılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutu Nəsiminin adını daşıyır.

2017-ci ilin may ayında Parisdə UNESCO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyinin qeyd edilməsi və 2018-ci ilin sentyabr ayında ölkəmizdə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalının təntənəli şəkildə keçirilməsi ölməz şairin xatirəsinə dərin ehtiramın ifadəsi hesab oluna bilər.

İmadəddin Nəsiminin adı həqiqət naminə, fikir azadlığı yolunda qəhrəmanlığın rəmzi kimi əbədiləşib, əsrlərdən bəri Şərq xalqlarının yaddaşında yaşamaqdadır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyinin yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyi Azərbaycan Respublikasında dövlət səviyyəsində geniş qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsini təmin etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 noyabr 2018-ci il.

Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsi bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malikdir.

Şərq xalqlarının mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutan Nəsimi yaradıcılığı uzun illərdən bəri elmi-ədəbi fikrin diqqət mərkəzindədir. Şairin irsinin ölkəmizdə sistemli tədqiqi və təbliği ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyinin keçirildiyi vaxta təsadüf edir. Böyük söz ustasının 600 illiyinin UNESCO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edildiyi və beynəlxalq miqyasda qeyd olunduğu həmin dövrdən etibarən Nəsimi ilə bağlı çox sayda araşdırmalar aparılmışdır. Qüdrətli şairin yaradıcılığının üzə çıxarılan əlyazma nüsxələri əsasında öyrənilməsi Azərbaycan dili və ədəbiyyatı tarixinin tədqiqində yeni mərhələ açmışdır. Nəsiminin əsərləri ölkəmizdə dəfələrlə işıq üzü görmüşdür. Şairin əsərləri Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən, kütləvi tirajla nəşr olunaraq ölkə kitabxanalarına hədiyyə edilmişdir.

Ötən illər ərzində Nəsiminin xatirəsinin əbədiləşdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilmiş və onun ədəbiyyatda, incəsənətdə parlaq obrazı yaradılmış, eləcə də 1979-cu ildə ölkəmizin paytaxtında heykəli ucaldılmışdır.

2017-ci ilin may ayında Parisdə UNESCO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd edilmiş, 2018-ci ilin sentyabr ayında ölkəmizdə ilk dəfə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalı keçirilmişdir.

2019-cu ildə Nəsiminin anadan olmasının 650 illiyi tamam olur. Azərbaycanın ədəbi-mədəni fikir tarixinin bu əlamətdar hadisəsinin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" 2018-ci il 15 noyabr tarixli 689 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmışdır.

Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

2019-cu il Azərbaycan Respublikasında "Nəsimi ili" elan edilsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 yanvar 2019-cu il.

Mədəni və ədəbi irsimizin təntənəsi

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə İmadəddin Nəsiminin 650 illiyinin qeyd olunması və 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan edilməsi mütəfəkkir şairin zəngin irsinin tanıdılması və təbliğinə böyük töhfə olmaqla yanaşı, Azərbaycan xalqının çoxəsrlik tarixə malik mədəniyyət və ədəbiyyatının növbəti təntənəsidir.

Yubleylə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 yanvar 2019-cu il tarixli sərəncamı ilə Tədbirlər Planı təsdiqlənib. Planda Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və digər qurumların iştirakı ilə müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulub. O cümlədən Mədəniyyət Nazirliyi tərəfindən "Nəsimi – şeir, incəsənət və mənəviyyat" 2-ci Beynəlxalq Festivalının (sentyabr-oktyabr), Frankfurt və İstanbul beynəlxalq kitab sərgilərində (oktyabr-noyabr) Nəsiminin yubileyinə həsr olunmuş tədbirlərin, TÜRKSOY təşkilatı çərçivəsində yubiley tədbirlərinin keçirilməsi, Fikrət Əmirovun "Nəsimi dastanı" balet tamaşasının hazırlanması, Nəsimi haqqında və şairin əsərlərindən ibarət kitabların nəşri və s. planda əksini tapıb. Qeyd etmək lazımdır ki, bu tədbir və layihələrin bir qismi artıq reallaşıb.

Bununla yanaşı, dövlət başçısının sərəncamının icrasını təmin etmək üçün Mədəniyyət Nazirliyinin əmri ilə tədbirlər planı da hazırlanaraq icra olunmaqdadır. Plan şəhər (rayon) mədəniyyət müəssisələrində yubileyə həsr olunmuş ədəbi-bədii gecə, konfrans, dəyirmi masa, seminar, kitab sərgisi, bədii qiraət, rəsm müsabiqələri kimi silsilə tədbirləri ehtiva edir.

Ötən müddətdə xeyli hissəsi həyata keçirilən bu tədbirlər nazirliyin mətbu orqanı olan "Mədəniyyət" qəzetində davamlı şəkildə işıqlandırılıb. O cümlədən regional mədəniyyət idarələrinin "Nəsimi ili"ndə fəaliyyəti qəzetin səhifələrində geniş əksini tapıb. Oxuculara təqdim olunan "Nəsimi 650" xüsusi buraxılışı "Nəsimi ili"nə töhfə olmaqla bərabər, paytaxtda, şəhər və rayonlarımızda bu çərçivədə keçirilən rəngarəng tədbirləri, incəsənət layihələrini bir daha məcmu halda diqqətə çatdırır.

Xalq öz dühaları ilə dünyada tanınır

"Azərbaycan xalqına mənsub olan Nəsimi kimi nadir bir şəxsiyyəti dünya elminə, dünya mədəniyyətinə tanıtmaq, şübhəsiz ki, xalqımızın hörmətini yüksəltmək deməkdir"

Ümummilli lider Heydər Əliyev

Dahi şair və mütəfəkkir İmadəddin Nəsiminin zəngin irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması, yaradıcılığının tədqiqi və təbliği, dünya miqyasında tanıdılması ümummilli lider Heydər Əliyevin fəaliyyəti ilə bilavasitə bağlıdır. Ötən əsrin 70-ci illərində ulu öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illiyinin UNESCO səviyyəsində qeyd olunması təkcə böyük şairin adının və irsinin deyil, ümumilikdə Azərbaycanın, respublikamızın mədəniyyətinin, ədəbiyyatının təbliği baxımından böyük əhəmiyyət kəsb edirdi.

Məlum olduğu kimi, 1968-ci ildə Azərbaycan mədəniyyət və ədəbiyyat xadimlərinin bir qrupu Suriyada səfərdə olarkən Nəsiminin Hələb şəhərindəki qəbrini taparaq ziyarət etmiş, Xalq şairi Rəsul Rza Bakıya qayıtdıqdan sonra "Ədəbiyyat və incəsənət" qəzetində "Cahana sığmayan şairin qərib məzarı" adlı məqalə dərc etdirmişdi. 1969-cu ildə respublikanın rəhbəri – Azərbaycan KP MK-nın Birinci katibi seçilən Heydər Əliyev, sözsüz ki, bu barədə məlumatlı idi.

Heydər Əliyev 1970-ci ildə Suriya Ərəb Respublikasında səfərdə olarkən Prezident Hafiz Əsədə Hələb şəhərinə getmək və İmadəddin Nəsiminin məzarını ziyarət etmək istədiyini söyləyir. Həmin dövrün hadisələrini tədqiq etmiş tarixçi alim, professor, Milli Məclisin deputatı Musa Qasımlı qeyd edir ki, Azərbaycan rəhbərinin istəyi yerinə yetirilir və nümayəndə heyəti Hələbə gəlir. Növbəti gün onları hoteldə bir neçə saat gözlədirlər. Bu arada yerli hakimiyyət orqanlarının nümayəndələri məzarı taparaq sahmana salırlar. Ondan sonra Heydər Əliyev məzarı ziyarət edir.

Heydər Əliyev Bakıya döndükdən sonra Nəsiminin tanıdılması, 600 illik yubileyinin keçirilməsi, haqqında kinofilmin çəkilişi və s. məsələləri gündəmə gətirir. Nəsiminin yubileyinin keçirilməsi barədə məsələ Azərbaycan KP MK Bürosunun 1970-ci il 27 mart, 1971-ci il 24 mart, 29 aprel, 23 iyul tarixli iclaslarında müzakirə edilir. Bundan sonra Heydər Əliyev Nəsiminin yubileyinin ümumittifaq və ümumdünya miqyasında qeyd edilməsi üçün Moskvaya – SSRİ rəhbər qurumlarına – Sov. İKP MK-ya, SSRİ Nazirlər Sovetinə müraciət edir. Bu proses bir müddət uzansa da, sonda yubileylə bağlı müvafiq qərarlar qəbul olunur.

Heydər Əliyevin tapşırığı ilə akademik Həmid Araslı və alim Araz Dadaşzadə Suriyaya ezam edilirlər. Onlar Nəsiminin məzarının vəziyyəti ilə tanış olurlar və bərpası məsələsini qaldırırlar. Heydər Əliyevin səyləri ilə məzar bərpa edilir. Nəsiminin portretinin yaradılması ilə bağlı müsabiqə elan edilir. Azərbaycan KP MK Bürosunun 1972-ci il 2 fevral, 1973-cü il 13 mart və 28 avqust tarixli iclaslarında həmin məsələ müzakirə edilir. Tədbirlər planı işlənib hazırlanır. 1973-cü ilin sentyabrında Azərbaycanda yubiley toplantısı keçirilir. Yubileyə dünyanın 30-dək ölkəsindən qonaqlar gəlir.

Heydər Əliyev 1973-cü il sentyabrın 14-də Nəsiminin 600 illiyi şərəfinə Azərbaycan SSR Nazirlər Sovetinin təşkil etdiyi qəbulda söylədiyi nitqdə həmin hadisələrin əhəmiyyətini belə qeyd etmişdi:

"Bu günlər qədim Azərbaycan torpağında böyük bayramdır, poeziya bayramı, ədəbiyyat bayramı, bədii söz bayramıdır, ürəklərə sevinc bəxş edən sənət bayramıdır. Bu bayram böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 600 illiyi ilə əlaqədardır. Öz nəsillərinə gözəl bir irs qoyub getmiş bu müdrik insanın anadan olduğu vaxtdan 600 il keçmişdir. Budur, indi onun vətənində nəsillər şairin fərəhli yubileyini dərin minnətdarlıq hissi ilə qeyd edirlər.

Bəşəriyyət özünün ən yaxşı nümayəndələrini, onu mənəvi cəhətdən zənginləşdirən simaları həmişə yüksək qiymətləndirmişdir. Bəşər tarixinin müxtəlif mərhələlərində bir çox görkəmli şəxsiyyətlər yetişmişdir. Hər bir xalq həmin dühaların tərəqqiyə, işıqlı həyata, xoş güzərana çağırışları ilə haqlı fəxr edir. Azərbaycan xalqı öz böyük övladlarının – Nizaminin, Xaqaninin, Füzulinin və başqalarının adlarını iftixarla çəkir. Bu gün isə biz Azərbaycan və dünya poeziyasının parlaq ulduzu İmadəddin Nəsiminin yubileyini qeyd edirik.

Lakin Nəsiminin yaratdığı, qoyub getdiyi irsə heyran olduğumuzu bildirərkən biz gərək onun ikinci yaranışından da danışaq. Yalnız bizim zəmanədə Nəsimi əsrlərin dərinliklərindən qaldırılmışdır və o, layiqincə qiymətləndirilir. Bu gün Nəsimi dünya qarşısında bütün əzəməti ilə ucalır. O, elə bir insan idi ki, hələ uzaq keçmişlərdə cəhalətpərəstlərdən qorxmayıb zülmə, riyakarlığa, dini mövhumata etiraz səsini ucaldır, çox-çox irəliyə nəzər salırdı. Görkəmli Azərbaycan şairi, müasirimiz Səməd Vurğun Nəsimi haqqında belə demişdir: "Tarixlər boyunca qaldı yadigar, ölməz fikirlərin, ölməz sözlərin"...

Bizim hamımızı, Nəsimi yubileyi münasibətilə Azərbaycan torpağına toplaşan adamların hamısını mütərəqqi ideallar, bəşəriyyətin ən yaxşı zəkalarının əsrlər boyu həsrətində olduqları əmin-amanlıq və dostluq şəraitində yaşamaq arzuları birləşdirir...".

Nəsiminin yubileyi həmin il Parisdə, UNESCO-da qeyd edildi, Azərbaycan incəsənət ustalarının iştirakı ilə konsert proqramı, Fikrət Əmirovun "Nəsimi haqqında dastan" baletinin tamaşası təqdim olundu. UNESCO-nun "Kuryer" jurnalında Nəsimi haqqında geniş məqalə dərc edilmişdi. Həmin dövrdən etibarən şairin yaradıcılığı ilə bağlı araşdırmalar da genişləndi. Şairin həm Azərbaycan dilində, həm də başqa dillərə tərcümə edilmiş kitabları, haqqında elmi tədqiqat əsərləri, biblioqrafiya işıq üzü görmüş, sərgilər açılmışdı. Azərbaycan ədəbiyyatında Nəsimi haqqında əsərlər – Xalq yazıçısı İsa Hüseynovun "Məhşər" romanı, xalq şairləri Rəsul Rzanın "Son gecə", Qabilin "Nəsimi" poemaları, Əli Kərimin "Şəhidliyin zirvəsi", Əliağa Kürçaylının "Nəsimi" və b. şeirləri yaranmışdı. 1973-cü ildə "Nəsimi" filmi (rejissor Həsən Seyidbəyli) ekranlara çıxdı. Rəssamlarımız tərəfindən Nəsiminin portretləri, onun həyatına həsr olunmuş tematik tablolar işləndi, 1979-cu ildə Bakıda şairin möhtəşəm abidəsi (müəllif Tokay Məmmədov) ucaldıldı. Bakının rayonlarından birinə Nəsiminin adı verildi, şairin xatirəsi şəhər və rayonlarda küçə, müəssisə-təşkilat və s. adlarda əbədiləşdirildi.

Bütün bunlar, ulu öndərin dediyi kimi, Nəsiminin yenidən doğuluşu, Nəsimi irsinin intibahı idi. Ümummilli lider sonralar həmin əlamətdar günləri xatırlayarkən demişdi: "...Tarixi-miz çox zəngindir və biz bunu vaxtaşırı xalqa çatdırmalıyıq.

Xatirinizdədirmi, Nəsiminin 600 illik yubileyini qeyd etdiyimiz zaman bu, dünyada nə qədər əks-səda doğurdu, Azərbaycanı nə qədər tanıtdı! Nəhayət, 600 ildən sonra biz Nəsiminin Hələb şəhərindəki məzarını tapdıq. İndi onun məzarı oraya gedən adamlar üçün bir ziyarətgahdır. Məhz Azərbaycan xalqına mənsub olan Nəsimi kimi nadir bir şəxsiyyəti dünya ictimaiyyətinə, elminə, dünya mədəniyyətinə tanıtmaq, şübhəsiz ki, xalqımızın hörmətini qaldırmaq deməkdir".

***

Ulu öndərin mədəni irsimizə, böyük söz-sənət xadimlərinin xatirəsinə diqqət və qayğısı bu gün ölkə rəhbərliyi tərəfindən davam etdirilir. Prezident İlham Əliyevin Nəsiminin 650 illiyi və "Nəsimi ili" ilə bağlı sərəncamları bunu bir daha təsdiq edir. Nəsimi yeganə Azərbaycan şairidir ki, son yarım əsrdə yubileyi iki dəfə UNESCO səviyyəsində qeyd edilib. 2017-ci ilin 18 mayında Parisdə, təşkilatın baş qərargahında böyük şair və mütəfəkkirin vəfatının 600-cü ildönümü münasibətilə keçirilən mərasim dünya poeziyası tarixində parlaq iz qoymuş Nəsimiyə bəşəri ehtiramı bir daha nümayiş etdirdi. Həmin mərasimdə qeyd edildiyi kimi, mənəvi azadlığa, bəşəri dəyərlərə, insana sevgiyə çağırış Nəsimi yaradıcılığının himni idi. Altı əsr öncə edam edilən Nəsimi dünyadan köçmədi. Dünya poeziyası, ədəbi və fəlsəfi fikrində öz abidəsini ucaltmağa müvəffəq olmuş şair insanların qəlbində yaşamaqda davam edir.

Mütəfəkkir şairin söz işığında

"Nəsimi ili"nin ilk sərgisi yanvarın 29-da M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında keçirildi. "İmadəddin Nəsimi 650" adlı sərgi Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə Prezident İlham Əliyevin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" və "Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında" sərəncamlarına əsasən təşkil edilmişdi.

Mərasimdə mədəniyyət naziri Əbülfəs Qarayev, nazirin birinci müavini Vaqif Əliyev, nazir müavini Sevda Məmmədəliyeva, millət vəkilləri, yazıçılar, ədəbiyyatşünas alimlər iştirak edirdi.

Milli Kitabxananın direktoru Kərim Tahirov çıxış edərək "Nəsimi ili" çərçivəsində təşkil olunan ilk sərginin əhəmiyyətini diqqətə çatdırdı: "Nəsiminin ilk dəfə yubileyinin ölkəmizdə keçirilməsinin təşəbbüskarı ulu öndər Heydər Əliyev olub. Bu gün o ənənə uğurla davam etdirilir. "Nəsimi ili" bunun əyani göstəricisidir. Bugünkü gənc nəsil Nəsimini daha yaxından tanıyacaq, onun haqqında kitablar, elmi əsərlər yazılacaq və gələcək nəsillər də bundan bəhrələnəcəklər".

Tədbirdə çıxış edən mədəniyyət naziri Əbülfəs Qarayev Prezident İlham Əliyevin "Nəsimi ili" ilə əlaqədar sərəncamının bu böyük şəxsiyyətin yaradıcılığını, xalqımızın ədəbi-mədəni irs xəzinəsinə verdiyi böyük töhfələri yenidən dərk və təhlil etmək üçün fürsət yaratdığını dedi: "Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1973-cü ildə Nəsiminin 600 illik yubileyinin UNESCO səviyyəsində qeyd edilməsi Azərbaycan mədəniyyəti tarixində əhəmiyyətli hadisəyə çevrilmişdi. O vaxt Bakıda Nəsimiyə heykəl qoyuldu. Müəllifi Tokay Məmmədov olan həmin heykəl bu gün şəhərimizin ən gözəl yerlərindən birində ucalır. Eyni zamanda böyük mütəfəkkirə həsr olunan film çəkildi, elmi tədqiqatlar aparıldı, kitablar çap edildi".

Nazir vurğuladı ki, ötən illər ərzində Nəsiminin adı, irsi dünyada da tanıdılıb, təbliğ edilib: "Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qayğısı ilə 2017-ci ilin may ayında Parisdə, UNESCO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd olunub. Ötən il Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə ölkəmizdə ilk dəfə Nəsimi – poeziya, incəsənət və mənəviyyat festivalı keçirildi. Bu festival Nəsimi irsinin öyrənilməsi və dünyaya tanıdılması ilə yanaşı, ölkəmizin də təbliğinə yeni imkanlar açdı. "Nəsimi ili" xalqımızın mənəviyyatı və mədəniyyəti ilə birbaşa əlaqəlidir. Biz bu il üçün tədbirlər planı hazırlamışıq. İlk addımı buradan başlayırıq".

Əbülfəs Qarayev bu il həm ölkəmizdə, həm də xaricdə müxtəlif tədbirlərin, sərgilərin, ədəbi-bədii axşamların təşkili, kitabların nəşrinin nəzərdə tutulduğunu diqqətə çatdırdı.

Milli Məclisin deputatı, akademik Nizami Cəfərov qeyd etdi ki, "Nəsimi ili"ndə bu böyük mütəfəkkiri dərk edərək öz coğrafiyamızla yanaşı, bütün dünyada təbliğ etməliyik: "Bütün dünyanın dilində danışan Nəsiminin dili, həm də bizim ana dilimizdir. Nəsimi şairlərimizin içində ən çox fəlsəfi, poetik və "mən"i olan şairdir. Onun yaradıcılığında həm özünün şəxsiyyəti, ideologiyası, həm də dili və milli mənliyi dayanır".

Milli Məclisin deputatı Qənirə Paşayeva bildirdi ki, ulu öndər Heydər Əliyevin Nəsimi ilə bağlı yanaşması və Prezident İlham Əliyevin bu sərəncamı Azərbaycanın tarixi şəxsiyyətlərini tanımağı, oxumağı və sevməyi təlqin edir. "Nəsimi ili" ölkəmizin və mədəniyyətimizin daha geniş miqyasda tanınmasına vəsilə olacaq.

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, filologiya elmləri doktoru, Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev, Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi və digər çıxış edənlər "Nəsimi ili"nin önəmindən, mütəfəkkir şairin zəngin yaradıcılıq irsindən bəhs etdilər.

Sonra qonaqlar Milli Kitabxananın foyesində açılmış "İmadəddin Nəsimi 650" adlı sərgi ilə tanış oldular. Sərgidə Nəsiminin əsərlərinin əlyazmaları, əsərlərinin müxtəlif nəşrləri, haqqında işıq üzü görən kitablar, dövri nəşrlər – ümumilikdə 300-dək çap nümunəsi yer almışdı.

Ədəbi irs üzərində dostluq körpüsü

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, ölkəmizin Macarıstandakı səfirliyi, Azərbaycan Milli Kitabxanası və Yunus Əmrə İnstitutunun (Türkiyə) birgə təşkilatçılığı ilə aprelin 24-də Budapeştdə dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş ədəbi-musiqili tədbir keçirilib.

Yunus Əmrə İnstitutunun Budapeştdəki ofisində gerçəkləşən tədbir çərçivəsində Azərbaycan Milli Kitabxanasının fondlarından müxtəlif nəşrlər – Nəsiminin əsərləri və onun haqqında kitabların sərgisi açılıb.

Yunus Əmrə İnstitutunun direktoru Yakub Gül qonaqları salamlayaraq İmadəddin Nəsimi kimi böyük söz ustadının yubiley tədbirinə ev sahibliyi etməkdən böyük şərəf duyduqlarını deyib.

Ölkəmizin Macarıstandakı səfiri Vilayət Quliyev Azərbaycan Prezidentinin müvafiq sərəncamına əsasən respublikamızda və onun hüdudlarından kənarda "Nəsimi ili" çərçivəsində silsilə tədbirlərin keçirildiyini söyləyib. O, Nəsiminin 650 illik yubileyinin Budapeştdə türk dünyasının başqa bir böyük mütəfəkkiri Yunus Əmrənin adını daşıyan institutda keçirilməsinin əlamətdar olduğunu qeyd edərək bildirib ki, burada macar türkoloqlarının iştirak etməsi xalqlarımız arasında dərin köklərə malik əlaqələrin göstəricisidir.

Azərbaycan Respublikası Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev çıxışında diqqətə çatdırıb ki, bu gün Macarıstan kimi Azərbaycana dost olan ölkələrdə Nəsiminin yubileyi ilə əlaqədar çoxlu sayda tədbirlər keçirilir, dahi şairimiz yad edilir. Bu kimi tədbirlər xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır, ədəbiyyatlarımızın və ənənələrimizin inteqrasiyasına zəmin yaradır.

Macarıstanın Türkiyədəki keçmiş səfiri, türkoloq Yanoş Hovari də türk dünyasının ortaq mədəniyyətinin və ədəbiyyatının təbliğində belə yubiley tədbirlərinin xarici ölkələrdə keçirilməsinin böyük əhəmiyyət kəsb etdiyinə diqqət çəkib.

Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov qeyd edib ki, hazırda dünya kitabxanaları və muzeylərinin fondlarında, Türkiyədə, İranda, Çexiyada, ABŞ-da, İngiltərədə, Vatikanda, Rusiyada, Avstriya və digər ölkələrdə Nəsiminin əsərlərinin 50-dən artıq əlyazması saxlanılır. Azərbaycan Milli Kitabxanası Mədəniyyət Nazirliyi ilə birlikdə Nəsiminin dünya kitabxanalarında saxlanılan əlyazmalarının elektron surətlərinin toplanması layihəsi üzərində işləyir.

Tədbirin bədii hissəsində "Nəsimi" filmindən fraqmentlər göstərilib, türkiyəli və azərbaycanlı ifaçılar tərəfindən Nəsiminin şeirləri və şeirlərinə yazılmış musiqilər səsləndirilib.

Nəsimi festivalı bu il ikinci dəfə keçiriləcək

Ölkəmizin ev sahibliyi etdiyi beynəlxalq festival və genişmiqyaslı mədəniyyət tədbirlərinin sırasına 2018-ci ildə daha bir layihə əlavə edildi. Ötən il sentyabrın 27-dən 30-dək ilk dəfə dahi Azərbaycan şairi İmadəddin Nəsimiyə həsr olunmuş şeir, incəsənət və mənəviyyat festivalı keçirildi. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın ideya müəllifi olduğu festival Fondun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşdı.

Şairin ata yurdu Şamaxıda başlanan festival sentyabrın 28-dən Bakıda zəngin proqramla davam etdi. Heydər Əliyev Mərkəzində Nəsimi – şeir, incəsənət və mənəviyyat festivalının təntənəli açılış mərasimi oldu.

Mərkəzin foyesində festival çərçivəsində üç ekspozisiya – Leyla Əliyevanın müəllifi olduğu "Live Life" ("Canlı həyat"), Birləşmiş Ərəb Əmirliklərinin Barcil İncəsənət Fondu tərəfindən təqdim olunan "Hürufilik: incəsənət və identiklik" sərgiləri və britaniyalı bəstəkar Brayn İnonun "77 milyon rəsm əsəri" sərgisində isə musiqi və video-art instalyasiyası təqdim edildi.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva festivalın incəsənətin, mədəniyyətin inkişafına töhfə olacağına əminliyini ifadə edərək sərgilər haqqında məlumat verdi: "Biz bu festivalda Nəsimi poeziyasının ruhunu musiqi, rəqs, incəsənət vasitəsilə kəşf edəcəyik və şüurun dərinliyinə səyahət edəcəyik".

Mərasimdə jurnalistlərə açıqlama verən mədəniyyət naziri Əbülfəs Qarayev bildirdi ki, festival həm yaradıcılıq, həm də incəsənətin müxtəlif formalarını özündə birləşdirir: "Nəsimi festivalı şairin yaradıcılığına müxtəlif baxışları bir araya gətirərək onun ideyalarının hər zaman aktual olduğunu göstərir".

Açılış mərasimində dahi şairin sənət ziyasının əbədiliyini təsdiqləyən konsert proqramı təqdim edildi. Xalq artisti Fəxrəddin Kərimovun dirijorluğu ilə Azərbaycan Dövlət Simfonik Orkestri və Dövlət Xor Kapellası görkəmli bəstəkar Fikrət Əmirovun "Nəsimi haqqında dastan" və İsmayıl Hacıbəyovun "Memorial" əsərlərindən parçaları ifa etdi.

Sonra musiqi gecəsi Azərbaycan əsilli britaniyalı müğənni Sami Yusufun çıxışı ilə davam etdi. İfalarında Şərqlə Qərbin vəhdətini yaratmış Sami Yusuf populyar musiqilərini səsləndirməklə yanaşı, festivalın əhəmiyyətindən də söz açaraq təşkilatçılara minnətdarlığını bildirdi, Nəsimi dühasının əbədiyaşar olduğunu vurğuladı. Proqramda daha sonra Əməkdar artist Tünzalə Ağayevanın Nəsiminin sözlərinə bəstələdiyi "Dua" mahnısı səsləndi, Milli Konservatoriyanın "Əsrlərin sədası" qədim musiqi alətləri ansamblı isə xüsusi layihə ilə tamaşaçıların könlünü oxşadı.

***

Sentyabrın 29-da Nəsimi – şeir, incəsənət və mənəviyyat festivalı çərçivəsində Daş Salnamə Muzeyində "Bahariyyə" adlı musiqi layihəsinin təqdimatı keçirildi.

Xalq artisti Teyyub Aslanov, əməkdar artistlər Əliağa Sədiyev (tar), Şirzad Fətəliyev (balaban), Kamran Kərimov (nağara), beynəlxalq müsabiqələr laureatı Elnur Mikayılov və musiqi dizaynı üzrə mütəxəssis Fərhad Fərzəliyevin (elektron musiqi) təqdimatında Nəsiminin poetik dünyası muğam sənətinin və elektron musiqinin dili ilə sənətsevərlərə təqdim olundu.

Həmin gün Bakı Kitab Mərkəzində Nəsimiyə həsr olunan şeir məclisi təşkil edilmişdi. Tədbirdə həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın "Spasibo" və "Molçaniye" kitablarının təqdimatı oldu. Gənc şairlər Nəsiminin təsiri ilə yazdıqları şeirlərini oxudular.

Festival çərçivəsində həmçinin akademik Rafael Hüseynovun və alman alimi, nəsimişünas Mixael Hessin mühazirələri də dinlənildi.

***

Sentyabrın 30-da "Qala" Arxeoloji-Etnoqrafik Muzey Kompleksində Nəsimi festivalı ilə bir arada təşkil edilən "Daşın nəğməsi" III Beynəlxalq Heykəltəraşlıq Simpoziumu çərçivəsində yaradılan əsərlərin təqdimatı oldu. Azərbaycan, Belçika, İtaliya, Türkiyə, Hindistan, Ukrayna, İspaniya, Misir, Meksika, Rumıniya, İran, Norveç, Yunanıstan, Sloveniya, Argentina, Suriya və Gürcüstandan 20 heykəltəraş əsərlərini Nəsimi yaradıcılığına həsr etmişdilər.

Festival çərçivəsində Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində Leyla Bəyim və Yefim Avramovun müəllifi olduğu "İmmolatio" ("Qurbanvermə") tamaşasının premyerası da keçirildi. Pyes eyni ildə Azərbaycanda və Çexiyada doğulmuş iki böyük mütəfəkkirə həsr edilib. İmadəddin Nəsimi (1369-1417) və Yan Qus (1369-1415) oxşar baxışlara, ideyalara sahib olublar. Pyesdə belə bir ideya var ki, onların gələcək nəsillərə qoyub getdiyi ərməğan əqidələri uğrunda apardıqları mübarizədir.

Həmin gün Bakı Media Mərkəzində festivalın bağlanış mərasimi keçirildi. Əvvəlcə "Mərhəba!" adlı ədəbi-musiqili tamaşa təqdim olundu. Ecazkar musiqi, tamaşanın plastik həlli və Nəsimi kəlamlarının aktyorların ifasında məharətlə səsləndirilməsi şairin tükənməz poetik dünyasını bir daha təcəssüm etdirdi. Sonra Mədəniyyət Nazirliyinin "Söz" ədəbi layihəsi çərçivəsində Nəsiminin xatirəsinə həsr edilən ədəbi müsabiqənin qalibləri mükafatlandırıldılar.

***

19-20 noyabrda isə Heydər Əliyev Fondunun təşkilatçılığı və Azərbaycanın Rusiyadakı səfirliyinin dəstəyi ilə Moskvada Nəsimi – poeziya, incəsənət və mənəviyyat festivalı gerçəkləşdi.

Festival çərçivəsində Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (MDBMİ) şairin büstünün (müəllif Mahmud Rüstəmov) açılış mərasimi oldu. Mərasimdə çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva institutun rektoru Anatoli Torkunova təşəkkürünü bildirdi: "Bizim arzularımızdan biri budur ki, Nəsimini tanısınlar, onun poeziyasını oxusunlar və bu poeziya yaşasın. Həqiqət zamanın fövqündə dayanan anlayışdır. Nəsiminin tükənməz ilham mənbəyi gözəllik, məhəbbət və təbiətdir".

Akademik Anatoli Torkunov qeyd etdi ki, Nəsiminin büstünün qoyulması universitet üçün böyük şərəfdir: "Nəsimi dünya poeziyasının ən mükəmməl nümunələri arasında yer tutmağa layiq olan əsərlərində insanın böyüklüyünü, bəşəri sevgini və şəxsiyyət azadlığını tərənnüm edib".

Ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu bu nüfuzlu təhsil ocağında Azərbaycanın böyük şairi və mütəfəkkirinin büstünün qoyulmasını iki ölkə arasında dostluğun daha bir təsdiqi olduğunu vurğuladı.

Festival çərçivəsində M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Asiya və Afrika Ölkələri İnstitutunda "Nəsiminin mənəvi irsi Orta əsrlər Şərqinin tarixi-mədəni kontekstində" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirildi.

Konfransda "Nəsimi festivalı: ideoloji-mədəni irsin dinamik interpretasiyası təcrübəsi", "Nəsimi və Yan Qus. Şərqlə Qərbin mədəni vəhdəti" və s. mövzularda məruzələr dinlənildi.

***

Qeyd edək ki, Heydər Əliyev Fondunun layihəsi, Mədəniyyət Nazirliyinin dəstəyi ilə bu ilin payızında ölkəmizdə ikinci dəfə Nəsimi festivalı keçiriləcək. Yeri gəlmişkən, Nəsimi festivalı Avropa Festivallar Assosiasiyasına üzv olub.

İmadəddin Nəsimi 650

Türk dünyasının söz ustadı

TÜRKSOY 2019-cu ili "Nəsimini anma ili" elan edib

İmadəddin Nəsiminin 650 illik yubileyi və 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, böyük mütəfəkkir şairə həsr olunmuş tədbirlər ölkəmizin hüdudlarından kənarda da keçirilir. 2019-cu il həm də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY tərəfindən dahi Azərbaycan şairinin xatirəsinə "Nəsimini anma ili" elan edilib.

Martın 6-da Türkiyənin paytaxtı Ankarada Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, TÜRKSOY təşkilatı və Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə dahi şairin xatirə ilinin açılış mərasimi oldu.

TÜRKSOY-un qərargahında gerçəkləşən tədbirdə qurumun baş katibi Düsen Kaseinov, Türkiyə Prezidentinin baş müşaviri Yalçın Topçu, Azərbaycanın mədəniyyət naziri Əbülfəs Qarayev, Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Əhməd Haluk Dursun, iki ölkənin elm, ədəbiyyat, mədəniyyət xadimləri iştirak edirdi.

Tədbir iştirakçıları əvvəlcə İmadəddin Nəsiminin yaradıcılığına həsr edilmiş kitab sərgisi ilə tanış oldular.

Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov Nəsiminin XV əsrə aid əlyazmalarının surətləri, dahi şairin 1844 və 1881-ci illərdə Türkiyədə ilk dəfə çap edilən kitabları, 1926-cı ildə Bakıda nəşr edilmiş ilk kitabı, Nəsiminin dünya xalqlarının dillərinə tərcümə olunaraq müxtəlif ölkələrdə çap olunmuş əsərləri, eləcə də Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə nəfis şəkildə buraxılmış ikicildliyi və digər kitablar barədə məlumat verdi.

Mərasimdə açılış nitqi ilə çıxış edən TÜRKSOY-un baş katibi Düsen Kaseinov qonaqları salamlayaraq bildirdi ki, bu gün bizim üçün ikiqat bayramdır: "Həm böyük Nəsiminin 650 illik yubileyini qeyd edirik, həm də dostlarla bir aradayıq". Baş katib bildirdi ki, TÜRKSOY-un xatirə ili layihəsinin məqsədi bu türk dünyası öncüllərini daha yaxından tanımaq və tanıtmaqdır.

Nəsimi yaradıcılığından bəhs edən D.Kaseinov böyük mütəfəkkirin Azərbaycanın ədəbi və mədəni irsində özəl bir yerə sahib olduğunu dedi.

Türkiyə Prezidentinin baş müşaviri Yalçın Topçu doğumunun 650 illiyi qeyd edilən Nəsiminin türk dünyasının böyük şairi olduğunu vurğuladı.

Mədəniyyət naziri Əbülfəs Qarayev 2019-cu ilin "Nəsimini anma ili" elan olunmasına görə TÜRKSOY təşkilatına və baş katib Düsen Kaseinova minnətdarlığını bildirdi: "Belə tədbirlər uzun müddət biri-birindən uzaq düşmüş türkdilli xalqları daha da yaxınlaşdırır, onların mədəniyyətini, ədəbiyyatını və adət-ənənələrini daha da doğmalaşdırır. Hər dəfə Bakıda, Ankarada, İstanbulda və digər türkdilli ölkələrdə belə tədbirlərdə iştirak etməklə ədəbiyyatlarımızın, mədəniyyətlərimizin qarşılıqlı zənginləşməsinə zəmin yaratmış oluruq".

Nəsiminin yaradıcılığından bəhs edən nazir bildirdi ki, mütəfəkkir şairin şeirləri, əlyazma divanları hələ sağlığında Yaxın Şərqdə və Orta Asiyada dillər əzbəri olub. Nəsiminin yaradıcılığı və şəxsiyyəti Azərbaycanda çox yüksək qiymətləndirilir və onun doğma xalqına yenidən qayıdışı Azərbaycan xalqının böyük oğlu, ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1970-ci illərdə ulu öndər Heydər Əliyev böyük Nəsiminin 600 illik yubileyinin ilk dəfə dövlət səviyyəsində qeyd olunmasına, onun UNESCO-da da layiqincə keçirilməsinə nail olub.

Diqqətə çatdırıldı ki, Azərbaycan mədəniyyətinə, milli-mənəvi dəyərlərimizə böyük önəm verən Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə dahi şairin əsərləri böyük tirajla və nəfis tərtibatla çap olunub. Dövlət başçısı Nəsiminin 650 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması, 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan edilməsi barədə tarixi sərəncamlar imzalayıb. Nazir həmçinin belə tədbirlərə ev sahibliyi etdiyinə görə TÜRKSOY-a minnətdarlığını bildirdi: "Bu binada çox dəyərli tədbirlər keçirmişik. TÜRKSOY-un qərargahı türk mədəniyyətinin bir mərkəzinə çevrilib, böyük mədəniyyət və incəsənət xəzinəsini birləşdirir".

Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Əhməd Haluk Dursun çıxış edərək Azərbaycan və türkdilli dövlətlər arasında qarşılıqlı ədəbi, mədəni əlaqələrdən, həmçinin Nəsiminin zəngin yaradıcılığı haqqında danışdı.

Tədbirin panel hissəsində Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, akademik Nizami Cəfərov, Türk Şurası Ağsaqqallar Məclisinin üzvü, Türkiyə Böyük Millət Məclisinin sabiq deputatı, professor Mustafa İsen, professor Əhməd Bican Ercilasun Nəsiminin həyat və yaradıcılığı haqqında məruzələrlə çıxış etdilər.

Akademik Nizami Cəfərov bildirdi ki, Azərbaycan, fars və ərəb dillərində çoxsaylı əsərlərin müəllifi olan Nəsimi xüsusilə Azərbaycan poeziyası və ədəbi dilinin inkişafında əvəzsiz xidmətlər göstərib.

Professor Əhməd Bican Ercilasun Azərbaycanda çəkilən "Nəsimi" filmindən (1973) danışdı, ekran əsərində peşəkar aktyor oyununu diqqətə çatdırdı, hər kəsə bu filmə baxmağı tövsiyə etdi.

Tədbirin bədii hissəsində Qırğızıstanın Xalq şairi Kojogeldi Kuluyev və türkiyəli şairə İlter Yeşilay Nəsiminin şeirlərindən nümunələr söylədilər. Azərbaycanın Əməkdar artisti Feyruz Səxavət Nəsiminin qəzəllərini muğam üstə ifa etdi, Qazaxıstan əsilli aşıq Savbir Quseynov isə Nəsiminin qəzəllərini saz ilə səsləndirdi.

Həmin gün axşam "Nəsimi ili"nin açılış mərasimi Türkiyə Prezidenti Administrasiyasının Simfonik Orkestrinin geniş konsert proqramı ilə davam etdirildi. Əvvəlcə Xalq artisti Elnarə Kərimovanın dirijorluğu ilə TRT Xorunun ifasında Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor, AMEA-nın müxbir üzvü, UNESCO-nun "Sülh artist"i Firəngiz Əlizadənin "Nəsimi Passion" əsərindən xor bölümləri səsləndirildi. Aşıqlar Səlahəddin Dündar və Mehmet Gökçenin sazda çıxışlarından sonra Azərbaycanın Əməkdar artisti Feyruz Səxavət Nəsiminin qəzəlləri ilə muğam parçaları ifa etdi.

***

Martın 7-də "Nəsimi ili" tədbirləri İstanbulda, Türk Ədəbiyyat Vəqfində davam etdi. Vəqfin rəhbəri Serhat Kabaklı çıxış edərək böyük söz ustadı Nəsimiyə həsr olunmuş tədbirin əhəmiyyətindən söz açdı.

TÜRKSOY-un baş katibinin müavini, professor Fırat Purtaş çıxışında Nəsimi yaradıcılığının nəinki türk dünyasında, ümumiyyətlə, bəşəriyyət üçün dərin məna kəsb etdiyini qeyd etdi. Vurğulandı ki, Nəsiminin yaradıcılığı millətlər və xalqlar arasında təmas nöqtələrindən biridir.

Mədəniyyət naziri Əbülfəs Qarayev dəyərlərimizi yaşatmaq baxımından belə layihələrin önəmini qeyd etdi, Nəsimi yaradıcılığının dünənimiz və bu günümüz üçün birləşdirici dəyər olduğunu vurğuladı.

Türkiyəli professorlar Esat Harmancı, Nusret Gedik söz sənətinin qiymətli incilərini meydana gətirmiş mütəfəkkir şairin ümumtürk ədəbiyyatına töhfələr verdiyini, Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoyduğunu söylədilər.

Tədbir Nəsimi yaradıcılığının fəlsəfəsinə həsr olunmuş panel iclası ilə davam etdi.

Sonra konsert proqramı təqdim edildi.

Bizdə şeir də var, sənət də vardır...

Regionların yaradıcılıq festivalında Nəsimi irsi

Bu il martın 28-dən mayın 21-dək Mədəniyyət Nazirliyinin təşəbbüsü, nazirliyin regional idarələrinin iştirakı ilə gerçəkləşən 2-ci "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının yekun tədbiri iyunun 18-də Bakıda, Mərdəkan Mədəniyyət sarayında keçirildi. Tədbirdə mədəniyyət naziri Əbülfəs Qarayev, nazir müavinləri, bir sıra rayonların icra hakimiyyətinin rəhbərləri, regional mədəniyyət idarələrinin rəisləri və mədəniyyət işçiləri iştirak edirdilər.

Qonaqlar əvvəlcə Mədəniyyət sarayının həyətində regional idarələrin çadır-guşələri – xalq sənətkarlıq nümunələrinin, rəssamların əl işlərinin sərgi-yarmarkası ilə tanış oldular. Sərgi regional mədəniyyət idarələrinin əhatə etdiyi şəhər və rayonların sənətkarlıq, mədəni irs və incəsənətini əks etdirirdi.

Mədəniyyət sarayının foyesində isə "Nəsimi ili" və dahi şairin 650 illiyinə həsr olunmuş sərgi qurulmuşdu. Burada İmadəddin Nəsiminin əsərlərinin müxtəlif nəşrləri, onun haqqında kitablar, mütəfəkkir şairin əks olunduğu rəsm əsərləri yer almışdı. Onu da qeyd edək ki, festivalın regional idarələr üzrə şəhər və rayonlarda təşkil olunan bütün tədbirlərində Nəsimi irsinə, böyük söz ustadının yubileyinə xüsusi yer verilmişdi.

Mərasimdə çıxış edən mədəniyyət naziri Əbülfəs Qarayev "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının əhəmiyyətini yüksək qiymətləndirdi. Bildirdi ki, ölkəmizin, o cümlədən bölgələrimizin mədəni irsinə dövlət tərəfindən diqqət və qayğı göstərilir, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qayğısı sayəsində bu gün mədəniyyətimiz, mədəni irs nümunələrimiz beynəlxalq aləmdə təbliğ edilir: "Mədəniyyətimizi yaşatmaq və gələcək nəsillərə ötürmək üçün bu sahədə çalışanlar da öz töhfələrini verirlər. "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalı da bizim bu missiyaya töhfəmizdir".

Diqqətə çatdırıldı ki, regionlararası mübadilədə mühüm əhəmiyyət kəsb edən festival yerli sakinlərin xüsusi marağına səbəb olub. Yerli icra orqanlarının da dəstəyi ilə reallaşan layihə ölkəmizin regionlarının mədəni zənginliyi və sənətkarlıq irsi ilə tanış olmaq imkanı yaradıb.

Mərasimdə festivalın təşkilində dəstəyinə görə Balakən, Xaçmaz, Ağcabədi, Tərtər və Lerik rayonlarının icra hakimiyyətlərinin başçılarına mükafatlar təqdim edildi. Gəncə, Sumqayıt, Kürdəmir, Ağcabədi, Biləsuvar, Ağdaş regional mədəniyyət idarələrinin rəislərinə, həmçinin informasiya dəstəyinə görə AZƏRTAC və Azərbaycan Televiziyasına nazirliyin fəxri fərmanları verildi. Əbülfəs Qarayev festivalın keçirilməsində əməyi olan hər kəsə öz minnətdarlığını bildirdi, onlara gələcək fəaliyyətlərində uğurlar arzuladı.

Sonra regional mədəniyyət idarələrini təmsil edən və festivalda fərqlənmiş musiqi kollektivləri və incəsənət ustalarının iştirakı ilə konsert proqramı təqdim olundu.

Qeyd edək ki, yaradıcılıq festivalında ümumilikdə 65 şəhər və rayon iştirak edib. Festival martın 28-də Gəncə şəhərində başlanıb, 29 martda Ağstafa, 5 apreldə Ağdaş, 11 apreldə Saatlı, 12 apreldə Neftçala, aprelin 17-də Ağcabədi, aprelin 18-də Tərtər, 25 apreldə Xaçmaz, 26 apreldə Abşeronda (Xırdalan şəhəri) davam edib. Festival tədbirləri 2 may tarixində Lerik, 3 mayda Masallı, 10 mayda Kürdəmir, 11 may tarixində Şəmkir, 16 mayda Şamaxı və 21 mayda Balakən rayonlarında keçirilib. Festival çərçivəsində 80-ə yaxın musiqi kollektivi (folklor, rəqs, musiqi ansamblı və s.), 50-dən çox incəsənət ustası çıxış edib, xalq sənətkarlıq nümunələri, rəssamların əl işlərinin sərgi-yarmarkaları təşkil olunub.

"Nəsimi ili – Nəsimi dili"

Dahi şairin 650 illiyinə bir sənət töhfəsini də Bakı Uşaq Teatrı verib. Teatrın təşəbbüsü ilə 12-13 aprel tarixində "Nəsimi ili – Nəsimi dili" festivalı keçirildi.

Mədəniyyət Nazirliyi, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və Azərbaycan Teatr Xadimləri İttifaqının dəstəyi ilə reallaşan layihəyə Bakı Uşaq Teatrı, Akademik Musiqili Teatr, Sumqayıt Dövlət Dram Teatrı, Dərbənd Azərbaycan Dövlət Dram Teatrı, Mədəniyyət və İncəsənət Universiteti və Respublika İncəsənət Gimnaziyası qatılmışdı.

Festival tamaşaları Azərbaycan Teatr Xadimləri İttifaqının Abbas Mirzə Şərifzadə səhnəsində nümayiş olundu. Münsiflər heyətinin dəyərləndirməsinə görə ayrı-ayrı aktyorlar mükafatlandırıldı. Ümumilikdə isə heç kim təltifsiz qalmadı, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi tərəfindən bütün iştirakçılara fəxri fərmanlar təqdim edildi.

Yubileyə həsr olunmuş ədəbi-bədii gecə

Sumqayıt Dövlət Dram Teatrında dahi şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar tədbir keçirilib.

Ədəbi-bədii gecədə teatrın aktyorlarının hazırladığı kompozisiya nümayiş olunub, incəsənət ustalarının ifasında Nəsiminin qəzəllərindən nümunələr səslənib. Nəsimi obrazının təkrarsız ifaçısı, Xalq artisti Rasim Balayevlə görkəmli xanəndə, Xalq artisti Alim Qasımovun dueti hərarətli alqışlarla qarşılanıb.

"Səsin sehri"

Beynəlxalq Muğam Mərkəzində İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş "Səsin sehri" bədii qiraət müsabiqəsinin final mərhələsi keçirilib. Müsabiqə "Mədəniyyət" kanalı ilə birgə layihə üzrə gerçəkləşib.

Müsabiqə iştirakçıları Azərbaycanın klassik və müasir şairlərinin şeirlərini, yekun mərhələdə isə Nəsiminin qəzəllərini qiraət ediblər. Onların məharətini xalq artistləri Laləzar Mustafayeva, Əminə Yusifqızı və Əməkdar incəsənət xadimi İlham Rəhimli qiymətləndirib. Qaliblərə mükafatlar təqdim edilib.

Cahana sığmayan dahi

Dahi şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyinin keçirilməsi haqqında dövlət başçısının sərəncamının icrasını təmin etmək məqsədilə Mədəniyyət Nazirliyinin əmri ilə hazırlanan tədbirlər planına uyğun olaraq şəhər-rayon mədəniyyət müəssisələrində ədəbi-bədii gecələr, dəyirmi masalar, kitab sərgiləri, bədii qiraət və rəsm müsabiqələri keçirilir.

"Nəsimi ili" çərçivəsində nazirliyin Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində fəaliyyət göstərən mədəniyyət və təhsil ocaqlarında, mədəniyyət evi və mərkəzlərində müxtəlif səpkili tədbirlər davam edir.

***

Paytaxtdakı 3 nömrəli Uşaq incəsənət məktəbi tərəfindən "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunda Nəsiminin anadan olmasının 650 illik yubileyi münasibətilə "Mən bəşəriyyətə gərəyəm" adlı tədbir keçirilib. Tədbirdə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi Cəlil Məlikov, Suraxanı Rayon İcra Hakimiyyətinin əməkdaşı Nazim Fətullayev, "Nəsimi" filmində (1973) çəkilmiş Xalq artisti Əbdül Mahmudov, Əməkdar artist Xalidə Quliyeva, uşaq musiqi və incəsənət məktəblərinin direktorları, digər qonaqlar iştirak edib.

Məktəbin xoreoqrafiya sinfi şagirdlərinin ifasında kompozisiya və "Nəsimi" filmindən epizodlar nümayiş olunub. Sonra məktəbin müəllimi Rəşidə İsgəndərova Nəsiminin bir neçə qəzəlini səsləndirib. Məktəbin "Şəms" xalq çalğı alətləri ansamblının müşayiəti ilə xanəndə sinfi şagirdlərinin şairin sözlərinə bəstələnən mahnıları ifa ediblər. Xanəndə sinfinin şagirdləri "Nəsimi" filmindən dərvişlər səhnəsini canlandırmaları tədbirə xüsusi rəng qatıb.

Çıxış edənlər mütəfəkkir şairin yaradıcılığından söz açıblar. "Nəsimi" filminin çəkilişi ilə bağlı xatirələr, yaddaqalan səhnələr haqqında düşüncələr maraqla qarşılanıb. Tədbirin sonunda iştirakçılar məktəbin rəsm sinfi şagirdlərinin Nəsimiyə həsr olunmuş əl işlərindən ibarət sərgi ilə tanış olublar.

***

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin şəbəkəsinə daxil olan Qaradağ rayon Heydər Əliyev Mərkəzində Nəsiminin 650 illik yubileyinə həsr olunmuş rayon məktəblərinin şagirdləri arasında şeir müsabiqəsi keçirilib. Rayon İcra Hakimiyyəti başçısının müavini Təranə İsmayılova giriş nitqində Nəsimi sözünün qüdrətindən danışıb. Bildirib ki, Nəsiminin ədəbi irsi qədim köklərə və çoxəsrlik ənənələrə malik Azərbaycan ədəbiyyatı tarixində xüsusi mərhələ təşkil edir. Ana dilində şeirin humanist ideyalarla, yeni məzmun, deyim tərzi və bədii lövhələrlə daha da zənginləşməsində şairin misilsiz xidmətləri olub. Nəsimi yaradıcılığı bir sıra xalqların da bədii-ictimai fikrinin inkişafına təsir göstərib.

Diqqətə çatdırılıb ki, Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması ötən əsrin 70-ci illərində öz geniş fəaliyyəti sayəsində tarixi-mədəni dəyərlərimizə münasibətdə əsaslı dönüş yaratmış ümummilli lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Ulu öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyi UNESCO-nun tədbirlər siyahısına daxil edilib və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunub.

Sonra müsabiqəyə start verilib və şagirdlər Nəsiminin şeirlərini qiraət ediblər. Şair-publisist, pedaqoq, 166 №-li tam orta məktəbin direktoru Şəmsi Qoca, rayon İcra Hakimiyyəti İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Munis Bayramov şagirdlər tərəfindən söylənilən şeirlər haqqında öz fikirlərini söyləyib, məsləhətlərini veriblər. Daha sonra qaliblər elan olunub.

***

Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) Mirzə Şəfi Vazeh adına Mərkəzi Kitabxanası Nəsiminin 650 illik yubileyi və "Nəsimi ili" ilə əlaqədar Azərbaycan Milli Konservatoriyası nəzdindəki İncəsənət Gimnaziyasında tədbir təşkil edib.

Mərkəzi kitabxananın əməkdaşı İradə Hüseynova tədbiri açaraq Nəsiminin Azərbaycan poeziyasının inkişafına verdiyi töhfələrdən danışıb. Şagirdlər şairin həyatından bəhs edən səhnəcik nümayiş etdirib, qəzəllərini söyləyiblər.

Sonda şairin kitablarından ibarət sərgi və "Nəsimi ili" stendinə baxış keçirilib, "Nəsimi" filmindən fraqmentlər nümayiş olunub.

Yasamal rayon MKS-nin Mərkəzi Kitabxanasında Nəsiminin 650 illik yubileyi və "Nəsimi ili" ilə əlaqədar stend-sərgi də hazırlanıb. Fotosərgidə Nəsiminin Bakıdakı heykəlinin ümummilli lider Heydər Əliyevin iştirakı ilə açılışına dair fotolar, 2018-ci il noyabrın 19-da Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda böyük şairin büstünün açılışı ilə bağlı şəkillər, eləcə də şairin əlyazmalarının fotosurətləri və s. nümunələr yer alıb.

***

Xətai rayon MKS-nin Mərkəzi Kitabxanası rayon 257 saylı tam orta məktəblə birgə

"Nəsimi 650" adlı tədbir keçirib. Çıxışlarda böyük şairin yubileyinin qeyd edilməsi və 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan edilməsi haqqında dövlət başçısının imzaladığı sərəncamların əhəmiyyətini vurğulanıb. Şairin həyatı, milli ədəbiyyatımızda onun yaradıcılığının, fəlsəfi baxışlarının yeri və rolu barədə tədbir iştirakçılarına geniş məlumat verilib.

Tədbirdə şagirdlər ədəbi-bədii kompozisiyalar təqdim edib, Nəsiminin qəzəllərindən nümunələr səsləndiriblər.

***

Sabunçu rayon MKS-nin 2 saylı filialı Nəsiminin 650 illiyi münasibətilə 170 saylı orta məktəbin şagirdləri ilə birlikdə "Əbədiyyət üfüqündə doğmuş eşq günəşi" başlıqlı sərgi və tədbir keçirib. Filialın əməkdaşı S.Əliyeva çıxışında bildirib ki, Nəsiminin adı həqiqət naminə, fikir azadlığı yolunda qəhrəmanlığın rəmzi kimi əbədiləşib və yaddaşlarda yaşamaqdadır. Şair mərdanə ölümü ilə düşmənlərini belə təəccübləndirib, insanların qəlbində əsrlərlə yaşamasına zəmin yaradıb. Nəsimi yenilməzlik simvoluna çevrilib. Söz ustadının ölməz irsi Azərbaycan xalqının milli-mənəvi varlığının və böyük ideallarının, duyğu və düşüncəsinin zəngin və tükənməz xəzinəsidir.

Sonra şagirdlər şairin qəzəllərini söyləyib, kompozisiya təqdim ediblər.

***

Baş idarənin 24 nömrəli 11 illik Musiqi məktəbində "Nəsimi xanəndələrimizin ifasında" adlı tədbir keçirilib. Tədbirdə Bakı Musiqi Akademiyası Humanitar fənlər kafedrasının müdiri, professor Tərlan Quliyev, Xalq artisti Canəli Əkbərov, Əməkdar incəsənət xadimi Aqil Məlikov və başqa qonaqlar iştirak ediblər. Tədbirdə Nəsimi poeziyasından, onun fəlsəfəsindən, poeziyasının incəliklərindən danışılıb, tanınmış xanəndələr şairin sözləri üstündə muğam və mahnılar səsləndiriblər.

***

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyindəki Ş.Ələkbərova adına Mədəniyyət evi Azərbaycan bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr edilən "Məndə sığar iki cahan" adlı bədii qiraət müsabiqəsi keçirib. Müsabiqə Xətai rayonu 58 saylı tam orta məktəbdə təşkil edilib. Mədəniyyət evinin direktoru C.Süleymanov iştirakçılara müsabiqə haqqında məlumat verib.

Sonra məktəblilər Nəsiminin qəzəllərini səsləndiriblər. Müsabiqədə 1, 2 və 3-cü yeri tutanlara fəxri fərman, fəal iştirak edənlərə isə tərifnamələr təqdim olunub.

Var bu cahandan özgə bizim bir cahanımız,
Surət bu aləm oldu bizə, ol məkanımız.

Zatına həyyü baqi demişlər bu cövhərin,
Şol kim, bizim-cahanımız olmuş bu canımız.

Ey dəvət eyləyən bizi firdövsə, eylə bil,
Cənnətdən özgə vardurur əla məkanımız.

Cövhər ki, dutdu aləmi rövşən günəş kimi,
Andandır aşikara bu gənci-nihanımız.

Cövhərləri zühura gətirdi çü nitqi-həq,
Gör kim, nə feyzə gəldi yenə bəhrü kanımız.

Ol kim, bizim həqiqətimizdir xəyalımız,
Yoxdur nişanı qılca, nə bilsin nişanımız.

Sən bu Nəsiminin dilini anla, bil sözün
Kim, var bu dildən özgə bizim bir lisanımız.

***

Dinləgil bu sözü ki, candır söz,
Aliyü asiman məkandır söz.

Şeş cəhətdən münəzzəh anlavü bax,
Şöylə kim, xaliqi-cahandır söz.

Nazilü münzil anla kim, birdir,
Kəndi kənduyə tərcümandır söz.

Tulü ərz ilə ümqü bulunmaz
Yəni bihəddü binişandır söz.

Bu hədisə nəzər qıl, ey aqil,
Anlayasan ki, bigümandır söz.

Ərşi-rəhman dedi nəbi könülə,
Çünki gördü, könüldə kandır söz.

Dedi ya kafüha, əyzə-bikə,
Çün Əli bildi, müstəandır söz.

Qeyri-məxluqdur, nə demək olur,
Anla kim, imdi rayigandır söz.

Əqli-küll ərşü kürsü, lövhü qələm,
Çar ünsür, nöh asimandır söz.

Zahirü batin, əvvəlü axir,
Aşikaravü həm nihandır söz.

Ey üqulu nəsəb edən isbat,
Qamuya söz de kim, hamandır söz.

Kafü nundan vücuda gəldi cahan,
Əgər anlar isən, əyandır söz.

İsiyi-pak, Adəmü Əhməd,
Mehdiyi-sahibəz-zəmandır söz.

Bu bəyanı dilərsən anlayasan
Kim, necəsi filan-filandır söz.

"Cavidanməmə"yi gətirgil ələ,
Ta biləsən ki, nəsnə candır söz.

Sözə bu izzü cah yetməzmi,
Kaydalar Fəzli-qeybdandır söz.

Aqil isən sözünü müxtəsər et,
Ey Nəsimi, çü bigirandır söz.

Cahana sığmayan dahi

Altı əsrdən çoxdur böyük şair, mütəfəkkir İmadəddin Nəsiminin (1369-1417) adı nəinki Azərbaycanda, eləcə də əsərlərinin yayıldığı Yaxın Şərq, Mərkəzi Asiya ölkələrində, qardaş Anadolu elində müdriklik, fədakarlıq, iradə rəmzi kimi xatırlanır. Məsləyi, idealları uğrunda edam olunan və son nəfəsində belə haqq bildiyi sözündən dönməyən şairin faciəli ölümü əfsanələşərək xalq yaddaşında, aşıqların sazında, sözündə yaşayaraq dövrümüzə gəlib çatıb.

Nəsimi Orta əsrlər Azərbaycan ədəbiyyatının inkişafında, ədəbi dilimizin zənginləşməsində müstəsna rol oynamış qüdrətli söz sənətkarıdır. Azərbaycan və dünya ədəbiyyatının böyük nümayəndələrindən olan mütəfəkkir şairin 650 illik yubileyinin yüksək səviyyədə qeyd edilməsi, 2019-cu ilin "Nəsimi ili" elan olunması dövlətimizin rəhbərliyinin milli mədəniyyətə və incəsənətə qayğıkeş münasibətinin göstəricisidir. Son illərdə Nəsimi irsinin ölkəmizdə və dünyada təbliği istiqamətində böyük işlər görülür. 2017-ci ilin may ayında Parisdə, UNESCO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyinə həsr olunmuş tədbir keçirilib. 2018-ci ildə Heydər Əliyev Fondunun layihəsi üzrə ölkəmizdə ilk dəfə Nəsimi – poeziya, incəsənət və mənəviyyat festivalı təşkil olunub.

Mədəniyyət Nazirliyinin dəstəyi və təşkilatçılığı ilə "Nəsimi ili" çərçivəsində nazirliyin regional idarələrinin əhatə etdiyi bütün şəhər və rayonların tabe müəssisələrində silsilə tədbirlər keçirilir.

***

Gəncə Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələrində də bu əlamətdar hadisə ilə bağlı tədbirlər ilin əvvəlindən davam edir.

Gəncə şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) Mərkəzi Kitabxana və filiallarında "Ey xəstə könül, dərdimə dərman tələb eylə" adlı qəzəl saatı, "Eşq və azadlıq şairi" mövzusunda şeir gecəsi, kitab sərgisi, "Azərbaycan şairlərinin yaradıcılığında Nəsimi obrazı" adlı oxucu konfransı, "Mən ədəbiyyat səmasında doğan günəşəm" adlı musiqili ədəbi-bədii gecə, "Dünya poeziyasının iftixarı" adlı tədbir və Xalq şairi Qabilin "Nəsimi" poemasının müzakirəsi təşkil olunub. Mərkəzi kitabxanada "Cahana sığmayan şair" adlı ədəbi-bədii kompozisiya təqdim edilib.

Gəncə şəhərində "Nəsimi ili"nə yaddaqalan töhfələrdən biri də Heydər Əliyev adına mərkəzi meydanda keçirilən möhtəşəm fləşmob olub. Şəhərin ali və orta ixtisas məktəbləri tələbələrinin – 2800-dən çox gəncin qatıldığı aksiyada dahi Azərbaycan şairi İmadəddin Nəsiminin portreti canlandırılıb. Nümayiş olunan canlı loqo gənc rəssam Mobil Qarayev tərəfindən hazırlanıb

***

Regional idarənin əhatə etdiyi Naftalan şəhər Nizami Gəncəvi adına Mərkəzi Kitabxana tərəfindən 1 saylı orta məktəbdə "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" mövzusunda ədəbi-bədii gecə keçirilib.

Şəhər Mədəniyyət Mərkəzində "Daimi yaşar şair" adlı dəyirmi masada Nəsiminin Azərbaycan ədəbiyyatının, ana dilimizin inkişafına verdiyi töhfələrdən söz açılıb. Çıxışlarda Nəsimi poeziyasının, müəllifin ideallarının həmişə aktuallığını qoruyub saxlayacağı vurğulanıb.

Naftalan şəhər Heydər Əliyev Mərkəzində gerçəkləşən "Nəsimi bu günümüzün şairidir" adlı dəyirmi masada ölməz söz ustadının yaradıcılığından ətraflı bəhs olunub.

***

Goranboy Dövlət Rəsm Qalereyasında "İmadəddin Nəsimi 650" adlı rəsm sərgisi keçirilib. Sərgidə rəssam Akif Hüseynovun Nəsimi poeziyasına həsr olunmuş "Nəsimini oxuyarkən" adlı rəsm əsəri və qrafika üslubunda çəkilmiş portreti, İncəsənət məktəbinin rəssamlıq sinfi şagirdlərinin rəsmləri nümayiş olunub.

Qalereyanın direktoru Çinarə Abdullazadə çıxış edərək Nəsiminin yaradıcılığı haqqında məlumat verib.

Goranboy rayon MKS-nin təşkilatçılığı ilə rayonun 1 nömrəli tam orta məktəbində "Ölümü ilə ölməzlik qazanan şair" adlı oxucu konfransı keçirilib.

Rayon Tarix-Diyarşünaslıq Muzeyində "Nəsiminin yaradıcılığı milli-mənəvi varlığımızdır" adlı tədbir təşkil olunub. Çıxışlardan sonra "Nəsimi" bədii filmindən fraqmentlər nümayiş etdirilib.

Düzqışlaq kənd Uşaq musiqi məktəbində Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbirdə də dahi şairin həyat və yaradıcılığı barədə məlumat verilib. Sonra məktəbin müəllim və şagirdlərinin iştirakı ilə konsert proqramı təqdim olunub.

***

Samux rayon MKS-də "Böyük Azərbaycan şairi İmadəddin Nəsimi" adlı tədbir keçirilib. Tədbirdə çıxış edənlər Nəsiminin Azərbaycan poeziyasına lirik-fəlsəfi çalar gətirdiyi vurğulanıb.

Heydər Əliyev Mərkəzində təşkil olunan kitab sərgisində Nəsiminin əsərlərinin müxtəlif illərdə çap edilən nümunələri və şairin zəngin yaradıcılığına dair tədqiqatları əhatə edən monoqrafiya və kitablar, mətbu nəşrlər nümayiş olunub.

***

Kəlbəcər rayon MKS-nin Allıkənd kitabxana filialında "Nəsimi 650" adlı tədbirdə çıxış edənlər mütəfəkkir şairin yubileyinin dövlət səviyyəsində geniş qeyd olunmasını bütövlükdə Azərbaycan ədəbiyyatına diqqətin nümunəsi kimi səciyyələndiriblər.

***

Xocalı rayon MKS-nin Cəmilli kənd 1 saylı Kitabxana filialında Nəsiminin yubileyinə həsr olunmuş "Şair və cəsarətli insan" adlı bədii qiraət gecəsi keçirilib. Söz ustadının yaradıcılığı haqqında məlumat verildikdən sonra şairin qəzəlləri qiraət olunub.

Rayon Mərkəzi kitabxanasında əlamətdar yubileylə bağlı "Əbədiyaşar klassiklər" adlı kitab sərgisi təşkil olunub.

Rayon Mədəniyyət evində keçirilən dəyirmi masada çıxış edənlər vurğulayıblar ki, Nəsimi Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirib. Sonda şairin bir neçə qəzəli səsləndirilib.

***

Gəncə şəhəri "Nəsimi ili"ndə həmçinin Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının ilk tədbirinə ev sahibliyi edib. Azərbaycan xalqının zəngin mədəni irsinin təbliği, bölgələrin mədəni imkanlarının nümayişi, eləcə də regionlararası mədəni mübadiləni gücləndirmək məqsədi daşıyan festivalın açılış mərasimi martın 28-də Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında gerçəkləşib. Mərasimdə mədəniyyət nazirinin müavini Rafiq Bayramov, şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, mədəniyyət işçiləri, ictimaiyyət nümayəndələri, respublikamızın bölgələrindən gəlmiş qonaqlar iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları Mədəniyyət Nazirliyinin 15 regional mədəniyyət idarəsi tərəfindən qurulmuş guşələrdə bölgələrin xalq sənətkarlıq nümunələri, dekorativ-tətbiqi sənət əsərləri, rəsmlər, suvenirlər və digər əl işləri ilə tanış olublar. Tədbirdə "Nəsimi ili" ilə əlaqədar kitab guşəsi təqdim edilib. Sonra regional mədəniyyət idarələrinin bədii özfəaliyyət kollektivləri, folklor və rəqs qrupları konsert proqramı ilə çıxış ediblər. Festival iştirakçılarının çıxışları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Sakinlər bölgələrimizdə ikinci dəfə belə bir festivalın keçirilməsinin əhəmiyyətini məmnunluqla qeyd ediblər.

Yerin yağmur həyatıdır, həyat uçmaq nəbatıdır,
Bahar onun səbatıdır ki, göstərər bu aləmdən.

Havada tutiyü qumru, çəməndə çəngü saz eylər,
Dutar ahəngini quşlar kimi zilü, kimi bəmdən.

Ağaclar hüllə puşindən, ya qönçə badə nuşindən,
Çəmən sərxoşi cuşindən, qədəh pürləli-şəbnəmdən.

Nə qafil evdə qalmışsan, sən ey qafil, bu mövsümdə,
Çü bülbül güldən ayrılmaz, ya aşiq yarü həmdəmdən.

Çü bilirsən sərəncamı, keçirmə püxtədən xamı,
Qənimət gör bu əyyamı, bu gün sən camı çək cəmdən.

Çü gördün güllər açılmış, suçular qeybə içilmiş,
Bulara qarşı biz daxi nuş etdik, içdik ol cəmdən.

Ələ gətir nigarını, ye, iç onunla varını,
Bu gün xoş keç qo yarını, qərəz xoş andır adəmdən.

Əyağa əl uralım uş, bu dəm eyşi sürəlim uş,
Dəmimiz xoş görəlim uş, neçələr qaldı bu dəmdən.

Gör ol salusü məhrumu, məni zöhd ilə qorxudur,
Sanasan kəndi dün gəlmiş bərat ilə cəhənnəmdən.

Bu asi qulların cürmü cahana imdimi gəldi,
Bizə ol dəmdə qalıbdır günah Həvvavü Adəmdən.

Nəsimi, asiyə uydun, vəli bunu dəxi duydun
Ki, cürmün bilənə rəhmət qılır həq mateqəddümdən.

***

Sən sana gər yar isən var, ey könül, yar istəmə!
Yarü dildar ol sana, sən yarü dildar istəmə!

Bivəfadar çün bu aləm, kimdən istərsən vəfa?
Bivəfa aləmdə sən yari-vəfadar istəmə!

Gül bulunmaz bu dikənli dünyanın bağında çün,
Əbsəm ol, bihudə gülsüz yerdə gülzar istəmə!

Mərifətdir xalis altun, sikkəsi fəzlü hünər,
Altunu tanı, zəğəldən ari dinar istəmə!

Həqqə münkirdir fəqih, inanma ol şeytana kim,
Yoxdur ol cinxilqətin zatında iqrar, istəmə!

Ari göftar, ey könül, gerçəklərin nitqidürür,
Hər diliəgridə yoxdur ari göftar, istəmə!

Cifədir dünya, anın talibləri adı kilab,
Olma kəlb anın kim, oldu adı murdar, istəmə!

Şərbəti ağuludur fani cahanın, sən anın
Şərbətindən nuşudaru umma, zinhar istəmə!

Dünyanın sevgisi ağır yük imiş, məndən eşit,
Nəfsini yük etmə ana, ey səbükbar, istəmə!

Bir əmin məhrəm bulunmaz, ey Nəsimi, çün bu gün,
Xəlqə faş etmə bu rəmzi, kəşfi-əsrar istəmə!

Cahana sığmayan dahi

İnsanpərvərlik və azadlıq nəğməkarı olan şair İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi və "Nəsimi ili" ilə bağlı Sumqayıt Regional Mədəniyyət İdarəsinin tabeliyində olan müəssisələrdə silsilə tədbirlər təşkil olunub.

Sumqayıt şəhər S.Vurğun adına Mərkəzi Kitabxanada "Cahana sığmayan Azərbaycan şairi", Gənclər kitabxanasında "Əbədiyyət üfüqündə doğmuş eşq günəşi", Mərkəzi Uşaq Kitabxanasında "Böyük şair və mütəfəkkir", Hacı Zeynalabdin Tağıyev qəsəbə kitabxanasında "Azərbaycanın böyük şairi", Ə.Vahid adına kitabxana filialında "Məhəbbət və gözəllik şairi" adlı kitab sərgiləri təşkil edilib.

Nizami Gəncəvi adına kitabxana-klubun əməkdaşları 27 nömrəli tam orta məktəbdə "Cahana sığmayan şair" adlı səyyar sərgi, Mərkəzi kitabxananın Uşaq şöbəsi 5 saylı məktəbin 6-cı sinfində "Nəsiminin sözü həqdir, həqqi bil" adlı ədəbiyyat saatı keçirib. Tədbirdə şagirdlərə dahi şairin həyat və yaradıcılığı, fəlsəfi görüşləri haqqında geniş məlumat verilib. Mərkəzi Uşaq Kitabxanasında 12 və 16 nömrəli məktəblərin yuxarı sinif şagirdlərinin iştirakı ilə şairin yaradıcılığına həsr olunmuş "Nəsiminin mənəvi irsi" adlı oxucu konfransı təşkil olunub.

Sumqayıt şəhər Poeziya evi və 16 nömrəli tam orta məktəbin birgə təşkilatçılığı ilə keçirilən "Əbədiyyət üfüqünün parlaq günəşi" adlı tədbirdə şəhər İcra Hakimiyyəti, AMEA-nın Folklor İnstitutu, şəhər Təhsil şöbəsinin əməkdaşları və başqaları çıxış ediblər. Sumqayıt Dövlət Dram Teatrının aktyorları Nəsimiyə həsr olunmuş səhnəcik nümayiş etdiriblər.

Sumqayıt şəhər Nəsimi adına mədəniyyət və istirahət parkında Sumqayıt Dövlət Rəsm Qalereyası tərəfindən "İki cahan" adlı plener – açıq səma altında etüd müsabiqəsi keçirilib. Müsabiqədə 4 saylı Diyarşünaslıq klubu, Bülbül, S.Rüstəmov, Ə.Bakıxanov adına musiqi və incəsənət məktəblərinin şagirdləri iştirak ediblər.

***

Abşeron rayonu Qobu qəsəbə Uşaq incəsənət məktəbi və qəsəbə Sənətkarlıq evinin birgə təşkilatçılığı ilə Nəsiminin 650 illik yubileyinə həsr olunan ədəbi-bədii gecə keçirilib. Tədbirdə qədim musiqi alətləri və sufi musiqisi elementlərinin müşayiəti ilə şairin qəzəllərindən ibarət muğam konserti təşkil edilib. Çıxışlarda Nəsiminin həyat və yaradıcılığından, onun təbliğ etdiyi hürufilik dini-fəlsəfi təlimindən, şairin əsərlərinin dil və üslub xüsusiyyətlərindən bəhs edilib, zəngin bədii irsinin tədqiqi istiqamətində aparılan işlərdən danışılıb.

***

Şuşa şəhər Niyazi adına Uşaq incəsənət məktəbində rəssamlıq şöbəsinin şagirdləri arasında "Nəsimi uşaqların gözü ilə" mövzusunda müsabiqə təşkil olunub. 15 şagirdin müsabiqəyə təqdim etdiyi əsərlər arasından seçilən beş nümunənin müəllifi fəxri fərmanla təltif edilib.

***

Qubadlı rayon MKS-nin təşkilatçılığı ilə Nəsiminin 650 illiyinə həsr olunmuş "Həqiqət günəşi" adlı tədbir keçirilib. Tədbirdə mədəniyyət işçiləri, Sumqayıt Regional Mədəniyyət İdarəsinin nümayəndəsi Eldar Hüseynov və oxucular iştirak ediblər. MKS-nin direktoru Müşgünaz Muradova, regional idarənin baş məsləhətçisi Əmrah Hüseynov və digər çıxış edənlər qüdrətli söz ustadının insanı ilahiləşdirən, ucaldan bənzərsiz şeirlər qələmə aldığını deyiblər. Qeyd olunub ki, Azərbaycan ədəbi dilinin formalaşmasında Nəsimi poeziyasının müstəsna rolu var. Çıxışlarda 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan olunması barədə Prezident İlham Əliyevin sərəncamı yüksək qiymətləndirilib.

Rayon Mədəniyyət evinin bədii qiraət dərnəyinin üzvləri Nəsimiyə həsr olunmuş bədii nümunələrdən parçalar oxuyublar, şairin qəzəlləri üstündə muğamlar ifa edilib. Onun qəzəlləri xanəndə Məzahir Məmmədovun ifasında alqışlarla qarşılanıb. MKS-nin təşkilatçılığı ilə "Nəsimi 2019" başlıqlı geniş kitab sərgisi təşkil edilib. Şairin əsərlərinin biblioqrafik göstəricisi hazırlanıb. Tədbirdə fəal iştiraka görə dərnəyin üzvlərinə MKS tərəfindən kitablar hədiyyə olunub və fəxri fərmanla təltif ediliblər.

Xızı rayon Heydər Əliyev Mərkəzində mədəniyyət və təhsil işçilərinin, məktəblilərin iştirakı ilə Nəsiminin yubileyinə həsr olunmuş konfrans keçirilib. Konfransdan sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzi və Mərkəzi kitabxananın fondunda saxlanılan kitablardan ibarət "Nəsimi 650" və "Qürub edən günəş" adlı kitab sərgiləri ilə tanış olublar. Sonda "Nəsimi" filmi nümayiş etdirilib.

Rayon MKS-nin kitabxana filiallarında Nəsiminin 650 illik yubileyinə həsr olunmuş dəyirmi masalar, sərgilər təşkil edilib. Mərkəzi kitabxana tərəfindən hazırlanan və Nəsiminin ömür və sənət yolundan bəhs edən videoçarx maraqla qarşılanıb.

***

Zəngilan rayon MKS-nin Mərkəzi Kitabxanasında Nəsiminin 650 illiyinə həsr olunan seminar, kitab sərgisi və dəyirmi masa keçirilib. Tədbirdə Bakı şəhəri N.Nərimanov rayonu 193 saylı tam orta məktəbin şagirdləri şairin qəzəllərindən nümunələr səsləndiriblər. Zəngilan kənd klubunda keçirilən tədbirdə Nəsiminin Azərbaycan xalqının bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair, qüdrətli söz ustadı olduğu vurğulanıb.

Zəngilan Rayon Tarix-Diyarşünaslıq Muzeyində təşkil olunan bədii qiraət müsabiqəsində Nəsiminin qəzəlləri səsləndirilib.

***

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının Abşeron rayonunun Xırdalan şəhərində gerçəkləşən tədbirində də böyük şairin irsinə xüsusi diqqət ayrılıb. Festivalda "Nəsimi ili" ilə əlaqədar ayrıca kitab guşəsi təqdim olunub. Festivalda balaca ziyarətçilərin də maraqları nəzərə alınıb. "Günəşim" və "Cırtdan" kukla teatrlarının hazırladıqları tamaşalar uşaqların zövqünü oxşayıb. Konsert proqramında hər bir regional idarə üzrə folklor qrupları, yerli incəsənət və bədii özfəaliyyət kollektivlərinin çıxışları, musiqi nömrələri, rəqslər tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Zəngilan rayonunun folklor kollektivi, Abşeron rayon Mədəniyyət Mərkəzinin Xalq teatrı, bir neçə musiqi məktəbinin sazçalanlar ansamblı və rəqs kollektivlərinin çıxışı festivala xüsusi rəng qatıb.

Rayon Mədəniyyət evi, Gənclər və idman idarəsi və 29 nömrəli tam orta məktəbin birgə təşkilatçılığı ilə Nəsiminin yubileyi münasibətilə tədbir keçirilib. Tədbirdə məktəbin şagirdləri şairin ömür yoluna həsr olunan səhnəciklər təqdim edib və qəzəllərini söyləyiblər. Sonda iştirakçılar "Nəsimi" bədii filmini izləyiblər.

Gəlmişəm həqdən ənəlhəq, gör nə Mənsur olmuşam,
Ruhi-qüdsün nitqiyəm, sər ta qədəm nur olmuşam.

Lövhi-məhfuzu mənəm, ruhül-əminin həmdəmi,
Həşr üçün mizanü İsrafilü həm sur olmuşam.

Bavücudam vəhdəti kəsrətdə isbat eyləyim,
Musayam anəstünara, nur ilə Tur olmuşam.

Gərçi qaibdir vücudum hər nəzərdən daima,
Gör nə nazir, gör nə mənzər, gör nə mənzur olmuşam.

Laməkanın gənciyəm, gərçi yerim viranədir,
Eylərəm məmur anı, gör kim, nə məmur olmuşam.

Surətü mə`ni mənəm, həm ism ilə, həm cismü can,
Gör necə mə`ni ilən surətdə məstur olmuşam.

Şöhrət afətdir, usandım şöhrətindən aləmin,
Gərçi həm əladavü əfsəldə məşhur olmuşam.

Ateşi-mehri-rüxün canımda təsir eylədi,
Mən bu oddan yanıram, yəni ki, məhrur olmuşam.

Misr camedir vücudum, anda qıldım cüməyi,
Gör nə şəhrəm, gör nə möhkəm qələvü sur olmuşam.

Zakirəm, zikr eylərəm, yəni ki, şeyxəm, sufiyəm,
Gör nə göyçək ad ilə aləmdə məzkur olmuşam.

Ey Nəsimi, cənnətü hur ol nigarın vəslidir,
Çün mən ol məhbubu buldum, cənnətü hur olmuşam.

***

Bu nə bərgüzidə candır ki, gəzər bu can içində?
Bu nə qiyməti gühərdir ki, yatar bu kan içində?

Səni kimdir adəm oğlu deyən, Allah, Allah, Allah,
Bu sifətdə kim, görübdür bəşəri-cahan içində?

Məgər uy verür ləbindən, iremez yəqin bu sirrə,
Nə xəyal imiş bu, yarəb, xəbəri güman içində?

Qara qaşının, gözünün adı Qövsü Müştəridir,
Bu sitarənin oxun gör ərəbi kaman içində.

Üzünü niqab içində, yaşır, ey qəmər surətlü
Ki, rüxün qiyamət eylər bu axırzaman içində.

Səni məndən iraq, ey can, necə ayıra zəmanə,
Gözüm ilə görmüşəm çün səni hər məkan içində.

Yenə mey fəğanə gəldi, cigərim tutuşdu yandı,
Nəyə uğradı, nə gördü bu tühimiyan içində?

Dilərəm zaman-zaman kim, səni faş edəm cahana,
Necə bir yana bu şəmin cigəri düxan içində?

Bu dərin məaniyi gör ki, bəyan qılur Nəsimi,
Fələkin dili tutuldu bu ulu bəyan içində.

Cahana sığmayan dahi

Azərbaycan ədəbiyyatı tarixinə görkəmli simalar bəxş etmiş Şamaxıda dünyaya gələn böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyi onun ata yurdunda, eləcə də İsmayıllı Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi digər şəhər və rayonlarda çeşidli tədbirlərlə qeyd olunur.

***

Şamaxı rayon Mərkəzi Kitabxanasında Nəsiminin anadan olmasının 650 illiyi və "Nəsimi ili" ilə əlaqədar dəyirmi masa təşkil edilib. Çıxışlarda şairin keşməkeşli həyat yoluna və zəngin yaradıcılığına nəzər salınıb. Mərkəzi kitabxanada böyük şairin yubileyinə həsr edilmiş daha bir tədbir "Nəsimi Şərqdə fəlsəfi poeziyanın banisidir" mövzusunda olub.

Mərkəzi kitabxananın Uşaq şöbəsi və M.Hadi adına 9 saylı tam orta məktəbin birgə təşkilatçılığı ilə "Bizdə şeir də var, sənət də vardır..." adlı tədbir keçirilib. Məktəblilər şairin qəzəllərini qiraət ediblər. Qızmeydan kənd kitabxanası və kənd məktəbinin təşkil etdiyi "Sığmazam" adlı tədbirdə isə şairin fəlsəfi dünyasından bəhs edilib.

Şamaxı Dövlət Rəsm Qalereyasında yubileylə əlaqədar "Şamaxı şairlər vətənidir" mövzulu portret janrında çəkilən əsərlərdən ibarət sərgi təşkil olunub.

Heydər Əliyev Mərkəzində "Nəsimi insanlığın kamillik zirvəsidir" adlı tədbir gerçəkləşib.

Şamaxı Rayon İcra Hakimiyyəti və Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Şamaxı filialının təşkilatçılığı ilə keçirilən ədəbi-bədii gecə də "Nəsimi ili"nə töhfə olub. Mədəniyyət mərkəzində keçirilən tədbiri rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov açıb. ADPU-nun Şamaxı filialının direktoru, dosent Tünzalə Yusifova Nəsimi şəxsiyyətinin, onun ideallarının və əqidəsinin müasir dövrümüzlə səsləşdiyini vurğulayıb. Filialın Ədəbiyyat və dillər kafedrasının müəllimi Rima Quliyeva Nəsimi poeziyasının humanizmindən söz açıb.

Tədbirin qonağı – "Nəsimi" filmində baş rolun ifaçısı, Xalq artisti Rasim Balayev ona şöhrət qazandıran ekran əsəri haqqında danışıb: "Nəsimi" filmi çox uğurlu alınıb. Həm də bu təkcə mənim yox, bütün kollektivin uğuru idi. Sevinirəm ki, bu filmə indi də maraqla baxırlar". Aktyor deyib ki, bir çox xalqlar Nəsimini öz şairi kimi təbliğ edirlər. Əslində isə o, Azərbaycan şairi olmaqla yanaşı, həm də bəşəri şairdir. Nəsimi poeziyasının fəlsəfəsi çox dərindir.

Görüşdə Rasim Balayevin şairin bir neçə qəzəlini səsləndirməsi tamaşaçıların alqışları ilə qarşılanıb. Sonda musiqili-ədəbi kompozisiyalar və "Nəsimi" filmindən fraqmentlər nümayiş olunub.

***

İsmayıllı rayon Heydər Əliyev adına Mədəniyyət Mərkəzində ədəbi-bədii gecə keçirilib. Şairin ədəbiyyatımızda yeri və rolu barədə söz açılıb, poeziyasının ədəbi düşüncəyə təsirindən bəhs olunub. Nəsiminin həyatını əks etdirən kompozisiya maraqla qarşılanıb.

İsmayıllı rayon MKS-nin 1 saylı şəhər filialında görkəmli söz ustadının yubileyinə həsr olunmuş sərgi təşkil edilib. Sərgidə şairin müxtəlif illərdə işıq üzü görən kitabları, eləcə də Nəsimi yaradıcılığına dair nəşrlər, mətbuat materialları yer alıb. Mərkəzi kitabxananın oxu zalında və MKS-nin 2 saylı şəhər filialında, Kürdmaşı kənd və digər kitabxana filiallarında da sərgilər təşkil olunub.

MKS-nin Qubaxəlilli kənd kitabxanasında keçirilən tədbirdə Nəsiminin həyat və yaradıcılığından danışılıb, ana dilində ədəbiyyatın inkişafına verdiyi töhfələr yüksək qiymətləndirilib. Tədbir iştirakçıları sonda "İmadəddin Nəsimi 650" başlığı altında sərgiyə baxıblar.

Qalacıq kənd Sənətkarlıq klubunda isə "Əbədiyyət səmasında doğan günəş" adlı ədəbi-bədii gecə keçirilib. "Nəsimi" adlı sərgi qonaqların marağına səbəb olub.

***

Ağsu rayon Mərkəzi Kitabxanasında "Məndə sığar iki cahan..." adlı ədəbi-bədii kompozisiya və "Ölümü ilə ölməzlik qazanan şair – Nəsimi" adlı tədbir keçirilib.

Mərkəzi kitabxananın Uşaq şöbəsində təşkil edilən "Həqq mənəm, Həqq məndədir, həqq söylərəm" başlıqlı sərgidə Nəsimi irsinin müxtəlif illərdə nəşr olunmuş nüsxələri və şairin yaradıcılığına həsr edilən kitablar nümayiş olunub.

Göydəlləkli kənd klubunda kənd kitabxana filialının və orta məktəbin iştirakı ilə böyük söz ustadının yubileyinə həsr olunan tədbir keçirilib.

Tədbirdə şairin həyat və yaradıcılığından bəhs edilib, şagirdlər Nəsiminin qəzəllərini söyləyiblər.

Rayon Mədəniyyət mərkəzində "Nəsimi 650" adlı yubiley gecəsi təşkil olunub. Gecədə şairin dillərə dastan ömür yoluna və bənzərsiz yaradıcılığına nəzərə salınıb, Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətləri vurğulanıb.

Ağsu rayon Uşaq musiqi məktəbində keçirilən tədbirdə Nəsiminin ədəbi irsindən söz açılıb, şagirdlərin ifasında musiqi nömrələri maraqla qarşılanıb.

***

Qəbələ Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə Nəsiminin yubileyinə həsr olunan sərgi keçirilib. Tədbir iştirakçıları sərgilənən nəşr nümunələri ilə maraqla tanış olublar.

Heydər Əliyev Mərkəzində şairin 650 illik yubileyinə həsr olunan tədbirdə çıxış edənlər Nəsiminin hürufilik təriqətinin geniş coğrafiyada yayılmasında xidmətləri qeyd olunub. Tədbirin sonunda "Nəsimi" bədii filmindən parçalar nümayiş etdirilib.

Rayon Tarix-diyarşünaslıq muzeyinin filialı olan İsmayıl bəy Qutqaşınlının ev-muzeyində gerçəkləşən tədbirdə də Nəsiminin söz və hikmət xəzinəsindən söz açılıb, şairin bədii irsinin həmişə öz aktuallığını qoruyacağı vurğulanıb. Şəhər İncəsənət məktəbində yerli yazarların iştirakı ilə dəyirmi masa təşkil edilib.

Qəbələ rayon Mədəniyyət Mərkəzində ədəbi-bədii gecə keçirilib. Tədbirdə dahi şairin qəzəlləri səsləndirilib, musiqili səhnəciklər nümayiş olunub.

MKS-nin oxu zalında keçirilən yubiley tədbirində isə Nəsimi yaradıcılığının Azərbaycan ədəbi dilinin inkişafında mühüm rol oynadığı, ədəbiyyatımızın janr baxımından zənginləşməsinə töhfələr verdiyi qeyd olunub.

***

Qobustan rayon Mədəniyyət Mərkəzində İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar bədii qiraət müsabiqəsi keçirilib. Müsabiqədə şairin əsərləri şagirdlər tərəfindən qiraət edilib və fərqlənənlər mükafatlandırılıb.

Qobustan şəhər R.Behbudov adına Uşaq incəsənət məktəbində "Cahana sığmayan şair" adlı tədbir keçirilib. Təklə kənd Uşaq musiqi məktəbində də əlamətdar yubileylə əlaqədar tədbir gerçəkləşib.

Mərkəzi kitabxana və Mədəniyyət mərkəzinin birgə təşkilatçılığı ilə "Məndə sığar iki cahan" adlı ədəbi-bədii gecə keçirilib. Şairin həyat və yaradıcılığına həsr edilmiş çıxışlarla yanaşı, söz ustadının qəzəlləri səsləndirilib. "Nəsimi" filmindən fraqmentlər nümayiş olunub. Tədbirdə həmçinin şairin qəzəlləri üstündə həvəskar xanəndələr muğamlarımızı ifa ediblər.

***

"Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının Şamaxı şəhərində gerçəkləşən tədbirində də "Nəsimi 650" və "Nəsimi ili" başlıqlı kitab sərgiləri nümayiş etdirilib. Heydər Əliyev parkında təşkil olunan mədəniyyət bayramında rayon sakinləri və qonaqlar "Nağaraçalanlar", "Pirqulu" instrumental ansambllarının maraqlı ifalarını dinləyiblər. Xalq çalğı alətləri orkestri və xor kollektivinin rəngarəng çıxışları, uşaq incəsənət və musiqi məktəbləri şagirdlərinin, Buta" rəqs, "Şirvan" folklor kollektivlərinin ifaları festivalın proqramını daha da yaddaqalan edib.

Dərdü qəm ilə yandı könül, yar bulunmaz,
Çox darü diyar istədi, dəyyar bulunmaz.

Yaram, deyici çoxdurur, amma bəhəqiqət,
Fürsət gəlicək, yari-vəfadar bulunmaz.

Adət budurur kim, dili dildara verərlər,
Dil getdi əlimizdənü dildar bulunmaz.

Neçə kişilər dəviyi-islam edər, amma
Tək arada bir xaç ilə zünnar bulunmaz.

Hər bihünər, insafı yox uş mənsəbi tutdu,
Sahibhünərə mənsəbi-idrar bulunmaz.

Hər kişidə bir cübbəvü dəstar olur, amma
Min başda biri layiqi-dəstar bulunmaz.

Çün çərxi-fələk cahilü nadan sevər oldu,
Pəs lacərəm uş fəzlə xəridar bulunmaz.

Tərrar gər aparsa qamu rəxti rəvadır,
Çün qafilədə bir kişi bidar bulunmaz.

Xəlqin əməli azdı, könül yıxıcı öküş,
Bir xəstə könül yapıcı memar bulunmaz.

Var, dərdə təhəmmül qılü səbr eylə cəfaya,
Çün dil diləyi əndəkü bisyar bulunmaz.

Zərq işi, riya üştə kasad eylədi fəzli,
Elm əhlinə bir rövnəqi-bazar bulunmaz.

Var özüni faş etmə, Nəsimi, kişiyə kim,
Aləmdə bu gün məhrəmi-əsrar bulunmaz.

***

Hər səhər vaxtında kim, bülbül fəğanın başlar,
Ahım artar şöylə kim, axar gözümdən yaşlar.

Gör necə fəryad edər biçarə bülbül dərd ilən
Kim, anın fəryadına əfğana gəldi daşlar.

Hər firiştəsurətin yanında yüz min div olur,
Xanda kim, qəllaş olursa, çox olur qulmaşlar.

Barəkəllah, dəsti-qüdrət töhfə yazmış nəqşini,
Afərin şol nəqşə kim, aciz qalır nəqqaşlar.

Bilməzəm zülfünmüdür hər tarəsini dam edən,
Yoxsa cana qəsd edən gözünmüdür, ya qaşlar.

Könlümün şişəsinə pərri məgəs dəgsə sınar,
Ey həbibim, bəs nədəndir sən atarsan daşlar?

Xanda kim, Leyli olursa anda bir Məcnun olur,
Xanda kim, bir genc açılsa, anda iter başlar.

Tərki-can qıldı Nəsimi, keçdi bu başdan dəxi,
Xanda qaldı ata-ana, qövm ilə qardaşlar?

Cahana sığmayan dahi

Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi və 2019-cu ilin ölkədə "Nəsimi ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarının icrası ilə əlaqədar Şəki Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi müəssisələrdə silsilə tədbirlər keçirilir.

Şəki şəhər İ.Nakam adına Mərkəzi Kitabxanada təşkil olunan bilik yarışması mütəfəkkir şairin yubileyinə həsr olunub. "Sufilər", "Hürufilər" və "Həqq aşiqi" komandalarının yarışdığı müsabiqədə "Hürufilər" komandası birinci olub.

Şəki şəhər 3 nömrəli Uşaq musiqi məktəbində keçirilən tədbirdə şagirdlər şairin qəzəlləri üstündə muğamlarımızı ifa ediblər. 2 nömrəli Uşaq musiqi məktəbində gerçəkləşən "Nəsimi dühası" adlı tədbirdə şairin sözlərinə yazılmış mahnılar səsləndirilib, qəzəllərindən ibarət kompozisiya nümayiş etdirilib. 4 nömrəli Uşaq musiqi məktəbində yubileylə əlaqədar konsert keçirilib, Nəsiminin qəzəlləri və şairin ideallarına yaxın olan mahnılar ifa olunub.

Nəsiminin yubileyi ilə bağlı daha bir tədbir Şəki Uşaq incəsənət məktəbində keçirilib. Məktəbin direktoru Eldar Rəcəbov Nəsimi yaradıcılığının Azərbaycan ədəbiyyatı tarixində xüsusi mərhələ təşkil etdiyini deyib. Şagirdlər şairin qəzəllərini söylədikdən sonra musiqili proqram təqdim olunub.

Şəkidəki Heydər Əliyev Mərkəzində "Ədəbiyyat üfüqündə doğan günəş" adlı tədbir təşkil edilib. Kitab və rəsm sərgisi ilə tanışlıqdan sonra Nəsiminin qəzəllərindən ibarət muğam ifaları təqdim olunub. Şəki Regional Mədəniyyət İdarəsinin rəisi Mirvari Zeynalova, mərkəzin direktoru Rəşadət Sadıqov və başqalarının çıxışları dinlənilib. Məktəblilərin ifasında Nəsiminin məşhur qəzəlləri səsləndirilib və ən yaxşı ifaçılar diplomlarla mükafatlandırılıb.

Şəki MKS-nin 6, 7, 27, 49, 57 nömrəli və digər filiallarında sərgilər, şeir günləri və müzakirə saatı təşkil edilib.

***

Balakən rayon Mədəniyyət Mərkəzində "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" adlı şeir müsabiqəsi keçirilib. Nizami və Nəsimi adına şəhər orta məktəblərinin şagirdləri və həvəskar gənclərin qatıldığı müsabiqədə fərqlənən iştirakçılar Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı rayon komitəsi tərəfindən fəxri fərmanlarla təltif olunub.

MKS-nin Qazbinə kənd kitabxana filialında "Azərbaycan dilinin inkişafı tarixində Nəsiminin rolu" mövzusunda dəyirmi masa təşkil olunub. Kitabxananın müdiri Y.Kərimova, məktəb direktorunun təşkilatçı müavini A.Abbasovanın çıxışlarından sonra məktəblilər şairin qəzəllərini söyləyiblər.

MKS-nin İtitala kənd kitabxana filialında "Mən bu cahana sığmazam" adlı poeziya gecəsində filialın müdiri R.Qurbanova, kitabxanaçı Z.Əliyeva, MKS-nin direktoru M.Tağıyeva və başqalarının çıxışları dinlənilib. Fəal oxucular şairin qəzəllərini söyləyiblər. Sonda tədbirin təşkilatçıları və fəal iştirakçıları fəxri fərmanla təltif edilib.

Baş Daşağıl kənd Sənətkarlıq klubunda da ədəbi-bədii kompozisiya təqdim olunub. Məktəblilərin hazırladıqları kompozisiya maraqla qarşılanıb.

Balakən rayon Heydər Əliyev Mərkəzində "Nəsimi qəzəllərinin ən gözəl ifaçıları" adlı müsabiqə keçirilib. "Nəsimi" filmi nümayiş olunduqdan sonra mərkəzin direktor əvəzi J.Hüseynova çıxış edərək Nəsiminin Azərbaycan dilinin məna imkanlarının bütün dolğunluğunu və rəngarəngliyini öz əsərlərində əks etdirdiyini deyib. Müsabiqədə ən yaxşı ifaçılar təltif olunub.

***

Oğuz rayonu Kərimli kənd kitabxanasında kənd tam orta məktəbi ilə birlikdə "Nəsimi uşaqların gözü ilə" adlı rəsm müsabiqəsi keçirilib. Şagirdlərin çəkdikləri rəsmlərdən ibarət sərgi təşkil olunub.

Bayan kənd kitabxanasında "Ölümü ilə ölməzlik qazanan şair – Nəsimi" başlıqlı mütaliə həftəsi keçirilib. Kitabxanaçı Nigar Nurməmmədova məruzə ilə çıxış edib. Şagirdlər Nəsiminin şeirlərini söyləyiblər. Tədbir "Nəsimi" filmi ətrafında diskussiya ilə başa çatıb.

Rayon Mərkəzi kitabxanasının Oxuculara xidmət şöbəsində tədqiqatçı, yazar Mirzə Hacıyevin "Nəsimi dünyasının sirri" kitabının müzakirəsi keçirilib. Sonda iştirakçılar kitab sərgisi ilə tanış olublar.

Sincan kənd kitabxanası və Tərkəş kənd tam orta məktəbinin birgə təşkilatçılığı ilə "Məndə sığar iki cahan", Muxas kənd kitabxanasının təşkilatçılığı ilə A.Əhmədov adına kənd tam orta məktəbində isə "Nəsimi poeziyası" adlı şeir gecələri təşkil edilib.

***

C.Cabbarlı adına Qax rayon Mərkəzi Kitabxanasının Metodika və biblioqrafiya şöbəsi tərəfindən "Nəsimi dühası" adlı buklet hazırlanıb, şairin yaradıcılığına həsr olunan videoçarxın, "Nəsimi" filminin nümayişi təşkil edilib.

Həmçinin "Nəsimi yaradıcılığında insan məfhumu" adlı oxucu konfransı keçirilib. Qax rayon MKS-nin direktoru Güllü Əhmədova tədbiri açdıqdan sonra mövzu üzrə məruzələr dinlənilib.

Əmbərçay kənd kitabxanasında kənd orta məktəbin müəllim və şagirdlərinin iştirakı ilə "Əbədiyaşar Nəsimi" adlı dəyirmi masa təşkil olunub.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə keçirilən "Kainatın sirrini kitablar açır" adlı Oxu bayramında Nəsiminin kitablarından ibarət sərgi təqdim olunub.

Zaqatala rayon Mədəniyyət Mərkəzi və Bakı İslam Universiteti Zaqatala filialının birgə təşkilatçılığı ilə "Nəsiminin fəlsəfi düşüncələri" mövzusunda disput keçirilib. Tədbirdə Şəki Regional Mədəniyyət İdarəsinin Zaqatala rayonu üzrə nümayəndəsi Fizzə Mahmudova, mərkəzin bədii rəhbəri Samirət Hümbətova və mərkəzin metodisti Aftandil Rəhimovun mühazirələri dinlənilib. Bakı İslam Universiteti Zaqatala filialının müəllimləri Hafiz Laçın Quliyev və Müşfiq Nəcəfov Nəsiminin islama verdiyi dəyərdən söz açıblar. Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

2 saylı şəhər kitabxanasında Nəsimi haqqında kitablardan ibarət sərgi, məktəbli oxucularla birlikdə "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" adlı tədbir təşkil edilib.

Qax rayon Mədəniyyət Mərkəzi 4 saylı şəhər orta məktəbində "Məndə sığar iki cahan..." adlı ədəbi-bədii gecə keçirib. Tədbiri açan dil-ədəbiyyat müəllimi Sara Əhmədova Nəsimi poeziyasının zənginliklərindən danışıb. Şagirdlər şairin qəzəllərini söyləyib, ədəbi-bədii kompozisiya təqdim ediblər.

***

Zaqatala rayon Mədəniyyət Mərkəzində Nəsiminin 650 illiyi münasibətilə "Hardasan" adlı bədii qiraət, rəqs, mahnı, qədim musiqi aləti ifası və müəllif yaradıcılığı üzrə baxış-müsabiqə keçirilib. Mərkəzin direktoru Aybəniz Heydərova tədbiri açdıqdan sonra ifalara start verilib. Münsiflər heyəti müsabiqədə fərqlənən istedadlı uşaq, yeniyetmə və gəncləri qiymətləndiriblər.

Zaqatala rayonu Mosul kənd Mədəniyyət evində keçirilən yubiley tədbirində isə şairin həyat və yaradıcılığı haqqında çıxışlar dinlənilib. Şagirdlər ədəbi-bədii kompozisiya təqdim ediblər.

***

Nazirliyin təşkilatçılığı ilə bu il ikinci dəfə keçirilən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalı çərçivəsində Balakəndə gerçəkləşən tədbirdə də "Nəsimi ili" ilə əlaqədar kitab guşəsi yaradılıb.

Heydər Əliyev adına Mədəniyyət və istirahət parkında təşkil edilən festivalın qonaqlarını Balakəndə yaşayan azsaylı xalqların rəqs qrupları "Yallı" rəqsi ilə salamlayıb. "Nənələr və nələr", "Eday", "Xınayaxdı" və "Buta" folklor qruplarının çıxışları festivala əsl bayram əhval-ruhiyyəsi bəxş edib. Şəki pəhləvanları öz güclərini nümayiş etdiriblər.

Festival iştirakçıları nazirliyin regional idarələri tərəfindən qurulmuş çadırlarda ayrı-ayrı bölgələrin sənətkarlıq nümunələri, suvenirlərlə tanış olublar. Festivalın bədii hissəsində rəngarəng musiqi nömrələri, rəqslər alqışlarla qarşılanıb.

Sən mana yar ol ki, könlüm bir dəxi yar istəməz,
Könlümün dildarı sənsən, özgə dildar istəməz.

Cənnəti-ədnin tamaşası rüxün gülzarıdır,
Kim ki, şol gülzarı buldu, özgə gülzar istəməz.

Ta əbəd hirman imiş həqdən nəsibi, hər kim ol
Səndən, ey dilbər, iki aləmdə didar istəməz.

Könlümün məqsudi sənsən, hacəti həqdən budur,
Hacətindən ayru könlüm nəsnə, zinhar, istəməz.

Gəl ki, sənsiz könlüm, ey canü cahanın hasili,
Künfəkanın hasilindən oldu bizar, istəməz.

Sorma, ey dilbər, mana kim, hacətin məndən nədir,
Çünki məşuqindən ayru aşiqi-zar istəməz.

Kim ki, zülfünün xəyalı bağladı könlündə, ol
Rahibi-deyr oldu, ondan özgə zünnar istəməz.

Çün, ənəlhəq darını Mənsur olandır istəyən,
Olmayan Mənsur ənəlhəq, leysə fiddar istəməz.

İstərəm aləmdə yarın sirrini faş eyləyim,
Müddəinin canı yanar qəmdən, əğyar istəməz.

Yüzünü bipərdə görmək istərəm daim, vəli
Minkirin görməz gözü, çün kəşfi-əsrar istəməz.

İstədi həqdən Nəsimi vəslini, buldu murad,
Maliki-didar olubdur, gəncü dinar istəməz.

***

Surətin nəqşində hər kim görmədi nəqqaşını,
Vahibi-surət anın gözsüz yaratmış başını.

Qabü-qövseynin rümuzun sanma kim, fəhm eyləyə
Kim ki, zahir görmədi şol mahi-bədrin qaşını.

Ləbləri şirin nigarın firqətü hicranıdır,
Axıdar yanınca şəm'in gözlərindən yaşını.

Düşmədi batil xəyala, olmadı sevdası xam,
Hər kimin kim, eşq oduyla həq bişirdi aşını.

Gərçi fərraşi-məlikdir ənbərəfşan sünbülün,
Çünki mən sultanı buldum, neylərəm fərraşını?

Həqqə vasil rindü həqdən ayrıdır zahid, görün
Xanəqahın şeyxini, meyxanənin övbaşını.

Dəmbədəm sufi məlamət daşın atar aşiqə,
Daşı qiymətsizdir anın, içini gör, daşını.

Hasilin məscid bucağında gör axır kim, nədir,
Ey məlamət eyləyən meyxanənin qəllaşını.

Yaşını yandırdı eşqin, həm qurusun könlümün,
Kim ki, eşqə düşdü, yandırdı quruvü yaşını.

Könlümün şəhrində eşqin bir imarət yapdı kim,
Ta əbəd qoparmaz andan nöh fələk bir daşını.

Canımı eşqin əzəldə yoldaş etmiş özünə,
Qoymaya yoldaşlığın həqqin bilən yoldaşını.

Ey Nəsimi, halını gər kimsə bilməz, qəm degil,
Həq bilir xəlqi-cahanın sirrini, həm faşını.

Cahana sığmayan dahi

Xaçmaz Regional Mədəniyyət İdarəsinin tabe müəssisələrində mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi və "Nəsimi ili" ilə bağlı bir sıra tədbirlər keçirilib.

Mayın 10-da Xaçmaz şəhərindəki "Çənlibel" parkında İmadəddin Nəsiminin abidəsinin açılışı olub.

Xaçmaz rayon Mərkəzi Kitabxanasında "Bu cahana sığmayan şair" adlı dəyirmi masa təşkil olunub. Bildirilib ki, Nəsimi ana dilində yazdığı şeirlərlə milli ədəbiyyatımızı zənginləşdirib. Onun həmçinin ərəb və fars dillərində yaratdığı əsərlər

şairin adının vətənindən uzaqlarda, bütün Yaxın Şərqdə şöhrətlənməsinə səbəb olub.

Mərkəzi kitabxana daha bir tədbiri şəhərdəki Şəxsiyyətlər muzeyində təşkil edib, burada Nəsiminin 650 illiyinə həsr edilmiş mütaliə həftəsi keçirilib.

MKS-nin Seyidli kənd kitabxana filialı kənd Diyarşünaslıq klubu ilə birlikdə "Ədəbiyyat üfüqlərində doğmuş eşq günəşi – İmadəddin Nəsimi" mövzusunda məlumat günü keçirib. Xudat şəhər kitabxana filialında, eləcə də Qaradağlı, Dədəli, Nağıoba, Padar Xaspoladoba, Qaraqurtlu, Ləcət kitabxana filiallarında və Uzunoba kənd orta məktəbində də məlumat günləri təşkil olunub. Əbilyataq kənd kitabxana filialının əməkdaşları E.Mövlanov adına kənd tam orta məktəbində ədəbi-bədii gecə keçirilib.

***

Quba rayon Heydər Əliyev Mərkəzində "Muzeylər və Nəsimi irsi" proqramı üzrə ekskursiyalar həftəsi təşkil olunub. Təhsil şöbəsinin təşkilatçılığı ilə şəhər 1, 2, 3, 4, 5, 6, 7 saylı tam orta məktəblərin və İqriq, Alekseyevka, I Nügədi, II Nügədi, Qımılqazma, Qəcərzeyid kənd tam orta məktəblərinin müəllim və şagirdləri, eləcə də Quba "ASAN Xidmət" Mərkəzinin əməkdaşları və könüllüləri, bir sıra idarə, müəssisə və təşkilatların əməkdaşları və ictimaiyyət nümayəndələri ekskursiyalarda iştirak ediblər.

Heydər Əliyev Mərkəzində "Nəsimi işığında" mövzusunda ədəbi-bədii tədbir isə Quba "ASAN Xidmət" Mərkəzi ilə birgə təşkil olunub. İştirakçılar əvvəlcə "Nəsimi" bədii filmini izləyiblər. Mərkəzin direktoru Elza Orucova çıxış edərək bildirib ki, "Nəsimi ili" çərçivəsində müxtəlif tədbirlərin təşkili nəzərdə tutulur.

Quba rayon B.Səfəroğlu adına Mədəniyyət Mərkəzində "İmadəddin Nəsimi 650" adlı dəyirmi masa təşkil edilib. Mərkəzin direktoru Ramiz Ramazanov çıxış edərək deyib ki, ölkəmizdə "Nəsimi ili" elan edilməsi bu böyük şəxsiyyətin yaradıcılığını, xalqımıza verdiyi böyük töhfələri yenidən dərk və təhlil etmək üçün fürsət yaradıb. Sonra tədbir məktəblilərin ifasında Nəsiminin qəzəllərindən ibarət bədii kompozisiyalarla davam etdirilib.

Xucbala kənd klubunda gerçəkləşən tədbirdə Nəsimi poeziyası haqqında məktəblilərə məlumat verilib. Küsnət kənd klubu və kənd kitabxanasının birgə təşkil etdiyi dəyirmi masada da məktəblilər iştirak edib. Talabıqışlaq kənd Folklor klubunun təşəbbüsü ilə məktəblilər arasında bədii qiraət müsabiqəsi təşkil olunub. 20-yə yaxın iştirakçı öz istedadını nümayiş etdirib. Qaliblərə fəxri fərman və hədiyyələr təqdim olunub.

Alpan kənd Folklor evinin kənd məktəbinin müəllim və şagird kollektivinin iştirakı ilə keçirdiyi tədbirdə Nəsiminin həyat və yaradıcılığından söz açılıb, rübailəri haqqında fikir mübadiləsi aparılıb. MKS-nin Qorxmazoba kənd kitabxanasının təşkilatçılığı ilə kənd tam orta məktəbində "İmadəddin Nəsiminin yaradıcılığı", Amsar kənd kitabxanasında isə "Məşələ çevrilmiş nəğməkar" mövzusunda tədbirlər keçirilib.

Mərkəzi kitabxananın Oxuculara xidmət şöbəsində "Zərrə mənəm, günəş mənəm" adlı şeir gecəsi keçirilib. "Nəsimi ili" adlı sərgi nümayiş olunub.

Regional idarənin təşəbbüsü və MKS-nin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Nəsiminin 650 illiyinə həsr olunmuş "Oxu bayramı" keçirilib. Tədbir çərçivəsində müxtəlif başlıqlı kitab və fotolardan ibarət stendlər qurulub.

Rayon Uşaq musiqi məktəbində keçirilən yubiley tədbirində Nəsiminin həyat və yaradıcılığı haqqında məlumat verildikdən sonra şagirdlər xalq mahnıları və rəqsləri ifa ediblər.

***

Qusar rayon Mərkəzi Kitabxanasının təşkilatçılığı ilə "Məndə sığar iki cahan..." adlı dəyirmi masa, sərgi və ədəbi-bədii kompozisiya keçirilib.

Mərkəzi kitabxananın şəhər, habelə Əniqoba, Gündüzqala və s. kənd kitabxana filiallarında əlamətdar yubileylə bağlı tədbirlər təşkil olunub.

AMEA-nın N.Gəncəvi adına Ədəbiyyat İnstitutu, Qusar Rayon İcra Hakimiyyəti, rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Nəsimi poeziyasında kamil insan modeli" mövzusunda elmi-praktik konfrans keçirilib.

Eynibulaq və Balaca Həmyə kənd kitabxana filiallarında Nəsiminin yubileyi münasibətilə müxtəlif səpkili tədbirlər təşkil olunub.

***

Şabran rayon Mərkəzi Kitabxanasında "Ey müsəlmanlar, mədəd, ol yar pünhan ayrılır" adlı şeir gecəsi keçirilib. MKS-nin Rəhimli, Aygünlü, Çölquşçu, Surra, Dəvəçi, Dağbilici, Ağalıq, Günəşli, Sarvan, Pirəmsən, Gəndov, Ağbaş kənd kitabxana filialları Nəsiminin 650 illiyi münasibətilə, dəyirmi masa, inşa müsabiqəsi, şeir gecəsi və s. tədbirlər təşkil ediblər.

Şabran Tarix-Diyarşünaslıq Muzeyində "Əsrlərin sədası – İmadəddin Nəsimi" adlı tədbir keçirilib. Şabran şəhərindəki Ə.Xaqani adına Poeziya evində də Nəsiminin 650 illiyi münasibətilə tədbir təşkil olunub.

***

Siyəzən rayon Mərkəzi Kitabxanasında "İmadəddin Nəsimi 650" adlı sərgi və dəyirmi masa keçirilib. Mərkəzi kitabxana rayon Peşə məktəbində əlamətdar yubileylə bağlı sərgi təşkil edib.

MKS-nin Gilgilçay qəsəbə, Sədan, Tuğay, Məşrif, Zarat,

Heydər Əliyev Mərkəzində Mikayıl Müşfiq adına 2 saylı tam orta məktəbin şagirdlərinin iştirakı ilə tədbir keçirilib. Tədbirdə mərkəzin direktoru Ramilə Seyidova, təhsil ocağının Azərbaycan dili və ədəbiyyat müəllimi Bəxtiyar Seyidov, mərkəzin əməkdaşı Aygün İsayeva çıxış edərək 2019-cu ilin "Nəsimi ili" elan edilməsini Nəsimi yaradıcılığına, onun irsinə töhfə olmaqla yanaşı, bütövlükdə Azərbaycan ədəbiyyatına, mədəniyyətinə verilən dəyər kimi yüksək səciyyələndiriblər.

***

Mədəniyyət Nazirliyi və regional idarələrinin iştirakı ilə ikinci dəfə gerçəkləşən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının Xaçmaz şəhərində keçirilən tədbirində də "Nəsimi ili" ilə bağlı şairin kitablarının yer aldığı stend nümayiş etdirilib.

Heydər Əliyev adına parkda keçirilən festival böyük coşqu yaradıb. Tədbir iştirakçıları Qusar Dövlət Ləzgi Dram Teatrının "Diyar" nənələr qrupunun təqdimatında cəhrədə yun əyirmək, xalça toxumaq, səhənglə su daşımaq və başqa bu kimi ənənəvi məişət işlərini əks etdirən təqdimatları izləyiblər. Xaçmaz və Şabran xalq teatrlarının hazırladığı ədəbi-bədii kompozisiyalar, "Xınayaxdı" folklor kollektivinin ifasında rəqs nümunələri festivalın proqramına rəng qatıb. Heydər Əliyev adına parkda regional mədəniyyət idarələrinin çadır-guşələri qurulub, şəhər və rayonların mədəni zənginliyi, sənətkarlıq irsi və incəsənət nümunələri təqdim olunub. Festivalın konsert proqramında regional idarələr üzrə folklor qrupları, yerli incəsənət və bədii özfəaliyyət kollektivlərinin çıxışları da alqışlarla qarşılanıb.

Üzünü məndən nihan etmək dilərsən, etməgil!
Gözlərim yaşın rəvan etmək dilərsən, etməgil!

Bərgi-nəsrin üzrə mişkin zülfünü sən dağıdıb,
Aşiqi bixaniman etmək dilərsən, etməgil!

Qaşların qövsündə müjganın xədəngin gizləyib,
Ey gözü məstanə, qan etmək dilərsən, etməgil!

Canımı vəslin şərabından ayırdın, ey gözüm,
Eynimi gövhərfəşan etmək dilərsən, etməgil!

Qoymuşam eşqində mən kövnü məkanın varını,
Can nədir kim, qəsdi-can etmək dilərsən, etməgil!

Bürqəi üzündən açarsan məgər nameherəmə,
Gizli əsrarı əyan etmək dilərsən, etməgil!

Yandırırsan könlümü eşqində, məlum oldu kim,
Anı risvayi-cahan etmək dilərsən, etməgil!

***

Dünü gün müntəzirəm mən ki, bu pərgar nədir?
Günbədi-çərxi-fələk, gərdişi-dəvvar nədir?

Bu doquz çərxi-müəlləq nədən oldu tərtib,
Fələk altında dönən kövkəbi-səyyar nədir?

Musiyü Tür nədir, Şibliyü Mənsur nədir,
Əjdəha olan ağac, riştə ilən dar nədir?

Fələkin əsli nədəndir, mələkin nəsli nədən,
Adəmin surətinə bunca tələbkar nədir?

Kəbəvü deyr nədir, qeyr nədir, seyr nədir?
Məscidü bütkədəvü xirqəvü zünnar nədir?

Elmü-Quranü hədisü xəbərü vəz ilə dərs,
Cümlə bir mə`ni imiş, bunca bu təkrar nədir?

Dinü imanü namazü həcü ərkanü zəkat,
Zöhdü təqvavü şəriət, qamu göftar nədir?

Kim ki, pərvanəsifət eşqə yaxılmaz nə bilir,
Ol nə bilsin özünü, bilmədi kim, nar nədir?

Bir məgəs təb`inə bax, bal nədən, zəhr nədən,
Yenə bir yerdə əcəb, mal nədir, mar nədir?

Odü su, torpağü yel adı nədəndir adəm?
Ana səcdə nə üçün, iblisə inkar nədir?

Günəşin qürsü nədən yer üzünə şölə verir,
Ya bu bir məşələdə nur nədir, nar nədir?

Kim ki, bilməz özünü, bilməyə pirlər sözünü,
Kəndisin anlamayan bilmədi hər kar nədir.

Gəlgil, ey dust, qamu müddəilər korluğuna,
Sana asan qılayım, bunca bu düşvar nədir?

Kim ki, pərvanəsifət eşqə yaxılmaz nə bilir,
Surəti-şəmidə bu pərtövi-ənvar nədir?

Tərk evində sən əgər həmçü Nəsimi olasan,
Bir gün ola deyəsən, cübbəvü dəstar nədir?

Cahana sığmayan dahi

Böyük şair, mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyi və "Nəsimi ili" ilə əlaqədar Ağdaş Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi Ağdaş, Göyçay, Ucar və Zərdab rayonlarındakı mədəniyyət müəssisələrində silsilə tədbirlər keçirilib.

Ağdaş rayon Mərkəzi Kitabxanasının oxu zalında "Poeziyamızın fatehi" adlı gecə keçirilib. MKS-nin direktoru Seyfəddin Feyzullayev Prezident İlham Əliyevin sərəncamı ilə 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan olunmasının bu görkəmli şəxsiyyətin irsinin dünya ictimaiyyətinə çatdırılması baxımından böyük əhəmiyyət kəsb etdiyini bildirib. Vurğulanıb ki, Nəsimi Azərbaycan ədəbi dilinin, poeziya ənənələrinin zənginləşdirilməsində əvəzsiz xidmətlər göstərib.

MKS-nin baş biblioqrafı Könül Musayeva görkəmli şairin həyat və yaradıcılığı haqqında geniş məlumat verib, onun Azərbaycanda fəlsəfi poeziyanın əsasını qoyanlardan biri olduğunu diqqətə çatdırıb. Bildirib ki, ötən əsrin 70-ci illərində ölkəmizə rəhbərlik edən ulu öndər Heydər Əliyev Nəsiminin anadan olmasının 600 illik yubileyinin yüksək səviyyədə keçirilməsinə nail olub. Onun təşəbbüsü ilə yubiley tədbirləri keçmiş SSRİ miqyasında, bir sıra xarici ölkələrdə, UNESCO-da qeyd olunub. Şairin adı əbədiləşdirilib, Bakıda heykəli qoyulub, haqqında bədii film çəkilib.

Kitabxananın əməkdaşı Vüsalə Məmmədova və məktəblilər şairin məşhur qəzəllərini söyləyiblər. Sonra "Nəsimi" filmi nümayiş olunub. Tədbir iştirakçıları "Nəsimi ili"nə həsr olunmuş sərgiyə baxıblar.

Ağdaş rayon Heydər Əliyev Mərkəzində böyük söz ustadının yubileyinə həsr olunmuş "Nəsimi fəlsəfəsi" adlı ədəbi-bədii gecə keçirilib. Heydər Əliyev Mərkəzi və Ağdaş rayon MKS-nin 1 saylı Gənclər kitabxanasının təşkilatçılığı ilə reallaşan tədbirdə əvvəlcə rayon Mədəniyyət mərkəzinin rəssamlıq dərnəyi üzvlərinin əl işlərindən və Nəsiminin yaradıcılığını özündə əks etdirən nəşrlərdən ibarət sərgiyə baxış olub.

Heydər Əliyev Mərkəzinin direktoru Tənzilə Şıxıyevanın açılış sözündən sonra şairin həyat və yaradıcılığını əks etdirən materiallardan hazırlanmış videoçarx nümayiş olunub. Heydər Əliyev Mərkəzinin əməkdaşı Fatma Əsədova Nəsiminin həyat və yaradıcılığına dair məruzə ilə çıxış edib. Ağdaş Regional Mədəniyyət İdarəsinin məsləhətçisi İlqar Vəliyev idarənin əhatə etdiyi rayonların mədəniyyət müəssisələrində Nəsiminin yubileyi ilə əlaqədar keçirilən tədbirlərdən söz açıb.

Ağdaş Dövlət Humanitar Kollecinin ədəbiyyat müəllimi Yeganə Əliyeva şairin poeziyasının səciyyəvi cəhətlərindən söz açıb. Sonda kollecin tələbələri şairin şeirlərini söyləyib, Ağdaş şəhər Uşaq musiqi məktəbinin muğam üçlüyünün ifasında Nəsiminin qəzəllərindən ibarət muğamlar səsləndirilib.

Ağdaş rayon Mədəniyyət Mərkəzində "Nəsimi dünyası" adlı teatrlaşdırılmış ədəbi-bədii kompozisiya nümayiş etdirilib. Mərkəzi kitabxana və Mədəniyyət mərkəzinin birgə təşkilatçılığı ilə reallaşan tədbirdə "İmadəddin Nəsimi - 650" və "Əbədiyyət üfüqündə doğan günəş" adlı kitab və Mədəniyyət mərkəzinin dərnək üzvlərinin əl işlərindən ibarət rəsm sərgisi açılıb.

Cahangir Cahangirovun "Nəsimi" kantatasının səsləri altında başlayan tədbirdə Mədəniyyət mərkəzinin Xalq teatrı aktyorlarının ifasında "Nəsimi" filmindən səhnələşdirilmiş parçalar nümayiş olunub. Xanəndələr Nəsiminin qəzəlləri üstündə muğamlar oxuyub, şairin qəzəlləri qiraət olunub. Ağdaş Regional Mədəniyyət İdarəsinin rəisi Ramiz Quliyev kompozisiyanın hazırlanmasında əməyi olan hər kəsə minnətdarlığını bildirib.

***

Ucar rayon Mədəniyyət Mərkəzində Nəsiminin yubileyinə həsr olunmuş yeniyetmələr arasında bədii qiraət müsabiqəsi keçirilib. Müsabiqə rayon Gənclər və İdman İdarəsi ilə birgə təşkil edilib. Mədəniyyət mərkəzinin direktoru Ruslan Rəsulov bildirib ki, layihədə Ucar rayon Mədəniyyət Mərkəzinin bədii qiraət dərnəyinin üzvləri ilə yanaşı, Boyat, Təzə Şilyan, Qulabənd kənd diyarşünaslıq, mədəniyyət evləri və digər klub müəssisələrinin bədii qiraət dərnəyinin üzvləri iştirak ediblər. Müsabiqədə fərqlənən qiraətçilərə regional idarənin diplom və hədiyyələri verilib.

***

Göyçay rayon Heydər Əliyev Mərkəzində keçirilən yubiley tədbirində direktor Zemfira Əliyeva, Göyçay şəhər 3 saylı tam orta məktəbin müəllimi Həqiqət Kərimova və digər çıxış edənlər Nəsimini Azərbaycan xalqının bəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarından, görkəmli mütəfəkkirlərdən biri kimi səciyyələndiriblər.

Bildirilib ki, Nəsimi sarsılmaz iradəsi, möhkəm əqidəsi və böyük bədii istedadı ilə söz, fikir tariximizdə dərin iz qoyub. Sonra Nəsimi haqqında videoçarx nümayiş olunub, şəhər 3 saylı tam orta məktəbin şagirdləri şairin qəzəllərini söyləyiblər.

Əli Kərim adına Göyçay şəhər parkında "Nəsimi dünyası" adlı ədəbi-bədii gecə təşkil olunub. Rayon İcra Hakimiyyəti və Mədəniyyət mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə iştirakçılar əvvəlcə Rəsul Rzanın ev-muzeyini ziyarət ediblər.

"Əbədiyaşar ədiblər" abidə kompleksinin qarşısında davam edən mərasimdə İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə böyük şairin yaradıcılığının bənzərsizliyindən danışıb, 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan olunmasını yüksək qiymətləndirib.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, AMEA Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, professor Vüqar Əhməd, AYB-nin katibi Rəşad Məcid və başqaları çıxış ediblər. Çıxışlarda Nəsimi irsinin ədəbiyyat və mədəniyyətimizdə yerindən, ölkəmizdə şairin yaradıcılığına göstərilən diqqətdən söz açılıb. Tədbirin bədii hissəsində təqdim olunan "Nəsimi" filmindən səhnələşdirilmiş epizodlar, eləcə də səsləndirilən muğam və təsniflər alqışlarla qarşılanıb.

***

Zərdab rayon Heydər Əliyev Mərkəzində rayon MKS-nin 36 saylı kitabxana filialının birgə təşkilatçılığı ilə tədbir keçirilib. Tədbir iştirakçıları Nəsiminin 650 illiyi ilə bağlı hazırlalanan kitab sərgi ilə tanış olub, "Nəsimi" bədii filmindən fraqmentlərə baxıblar. Mərkəzin direktoru Könül Rəhimova böyük şairin Azərbaycan ədəbiyyatına verdiyi töhfələrdən söz açıb. Kitabxananın müdiri İlhamə Qəribova "Həqq şairi İmadəddin Nəsimi" mövzusunda çıxış edib. Körpələr evi-uşaq bağçaları, məktəblər və mədəniyyət müəssisələrinin hazırladıqları kompozisiyalar nümayiş etdirilib.

***

Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə reallaşan "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının Ağdaşda keçirilən tədbiri də "Nəsimi ili"nin mədəni palitrasına daha bir töhfə olub. Nazirliyin 15 regional mədəniyyət idarəsini əhatə edən rayon və şəhərlərin nümayəndələrinin qatıldığı festival Ağdaş şəhərindəki Heydər Əliyev parkında təşkil olunub.

Regional idarələrin özfəaliyyət dərnəklərinin, mədəniyyət işçilərinin, musiqiçilərin ifasında vətənpərvərlik ruhunda, birliyə çağırış mesajı verən mahnılar, "Qarabağ şikəstəsi" səsləndirilib. Festivala rəng qatan anlardan biri Ağdaş Regional Mədəniyyət İdarəsinin tabeliyində olan Ağdaş Mədəniyyət Mərkəzinin Kəndirbazlar folklor kollektivinin rəhbəri Məhəmməd Paşayevin kəndir üzərində müxtəlif maraqlı hərəkətlər nümayiş etdirməsi olub.

Şəhər və rayonların sənətkarlarının, yaradıcı insanların əl işləri – dekorativ-tətbiqi sənət nümunələri, müxtəlif mövzularda çəkilmiş rəsmlər, bəzək əşyaları sərgilənib, dahi şairin 650 illiyinə həsr olunan guşə də maraqla qarşılanıb.

Dilbəra, mən səndən ayru ömrü, canı neylərəm?
Tacü-təxtü, mülkü-malü, xanimanı neylərəm?

İstərəm vəsli-camalın ta qılam dərdə dəva,
Mən sənin bimarınam, özgə dəvanı neylərəm?

Ey müsəlmanlar, bilin kim, yar ilə xoşdur cahan,
Çünki yardan ayru düşdüm, bu cahanı neylərəm?

Çox dualar qılmışam mən xaliqin dərgahına,
Çün muradım hasil olmaz, mən duanı neylərəm?

Dilbər aydır, ey Nəsimi, sabir ol, qılma fəğan,
Mən bu gün səbr eyləsəm, danla fəğanı neylərəm?

***

Yarə qılan vəfasını, yara qılır cəfasını,
Ey dil, anın cəfasına qatlan, unut vəfasını!

Kim ki, irişmək istədi uca boyun vüsalına,
Oldu həmişə fərz ana çəkmək anın bəlasını.

Dərd ilə xoş keç, ey könül, qəmdən usanma, çün bilir
Aşiqi-dərdimməndinə dərdi verən, dəvasını.

Zülfü qaşın qarasına bağlamayan kişi könül,
Bilməmiş ol üzüqara, zülfü qaşın qarasını.

Vəslü fəraqa vasitə çünki qədərdir, ey könül,
Cəhd ilə kimsə qadirin mən edəməz qəzasını.

Kövnü məkana vəslini qiymət edüb, bəha qılan,
Yoxdur anın gözündə nur, bilməz anın bəhasını.

Ta bilələr ki, az imiş aləmə feyzin, ey günəş,
Yerdəvü gökdə göstərər mehri-rüxün ziyasını.

Kəbə üzündür, ey sənəm, üzünə səcdə eylərəm,
Hacısıyam bu Kəbənin, mən bilirəm səfasını.

Ayinəsində görməyən surəti-nəqşini əyan,
Ayinədən gedirməmiş ol qaragünlü pasını.

Zülfi-dütasını anın kövnü-məkana, ey könül,
Al və iki cahana sən vermə bir incə tasını.

Canıma şol ala gözün eylədigi cəfaları
Ol nə bilir ki, görməmiş gözlərinin alasını.

Gərçi ətasıdır cəfa aşiqə şol vəfasızın,
Can ilə istər, ey könül, aşiq anın ətasını.

Çinü Xətaya surətin nəqşini göndər, ey sənəm,
Ta büti-Çinə tapanın göstərəsən xətasını.

Gərçi sözü Nəsiminin qabili-kimiya imiş,
Tuncü hədidə sanma kim, xərc edə kimyasını.

Cahana sığmayan dahi

"Həqq mənəm, Həqq məndədir", "Üzünü məndən nihan etmək dilərsən", "Nəsimi Həqqin səsi", "Apardı könlümü bir çeşmi-məxmur", "Bu miskin aşiqi sər-pa soyarlar", "Cəmalın tələti gülzara bənzər" – mütəfəkkir şairin irsinin yaşadılmasına, təbliğinə xidmət edən bu və digər başlıqlı tədbirlər Ağstafa Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi rayonlarda "Nəsimi ili"nin zəngin proqramından xəbər verir.

Regional idarənin mədəniyyət ocaqlarında şairin qəzəllərinə bəstələnmiş mahnılardan ibarət konsert proqramları, ədəbi-bədii gecələr, dəyirmi masalar, konfranslar təşkil olunub.

***

Ağstafa şəhər Heydər Əliyev Mərkəzində "Nəsimi qəzəlləri" adlı bədii qiraət müsabiqəsi keçirilib. Müsabiqədə 35 nəfər məktəbli iştirak edib. Münsiflərin rəyinə əsasən Nəsimi qəzəllərini ən yaxşı qiraət edən şagirdlərə fəxri fərmanlar təqdim edilib.

Ağstafa rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) filiallarında kitab sərgiləri və bədii qiraət müsabiqələri keçirilib, Nəsimi yaradıcılığından bəhs edən kitablardan ibarət sərgilər təşkil olunub. Fəal oxucular arasında keçirilən qiraət müsabiqəsində fərqlənən şagirdlər rayon Mədəniyyət Mərkəzində təşkil olunan "Həqq mənəm, Həqq məndədir" mövzulu ədəbi-bədii gecədə çıxış ediblər.

Ağstafa rayon Mədəniyyət Mərkəzi və rayon Uşaq musiqi məktəbinin birgə təşkilatçılığı ilə ədəbi-bədii gecə və Nəsimi qəzəllərindən ibarət konsert proqramı keçirilib.

Ağstafa Regional Mədəniyyət İdarəsinin rəisi Vüqar Qədirov, mədəniyyət işçiləri, ictimaiyyət nümayəndələri əvvəlcə "Nəsimi 650" başlıqlı sərgiyə baxıblar. Musiqi məktəbinin zalında Mədəniyyət mərkəzinin nəzdində fəaliyyət göstərən Xalq teatrı üzvlərinin iştirakı ilə "Nəsimi" filmindən dərviş səhnəsi əsasında hazırlanan kompozisiya nümayiş olunub. Sonra təqdim olunan konsert proqramında musiqi məktəbinin müəllimlərdən ibarət ansamblı və ifaçılar şairin müxtəlif qəzəllərindən ibarət muğam və dəsgahlar səsləndiriblər. Bütün ifalar tamaşaçıların alqışları ilə qarşılanıb.

Ağstafa Dövlət Rəsm Qalereyasında "Nəsimi gənc rəssamların gözü ilə" başlıqlı rəsm müsabiqəsi keçirilib. Əsərləri fərqlənən gənclər mükafatlandırılıblar. Rayon Tarix-diyarşünaslıq muzeyində "Əbədiyyət üfüqlərində doğan eşq günəşi" başlıqlı dəyirmi masa təşkil olunub. Çıxış edənlər ölməz şairin yaradıcılığının özünəməxsus cəhətlərindən danışıblar.

***

Ağstafa Regional Mədəniyyət İdarəsinin Qazax rayonu üzrə müəssisələrində də böyük şairin yubileyi və "Nəsimi ili" ilə bağlı tədbirlər gerçəkləşib.

Qazax şəhər Heydər Əliyev Mərkəzində "Nəsimi - haqqın səsi" mövzusunda dəyirmi masa keçirilib. Qazax Dövlət Rəsm Qalereyasında dərnək üzvlərinin iştirakı ilə "Nəsimi 650" başlıqlı müsabiqə təşkil olunub. Qaliblər həmkarlar təşkilatı tərəfindən mükafatlandırılıb.

Qazax rayon MKS və filiallarında Nəsimi yaradıcılığına həsr olunan bədii qiraət müsabiqələri, Uşaq kitabxanasının həyətində kitab sərgisi təşkil edilib. Kitabxananın fəal azyaşlı oxucularının hazırladığı kompozisiya tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Tarix-diyarşünaslıq muzeyində "Cəmalın tələti gülzara bənzər" adlı ədəbi-bədii kompozisiya keçirilib. M.P.Vaqif və M.V.Vidadinin xatirə muzeylərində isə Nəsiminin həyat və yaradıcılığına həsr olunmuş məruzə dinlənilib.

Mədəniyyət mərkəzi ilə 1 və 2 saylı Qazax rayon Uşaq musiqi məktəblərinin birgə hazırladığı ədəbi-bədii gecələrdə də Nəsimi poeziyasından "Ağrımaz", "Hardasan", "Apardı könlümü bir çeşmi-məxmur" və s. şeirlərdən ibarət kompozisiyalar təşkil olunub. Tədbirdə şairin qəzəlləri üstündə muğamlar səsləndirilib.

E.Hüseynov adına Mərkəzi kitabxananın Uşaq şöbəsinin qarşısında "Nəsimi 650" adlı ədəbi-bədii kompozisiya təşkil olunub. Tədbirdə şəhər 1 saylı Uşaq musiqi məktəbinin tar müəllimi Valeh Məmmədovun rəhbərliyi ilə trionun və gənc aşıqların ifasında rəngarəng mahnılar tədbir iştirakçılarının ruhunu oxşayıb.

Məktəblilər şairin "Bəllidir", "Yaxşıdır", "Bitər", "Mənəm, mən" qəzəllərini tarın müşayiəti ilə söyləyiblər. Şagirdlərin Xalq yazıçısı İsa Hüseynovun "Məhşər" əsərindən "İki cahan"ı simvollaşdıran bədii kompozisiyada şairin həyatından səhnələşdirilən fraqmentlər səs-işıq effektlərinin də iştirakı ilə tamaşaçıların marağına səbəb olub.

səhnələşdirdikləri bir parça böyük maraqla qarşılanıb.

***

Regional idarənin Tovuz rayonu üzrə nümayəndəliyinin də "Nəsimi ili"nə maraqlı töhfələri olub. Rayon MKS və filiallarında kitab sərgiləri, fəal oxucuların iştirakı ilə poeziya axşamları, məruzə və mühazirələr keçirilib.

Tovuz rayon Heydər Əliyev Mərkəzində kitab sərgiləri, Dövlət Rəsm Qalereyasında dərnək iştirakçılarının "Nəsimi 650" adlı müsabiqəsi, dəyirmi masa və musiqi məktəblərində şairin qəzəllərindən ibarət muğam konsertləri təşkil olunub.

Tovuz rayon Aşıq Əkbər Cəfərov adına Mədəniyyət mərkəzində ədəbi-bədii gecə keçirilib. Mərkəzin foyesində təşkil olunmuş kitab və rəsm sərgisinə baxışla başlayan tədbirdə Ağstafa Regional Mədəniyyət İdarəsinin rəisi, idarənin məsul işçiləri və rayon ictimaiyyəti iştirak edib. Gecədə həmçinin ud alətinin müşayiəti ilə şairin qəzəlləri səsləndirilib.

***

Bu il ölkəmizdə ikinci dəfə keçirilən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının Ağstafa şəhərindəki təqdimatı da maraqlı olub. Heydər Əliyev parkında keçirilən tədbirdə Mədəniyyət Nazirliyinin təmsilçiləri, Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, mədəniyyət işçiləri, ictimaiyyət nümayəndələri, həmçinin regional mədəniyyət idarələrinin nümayəndə heyətləri iştirak ediblər.

Parkda Mədəniyyət Nazirliyinin 15 regional idarəsinin festival çadırları qurulub. Tədbir iştirakçıları hər bir regional idarə üzrə şəhər və rayonların mədəni irsini əks etdirən xalq sənətkarlıq nümunələri, rəsm əsərləri, müxtəlif əl işləri ilə maraqla tanış olublar.

Sonra Mədəniyyət Nazirliyinin regional idarələrinin bədii özfəaliyyət kollektivləri, folklor və rəqs qruplarının iştirakı ilə konsert proqramı təqdim olunub.

Sərgi-guşələrlə tanışlıq, həmçinin konsert proqramı regionlardan gəlmiş qonaqlarda, eləcə də yerli ictimaiyyət nümayəndələrində zəngin təəssürat yaradıb.

Rayon sakinləri də bölgələrdə bu cür yaradıcılıq festivallarının keçirilməsini yüksək qiymətləndirərək, bölgələrin rəngarəng mədəni həyatı ilə əyani şəkildə tanış olmağa imkan verən tədbirin təşkilatçılarına minnətdarlıqlarını ifadə ediblər.

Üzünü surəti-rəhman oxurlar,
Xətini sünbüli-reyhan oxurlar.

Əliftək cövhəri-yekta boyundur,
Dodağın çeşmeyi-heyvan oxurlar.

Boyun Tuba dedilər əhli-mə`ni,
Belin incə, ləbin mərcan oxurlar.

Əzəldən çün üzündür Misri-came,
Üzünü sərbəsər Quran oxurlar.

Üzün bağında bülbül, tuti, qumru
Həzaran suz ilə dastan oxurlar.

Üzün nuruna hər kim oldu münkir,
Ana lənət, adın şeytan oxurlar.

Bu gün çün hüsnünüzü yad edənlər,
Üzün şəmsü məhi-taban oxurlar.

Nə hikmətdir, əya, ey hüsnü ziba,
Səni aləmlərə sultan oxurlar?

Fəda qıl canını sən, ey Nəsimi
Ki, canı yar üçün qurban oxurlar.

***

Firqətin dərdi, nigara, bağrımı qan eylədi,
Ruzigar oldu müxalif, vəsli hicran eylədi.

Canımı, yəni vüsalından kim, ayırdı fələk,
Gəl bu cansız aşiqi gör kim, nə bican eylədi.

Bağrımın qanın gözümdən axıdar hər dəm qəmin,
Ey sənəm, şövqün məni gör kim, nə giryan eylədi.

Dərdimin dərmanını fəzlindən Allah eyləyə,
Hər dəvasız dərdə çün oldur ki, dərman eylədi.

Sirri-eşqin gəncimiş, anın yeri viranədir,
Yıxdı eşqin könlümü, ol gənci viran eylədi.

Səndən ayru düşdügüm məndən degil, təqdirimiş,
Həqdir, ey can, hər nə kim, təqdiri-yəzdan eylədi.

Canını verdi Nəsimi çün saçın zəncirinə,
Neçin anın məskənin zəncirü zindan eylədi?

Tuyuqlar

Bir-iki-üç gün cahandır cayigəşt,
Faida qılmaz, keçər çün dər güzəşt.
Dərd ilə sən özünü qılma məlul,
Şadiman ol, ta gəlincə həftü həşt.

***

Ey rüxün eşqində əqlim şahmat,
Səlsəbil oldu ləbin abi-həyat.
Ünsürün dörd oldu, həddin şeş cəhat,
Qəflətin müstəhliki bulmaz nəcat.

Cahana sığmayan dahi

Nəsimi Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustadlarındandır. O, Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalaraq bədii söz sənətinin qiymətli incilərini yaradıb. Ana dillində şeirin yeni məzmun və bədii lövhələrlə zənginləşməsində mütəfəkkir şairin misilsiz xidmətləri var.

Prezident İlham Əliyevin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" və 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan olunması haqqında sərəncamlarının icrasını təmin etmək məqsədilə Ağcabədi Regional Mədəniyyət İdarəsinin tabe müəssisələrində silsilə tədbirlər təşkil olunur.

Ağcabədi rayon MKS-nin Mərkəzi Kitabxanasında və filiallarında "2019-cu il "Nəsimi ili"dir", "Nəsimi 650" başlıqlı kitab sərgiləri, "Bədii söz sənətinin mahir ustadı" başlıqlı dəyirmi masa, "Nəsimi yaradıcılığında Azərbaycan dili mövzusu" başlıqlı oxucu konfransları keçirilib.

Mərkəzi kitabxanada keçirilən "Nəsimi poeziyası" adlı bədii qiraət müsabiqəsində müxtəlif yaş qrupundan məktəbli oxucular iştirak edib. MKS-nin direktor müavini T.Məmmədova tədbiri açaraq ölkəmizdə Nəsimi yaradıcılığına göstərilən diqqət və qayğıdan danışıb.

Qeyd edilib ki, Nəsimi ana dillində fəlsəfi şeirin yaradıcısı hesab olunur. Şair həyat və cəmiyyət haqqında bir çox fikirlərini aşiqanə misralar və ya təbiət təsvirləri içərisində söyləyib. Nəsimi yaradıcılığı Azərbaycan poeziyasının və ədəbi dilinin inkişafında mühüm bir mərhələ təşkil edir. O, Azərbaycan şeirinin forma xüsusiyyətlərinin təkmilləşməsində mühüm rol oynayıb, əruz vəznini bəhrlərini dilimizin xüsusiyyətlərinə uyğunlaşdırmağa çalışıb. Şair ana dilində ilk dəfə müstəzad, mürəbbe və tərcibəndlər qələmə alıb. Onun rübailərində hürufiliyin müddəaları, şairin fəlsəfi görüşləri, həyat və kainat haqqında düşüncələri yığcam və məntiqli bir dildə ifadə olunub.

Çıxışdan sonra müsabiqə iştirakçıları Nəsiminin şeirlərini söyləyiblər. Sonda nəticələr elan olunub. Şəhər 4 saylı tam orta məktəbin şagirdi Elgün Quliyev 1-ci yerə, həmin məktəbin birinci sinif şagirdi Vahid Məmmədov 2-ci yerə, şəhər 3 saylı məktəbin 8-ci sinif şagirdi Nurcan Xəlilova və şəhər 4 saylı məktəbin şagirdi Heydər Məmmədov üçüncü yerə layiq görülərək fəxri fərmanla təltif ediliblər.

Ağcabədi şəhər 1 nömrəli tam orta məktəbdə ədəbi-bədii gecə keçirilib.

Məktəbin direktoru Səadət Kazımova, müəllimə Dilarə Qafarova şairin yaradıcılığı barədə məlumat veriblər. Tədbir iştirakçıları Nəsiminin həyat və yaradıcılığından bəhs edən videoçarxa baxıblar. Yuxarı sinif şagirdlərinin ifasında "Nəsimi" filmindən Şirvanşah İbrahimlə şairin söhbətini əks etdirən səhnə maraqla qarşılanıb. Sonra məktəblilər şairin qəzəllərini söyləyiblər. Məktəbin şagirdi Xumar Məmmədova Nəsiminin portretini çəkib.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialında da dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbir təşkil edilib.

***

Ağcabədi Regional Mədəniyyət İdarəsinin tabeliyindəki Ağdam rayon MKS-nin Mərkəzi Kitabxana və filiallarında mütəfəkkir şairə həsr olunan "Qəlblərdə yaşayan şair", "Ağıla və qəlbə işıqsaçan şair", "Bəşər şairi", "Əbədiyaşar Nəsimi" və s. mövzularda kitab sərgiləri təşkil edilib.

Mərzili kənd kitabxanasında "Dahi Azərbaycan şairi – Nəsimi" adlı dəyirmi masa da "Dahi Azərbaycan şairi – Nəsimi" adlı dəyirmi masa keçirilib. II Əhmədağalı kənd kitabxanasında gerçəkləşən "Əbədiyaşar söz sərkərdəsi" mövzulu məruzədə şairin yaradıcılığının məziyyətlərindən söz açılıb.

Mərkəzi kitabxanada "İnsanpərvərlik və azadlıq nəğməkarı", "Könüllər fatehi" adlı dəyirmi masalar təşkil edilib, "Ölümü ilə ölməzlik qazanan Nəsimi" adlı məruzə dinlənilib.

Şıxbabalı kitabxanasında "Əbədiyyət üfüqlərində doğmuş eşq günəşi", Zəngişalı kitabxanasında "Həqq mənəm, Həqq məndədir, həqq söylərəm", Həsənxanlı kənd kitabxanasında "Elmdə ürfana ümman olan şair" adlı poeziya gecəsində şairin əsərləri qiraət olunub.

Rayonun I Əhmədağalı kənd kitabxanasında "Altı əsr yarım mərdlik simvolu" mövzusunda dəyirmi masa, eləcə də Qalayçılar kənd kitabxanasında "Yad et məni" mövzusunda ədəbi-bədii gecə, Gülablı kənd kitabxanasında isə "Günəşə bənzəyən şair" mövzusunda bədii qiraət saatı təşkil olunub.

***

Regional idarənin əhatə etdiyi Laçın rayon MKS-nin Xidmət şöbəsində "Nəsimi ili" və "İmadəddin Nəsimi 650" başlıqlı sərgilər təşkil edilib. Bundan əlavə, şairin əsərlərinin yer aldığı nəşrlərin təqdimatına həsr olunan dəyirmi masa keçirilib.

MKS-nin direktoru Ofeliya Şükürova şairin həyat və yaradıcılığı haqqında danışıb.

MKS-nin Xidmət şöbəsinin təşkilatçılığı ilə Laçın rayon 23 saylı tam orta məktəbdə mütəfəkkir şairin yaradıcılığına həsr olunmuş "Nəsimi poeziyası" adlı bədii qiraət müsabiqəsi keçirilib. Müsabiqədə müxtəlif yaş qrupundan olan məktəbli oxucular iştirak edib. Tədbirdə kitabxananın şöbə müdiri İ.Xıdırova Nəsiminin söz dünyasından danışıb. Qeyd edib ki, şairin şeirləri, ictimai-əxlaqi düşüncələr axarına diqqət yetirəndə onun həqiqətə necə yaxın olduğunu görürük. O, maddi dünyada ilahi gözəlliyi görmək qabiliyyətini nümayiş etdirdiyi üçün əbədi ömür qazanıb.

***

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə bu il ikinci dəfə keçirilən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının Ağcabədidə gerçəkləşən tədbirində regional idarənin tabeliyindəki MKS-lər "Nəsimi 650" başlıqlı sərgilər təqdim ediblər. Ağcabədi MKS-nin kitab guşəsinin qarşısında Nəsimi obrazında olan məktəblilər şairin qəzəllərini söyləyiblər. Tədbirdə həmçinin "Nəsimi" filmindən parçalar nümayiş etdirilib. Şagirdlərin ifasında hazırlanmış səhnəcik və qəzəllərin qiraəti maraqla qarşılanıb.

Festivalın sərgi hissəsində Sərvər Abdullayevin əl işləri – vaxtilə Ağdamda gözoxşayan tikili olmuş "Çay evi" və Ağdam məscidinin kibrit çöplərindən hazırlanan maketləri də ziyarətçilərdə böyük maraq doğurub. Festivalın konsert proqramında folklor kollektivlərinin rəqsləri ilə yanaşı, "Qarabağ şikəstəsi", "Yaşa, mənim xalqım", "Qonaq gəl bizə" və s. mahnılar səsləndirilib.

Ləbinə əhli-nəzər çeşmeyi-heyvan dedilər,
Gərçi uçmaq hurusu cümlə ana can dedilər.

Səni bu hüsni-camal ilə, bu lütf ilə görən,
Qorxdular həq deməgə, döndülər insan dedilər.

Surətin vəsfini sordum isə hər taifədən,
Mə`ninin güzgüsünü surəti-rəhman dedilər.

Sunbülün halı pərişan, dedilər, hal əhli,
Allah-Allah, nə üçün, mişkə pərişan dedilər?

Bir qılın qiymətini hər kimə sordumsa, ana
Gənci-Qarun ilə min mülki-Süleyman dedilər.

Düşmənin adını aşiqlərə sordum ki, nədir,
Eşidən cümlə nə kafər, nə müsəlman dedilər.

Şək degil kim, üzünü görməmiş anlar ki, səni
Huriyə bənzədüben Yusifi-Kənan dedilər.

Ləblərin vəslinə irmək mana müşkül görünür,
Gərçi sordular anı, dil ilə asan dedilər.

Ağzın əsrarına əndişə qaçan vaqif ola
Ki, üqul əhli ana nükteyi-pünhan dedilər.

Ey Nəsimi, dəmi-İsa degil isə nəfəsin,
Nəfəsi doğrular ana nə üçün can dedilər?

***

Kim ki aldandı cahanın ağulu ləzzatına,
Düşdü şol mənsubəsi çox dünyanın şəhmatına.

Divi-məlundur, saqın, əmmarə nəfsin mərkəbi,
Minmə, gər azğun degilsən nəfsi-şumun atına!

Dəva eylərsən ki, həqqi bilmişəm, sadiq degil,
Çün dəlilin yoxdur, ey münkir, anın isbatına.

Zülfü qaşın, kirpigindir tilkə ayatül-kitab,
Üştə müshəf, gəl bax anın surəvü ayatına!

Taətü zikrü namazı məkrü fəndir zahidin,
Arif ol, aldanma billah, zahidin tamatına!

Nəfxeyi-surun sədası dutdu afaqı, eşit,
Ey olan aşiq, həmirin ənkərəl-əsvatına!

Kafirin bütxanəsidir dünyanın kaşanəsi,
Yoxdur imanı anın kim, səcdə qıldı latına.

Cami-Cəmşid oldu hər şey, surətindən uy verür,
Ey günəş, feyzin irişdi aləmin zərratına!

Zatının eynidir Allahın süfatı, ey bəşər,
Leykin ol bildi bu rəmzi kim, irişdi zatına.

Surətin gör kim, nə müğləqdir anın mə`nisinə,
Kimsənin əqli irişməz kəndi idrakatına.

Çün camalından Nəsimi əbcədin qıldı tamam,
Eynü mimin əmməsindən irdi vəssafatına.

Cahana sığmayan dahi

Bərdə Regional Mədəniyyət İdarəsi tərəfindən tabe müəssisələrdə - uşaq musiqi və incəsənət məktəblərində, klub müəssisələrində, kitabxanalarda, tarix-diyarşünaslıq muzeylərində, Heydər Əliyev mərkəzlərində, rəsm qalereyalarında "Nəsimi ili" ilə əlaqədar müxtəlif tədbirlər keçirilib.

Bərdə rayon Mədəniyyət Mərkəzində "Nəsiminin söz qüdrəti" adlı ədəbi-bədii gecə təşkil olunub. Tədbirdə qeyd olunub ki, Nəsimi irsinin yeni təfəkkür işığında öyrənilməsi və təbliği əsasən ötən əsrin 70-ci illərindən başlayıb. Həmin dövrdə tarixi-mədəni dəyərlərimizə böyük qayğı göstərən ümummilli lider Heydər Əliyevin diqqət və qayğısı ilə mütəfəkkir şairin hərtərəfli öyrənilməsi, ölkəmizdə və xaricdə tanıdılması istiqamətində mühüm işlər görülüb. Şairin 600 illik yubileyi UNESCO səviyyəsində qeyd olunub, bədii film çəkilib, ədəbi və musiqi əsərləri yazılıb. Tədbirin bədii hissəsində şairin qəzəlləri oxunub, eləcə də muğam üstündə ifa edilib.

Bərdə rayon Mədəniyyət Mərkəzinin filialları olan Divanlı kənd Xalq yaradıcılığı, Mehdixanlı, Mirzalıbəyli, Yenidaşkənd kənd Folklor, Nazırlı, Zümürxan kənd Mədəniyyət evləri, 2, 4 nömrəli şəhər klubları, Türkmən kənd klubu yubileylə bağlı ədəbi-bədii gecələr təşkil ediblər.

Bərdə rayon Mərkəzi Kitabxanası və filialları da əlamətdar yubileylə əlaqədar silsilə tədbirlər təşkil edib. Mərkəzi kitabxanada "Ölümü ilə ölməzlik qazanan şair" adı altında biblioqrafik vəsait hazırlanıb, "İctimai lirikanın görkəmli yaradıcısı" adlı sərgi təşkil edilib.

2 nömrəli şəhər kitabxana filialı, eləcə də Şirvanlı, Mehdixanlı, Xanağalı, Mirzəcəfərli, Türkmən, Mollalı, Kərimbəyli, Qaradəmirçi, Lək, Kətəlparaq, Əyricə, Yeni Əyricə, Böyük Göyüşlü, Bəcirəvan, Mustafaağalı və Cicimli kənd kitabxana filiallarında mütaliə günü, sərgi, poeziya gecəsi, dəyirmi masa, ədəbi-bədii kompozisiya və s. tədbirlər keçirilib.

M.F.Axundzadə adına 12 nömrəli kitabxana filialında "Nəsiminin qəzəlləri bizə nə deyir" mövzulu tədbir, M.P.Vaqif adına Mərkəzi Kitabxanada isə "Əbədiyyət üfüqündə doğmuş eşq günəşi" mövzusunda poeziya gecəsi keçirilib.

***

Regional idarənin Mingəçevir şəhər Heydər Əliyev Mərkəzində 18 may – Beynəlxalq Muzeylər Gününə həsr olunmuş "Muzeylər və Nəsimi irsi" mövzusunda tədbir təşkil edilib. Məktəbli və tələbələrin Mingəçevir Şəhər Tarix Muzeyinə ekskursiyası təşkil olunub.

Şəhər MKS-nin M.Müşfiq adına 10 nömrəli kitabxana filialı Ş.İ.Xətai adına 7 nömrəli kitabxana filialı ilə birlikdə "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" mövzusunda poeziya gecəsi keçiriblər.

A.Şaiq adına 8 nömrəli kitabxana filialında "Nəsimi şeiriyyəti və mənəviyyatı" mövzusunda məruzə oxunub. M.Müşfiq adına kitabxanada "2019-cu il Nəsimi ilidir" başlıqlı sərgi təşkil edilib. N.Gəncəvi adına 9 nömrəli kitabxana filialının əməkdaşları şairin 650 illiyinə həsr edilən tədbir keçiriblər. Tədbir çərçivəsində "Məndə sığar iki cahan" başlığı altında sərgi nümayiş olunub və dəyirmi masa keçirilib. H.Cavid adına 11 nömrəli kitabxana filialında isə Nəsimi qəzəllərinin müzakirəsi təşkil olunub.

Üzeyir Hacıbəyli adına 11 illik Musiqi məktəbində "İki cahan şairi" adlı dəyirmi masa, Bülbül adına 2 nömrəli Musiqi məktəbində isə "Böyük hürufi şair Nəsimi" başlıqlı sərgi gerçəkləşib.

***

Tərtər rayon Mədəniyyət Mərkəzində "İki cahana sığmayan böyük şair" adlı dəyirmi masa, mərkəzin Buruc, Dəmirçilər, Evoğlu, Yuxarı Qapanlı, Umudlu, İsmayılbəyli, Qarağacı kənd filialları – mədəniyyət evlərində, Soyulan, Yuxarı Sarıcalı, Səhləbad, Ələsgərli, Bəyimsarov, Borsunlu, Sarov, Rəcəbli kənd klublarında dəyirmi masalar, sərgilər və digər tədbirlər keçirilib.

Mərkəzi kitabxananın Oxuculara xidmət şöbəsinin oxu zalında "Nəsimi ili" mövzusunda, MKS-nin Şəhər kitabxanasında "Məndə sığar iki cahan" başlığı altında dəyirmi masalar, MKS-nin Uşaq şöbəsində "İmadəddin Nəsimi – poetik fikirlərlə fəlsəfi görüşlərin vəhdəti" başlıqlı şeir müsabiqəsi, Qazıyan kənd kitabxana filialında sərgi təşkil edilib.

MKS-nin Zolgörən qəsəbə kitabxana filialında dəyirmi masa, İrəvanlı kənd kitabxana filialında "Gövhəri-lamə-kan mənəm" mövzusunda tədbir, Soylan kənd kitabxanasında "Üzünü məndən nihan etmək dilərsən...", Seydimli kənd kitabxanasında "Nəsimi əzəməti" adlı sərgilər keçirilib, məruzə oxunub. Hüsənli kənd kitabxana filialında "Əbədiyyət günəşi" adlı sərgi və söhbət təşkil olunub, Umudlu kənd kitabxanasında isə "Qəlbləri sözün qüdrəti ilə fəth edən şair" başlığı altında sərgi təşkil edilib.

Tarix-diyarşünaslıq muzeyində yubiley tədbiri, Heydər Əliyev Mərkəzində "Mən bu cahana sığmazam...", Uşaq musiqi məktəbində isə "Dövrünün mütəfəkkir şairi" adlı dəyirmi masa keçirilib.

***

Yevlax şəhər Mədəniyyət Mərkəzinin filialı olan Hacımahmudlu kənd Diyarşünaslıq klubunda "Əbədiyyət üfüqlərində doğmuş eşq şairi", Ərəbbəsrə kənd Mədəniyyət evində "Ağıla və qəlbə işıqsaçan şair", Ərəş kənd Folklor evində "Məndə sığar iki cahan...", Tanrıqulular kənd Sənətkarlıq evində "Səni bu hüsnü camal ilə görüb...", Salahlı kənd Folklor evində, "Haqq aşiqi", Yəldili kənd Mədəniyyət evində "Cahana sığmayan Azərbaycan şairi", Malbinəsi kənd Mədəniyyət evi və Malbinəsi kənd Uşaq musiqi məktəbi ilə birlikdə "Can ilə həm cahan mənəm..." adlı tədbirlər təşkil olunub. Mədəniyyət mərkəzi və şəhər Yaradıcılıq evinin təşkilatçılığı ilə "Gərçi bu gün Nəsimiyəm..." adlı ədəbi-bədii, musiqili gecə keçirilib.

***

Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə reallaşan "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının Bərdə Regional Mədəniyyət İdarəsi üzrə tədbiri Tərtər şəhərində keçirilib. Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxış edərək, festivalın əhəmiyyətini yüksək qiymətləndirib. Bildirib ki, festival Azərbaycan regionlarının mədəni zənginliyi ilə tanış olmağa, bölgələr arasında mədəni mübadiləni gücləndirməyə zəmin yaradır. Sərgidə Qarabağ və Qazax xalçaları da nümayiş olunub. Həmçinin 2019-cu ilin "Nəsimi ili" elan edilməsi ilə əlaqədar olaraq kitab guşəsi təşkil olunub, ədəbi-bədii kompozisiyalar nümayiş etdirilib. Oğuz elinin ağsaqqalı Dədə Qorqud obrazının da yer aldığı kompozisiya maraq doğurub. Regional idarələr üzrə folklor qrupları, yerli incəsənət və bədii özfəaliyyət kollektivləri konsert proqramı ilə çıxış ediblər.

Qanı bir əhdü peymanı bütün yar?
Qanı bir qövlü gerçək, doğru dildar?

Qanı həqqi bilən bir gerçək ər kim,
Ola doğru anın dilində göftar?

Qanı dil ilə iqrar eyləyən kim,
Həqə yoxdur anın könlündə inkar?

Qanı bir incuyi-ari sədəf kim,
Buluna anda min lölöi-şəhvar?

Qanı Mənsurləyin bir əhli-həq kim,
Asıla eşq içində başı bər-dar?

Qanı gerçəkləyin bir həqqə aşiq,
Qanı görmüş həqi bir əhli-didar?

Qanı qəflət şərabından bir ayıq,
Qanı əsrüklərin cəmində huşyar?

Qanı əhdində bir sabitqədəm kim,
Qoyam adın anın doğru vəfadar?

Qanı sadiqlərin razına məhrəm,
Qanı aşiqlərin rəncinə timar?

Qanı dünyada, yarəb, şol əmin kim,
Kim, anda gizlənə min dürlü əsrar?

Yar ilə çünki bir oldu Nəsimi,
Nə qəm, gər cümlə aləm olsa əğyar.

***

Ənəlhəq söylərəm həqdən, ələl-ərş istiva gəldi,
Üzündür sureyi-rəhman, ələl-rəhman əla gəldi.

Misali-Kəbədir üzün fəla tədu məəlallah,
Çü yetmiş yeddi hərf oldu, üzündən kafü ha gəldi.

Otuz iki hürufu kim, üzündən həq əyan etdi,
Bəşarət bu idi həqdən, xətindən tavü ha gəldi.

Üzündə gərçi həft ayət oxuram mən kəlamüllah,
Səlat ansız qəbul olmaz ki, həqdən bu nida gəldi.

Vücuda gəlmədi şeytan, hidayət bulmadı nura,
Sənə hər kim sücud etdi, ana həqdən səna gəldi.

Mən ol Mənsuram, ey arif ki, daim söylərəm yahu,
Məni bər-dar edən həqdir, bu dar uş Mənsura gəldi.

Dəmi-İsa kimi nitqim, həyati-can derəm hər dəm,
Həqə minnət ki, vəslindən həyati-canfəza gəldi.

Saçından ətr olur hər dəm mana əhdü vəfa buyu,
Saçın əhdü vəfasından mana əhdü vəfa gəldi.

Nəsimi buldu vəslindən həyati-çeşmeyi-heyvan
Ki, Xızr abı içən, bişək, həyati-canbəqa gəldi.

Cahana sığmayan dahi

"Nəsimi ili" çərçivəsində Biləsuvar Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi mədəniyyət ocaqlarında gerçəkləşən tədbirlər də rəngarəngliyi ilə seçilir. Hər bir müəssisə öz profilinə uyğun olaraq həm ayrılıqda, həm də digər müəssisələrlə birgə böyük söz ustadının 650 illiyinə töhfə verməyə çalışırlar.

Klub tipli müəssisələrdə ədəbi-bədii gecələr, şeir məclisləri, səhnəciklər, kitabxanalarda kitab sərgiləri və səyyar xidmətlər, muzeylər, rəsm qalereyaları və Heydər Əliyev mərkəzlərində müxtəlif məzmunlu dəyirmi masalar təşkil edilib. Regional idarənin tabeliyindəki uşaq musiqi və incəsənət məktəbləri də bu prosesdən kənarda qalmayıb. Nəsiminin zəngin irsinin şagirdlər tərəfindən musiqili-poetik formada canlandırılması şairin yaradıcılığının gələcək nəsillərə çatdırılmasına xidmət edir.

***

Biləsuvar rayon Mədəniyyət Mərkəzində fəaliyyət göstərən "Pəncərə" teatr-studiyası tərəfindən Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tamaşa təqdim olunub. Nümayişdən öncə çıxış edən Biləsuvar Regional Mədəniyyət İdarəsinin rəis müavini Rəfiqə Cəfərova dahi şairin ömür yoluna və yaradıcılığına nəzər salıb, "Nəsimi ili" çərçivəsində təşkil edilən tədbirlərdən söz açıb.

Sonra mütəfəkkir şairin həyat və yaradıcılığının əks olunduğu tamaşa təqdim edilib və izləyicilər tərəfindən maraqla qarşılanıb. Tamaşanın regional idarənin digər rayonlarında da nümayişi planlaşdırılır.

* * *

Salyan şəhərində rayon İcra Hakimiyyəti və Mədəniyyət mərkəzinin birgə təşkilatçılığı ilə möhtəşəm muğam gecəsi keçirilib. Gecədə Nəsiminin zəngin poetik irsinə müraciət olunub və xanəndələr şairin qəzəlləri üstündə muğamlar səsləndiriblər. Bütün ifalar alqışlarla qarşılanıb.

Salyan rayon MKS-nin Uşaq şöbəsinin təşkilatçılığı ilə Nəsiminin 650 illiyinə həsr olunan ədəbi-bədii gecə keçirilib. Tədbirdə şairin yaradıcılığını əks etdirən, eləcə də Nəsimi irsinin tədqiqini əhatə edən kitab sərgisi təqdim olunub. Məktəblilər şairin poeziyasından nümunələr səsləndiriblər.

Salyan rayon Aşağı Noxudlu kənd orta məktəbində "Məndə sığar iki cahan" adlı ədəbi-bədii gecə keçirilib. Kənd kitabxana filialının təşkilatçılığı ilə gerçəkləşən tədbirdə müəllimlər, kitabxanaçılar şairin həyat və yaradıcılığı haqqında geniş məlumat veriblər. Məktəblilər şairin qəzəllərindən ibarət kompozisiyalar təqdim ediblər.

***

Neftçala rayon Heydər Əliyev Mərkəzində Nəsiminin 650 illik yubileyi münasibətilə təşkil olunmuş tədbirdə Biləsuvar Regional Mədəniyyət İdarəsinin rəisi Elçin Hüseynov, mədəniyyət işçiləri, rayon ictimaiyyəti iştirak edib.

Mərkəzin direktoru Könül Məmmədova xalqımızın mənəvi dəyərlərinin yaşadılması istiqamətində görkəmli ədiblərin, mədəniyyət xadimlərinin yubileylərinin qeyd edilməsinin əhəmiyyətindən danışıb. Sonra K.Məmmədovanın ssenari müəllifi olduğu, Nəsiminin həyatından bəhs edən tamaşa təqdim edilib. Musiqinin müşayiəti ilə şairin qəzəllərinin səsləndirilməsi tədbirə xüsusi rəng qatıb.

Dəvət olunan qonaqlardan Azərbaycan Yazıçılar Birliyinin Güney Azərbaycan şöbəsinin rəhbəri Sayman Aruz, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun əməkdaşları Sevinc Əliyeva, Qüdsiyyə Qəmbərova, Nizami adına Ədəbiyyat İnstitutundan filologiya üzrə fəlsəfə doktorları Xuraman Hümbətli, Mərziyyə Nəcəfova çıxış edərək tədbirin təşkilinə görə mədəniyyət işçilərinə təşəkkürlərini bildiriblər.

Rayon Heydər Əliyev Mərkəzində keçirilən "Nəsimi ili, Nəsimi dili" adlı tədbirdə isə 4 saylı orta məktəbin müəllimləri Turanə İmanova, Badam Kərimova çıxış edib, şagirdləri şairin qəzəllərini oxuyublar, söz ustadının hikmət xəzinəsi əsasında səhnəcik nümayiş olunub. Uşaqların çıxışı tamaşaçılarda xoş ovqat yaradıb.

Mərkəzdə Neftçala şəhər 3 saylı tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Aytəkin Axundzadə və şagirdlərinin iştirakı ilə açıq dərs də keçirilib. Məktəbin 6, 8 və 9-cu sinif şagirdləri tarın müşayiəti ilə Nəsiminin qəzəllərini söyləyiblər. Mərkəzin elmi işçiləri Nəsiminin həyat və yaradıcılığı haqqında məruzə ilə çıxış ediblər. Böyük şairin Azərbaycan ədəbiyyatının inkişafına verdiyi töhfələrdən söz açılıb. Şairin yaradıcılığının janr və dil-üslub xüsusiyyətləri vurğulanıb. Sonda şagirdlərin sualları cavablandırılıb.

Bundan əlavə, Heydər Əliyev Mərkəzinin kitabxanasında 1 saylı tam orta məktəbin müəllim və şagird kollektivinin iştirakı ilə "Nəsimi qiraət günü" adlı kitab müzakirəsi təşkil olunub. Müzakirədə əsas diqqət Nəsimi və müasirlik mövzusuna, çağdaş dövrümüzdə şairin ideyalarının, onun mənəvi xəzinəsinin faydalarına və yaradıcılığının təbliğinin vacibliyinə yönəldilib. Qeyd olunub ki, altı əsr keçməsinə baxmayaraq, Nəsiminin söz xəzinəsi öz dəyərini qoruyub saxlayır. Şairin yaradıcılığı dünyanı sülhə, insanları birliyə və mənəvi saflığa səsləyir.

Neftçala rayon Mərkəzi Kitabxanasında təşkil olunan "Cahana sığmayan şair" adlı ədəbi-bədii gecədə kitabxananın məktəbli oxucuları Nəsimi yaradıcılığının motivləri əsasında səhnəciklər təqdim ediblər.

***

Biləsuvar Regional Mədəniyyət İdarəsinin Cəbrayıl rayon Mərkəzi Kitabxanasında Nəsiminin 650 illik yubileyi münasibətilə "Cahana sığmayan şair" başlığı altında tədbir keçirilib. Tədbirdə rayon ziyalıları və məktəblilər iştirak ediblər. Çıxışlarda Nəsiminin Azərbaycan poeziyasındakı yerindən, şairin ideyalar aləminin zənginliyindən söz açılıb. Vurğulanıb ki, Nəsimi özündən sonra ədəbi hərəkata böyük təsir göstərib, onun poetik ənənələri yaşadılıb. Sonda iştirakçılar Nəsimi yaradıcılığını əks etdirən kitab sərgisinə baxıblar.

Biləsuvar rayon 8 saylı köçkün qəsəbəsində fəaliyyət göstərən Cəbrayıl rayon Nüzgar kənd klubunda "Nəsimi 650" başlığı altında tədbir təşkil olunub. Klub işçilərinin hazırladığı ədəbi-bədii kompozisiyalarda şairin söz, hikmət zənginliyi bir daha nümayiş etdirilib.

Cəbrayıl rayon MKS-nin 17 saylı kitabxana filialında keçirilən "Nəsimi poeziyası" mövzulu tədbirdə kitabxanaçı Ziyafət Məmmədova şairin həyat və yaradıcılığı haqqında oxucular məlumat verib. Bildirilib ki, Nəsimi insanları kamil və azad düşüncəli görmək istəyirdi. Sonra məktəbli oxucular şairin qəzəllərini qiraət ediblər.

Biləsuvar rayon 11 saylı köçkün qəsəbəsində fəaliyyət göstərən Cəbrayıl rayon Hovuslu kənd klubu və Hasanqaydı kənd kitabxanasının birgə təşkilatçılığı ilə böyük şairin yubileyi münasibətilə tədbir keçirilib. Tədbir çərçivəsində kitab sərgisi, klub işçiləri tərəfindən şairin qəzəllərindən ibarət ədəbi-bədii kompozisiya təqdim edilib.

* * *

"Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının Biləsuvar Regional Mədəniyyət İdarəsi üzrə tədbiri Neftçala şəhərindəki Heydər Əliyev Mərkəzinin qarşısında keçirilib. Festivalın sərgi hissəsində dekorativ sənət nümunələri, rəsm əsərləri, yerli sənətkarların əl işləri nümayiş olunub. Milli Qəhrəman Xanoğlan Məmmədov adına Neftçala rayon Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən "Cırtdan" kukla teatrının "Kilimarası" tamaşası balacalar tərəfindən maraqla qarşılanıb. Festival çadırlarının ətrafında milli geyimli xanımların nümayiş etdirdikləri sacda yuxa bişirilməsi, yun əyirilməsi, corab toxunması kimi milli məişətimizə xas olan elementlər də diqqət çəkib.

Konsert proqramında bölgələrin özfəaliyyət dərnəkləri, musiqi və folklor kollektivləri çıxış edib. Sakinlər bölgələrdə bu cür yaradıcılıq festivallarının keçirilməsinin əhəmiyyətini yüksək qiymətləndirərək, təşkilatçılara minnətdarlıqlarını ifadə ediblər.

Mərhəba, xoş gəldin, ey ruhi-rəvanım, mərhəba!
Ey şəkərləb yari-şirin, laməkanım, mərhəba!

Çün ləbin cami-Cəm oldu nəfxeyi-Ruhülqüdüs,
Ey cəmilim, ey cəmalim, bəhrü kanım, mərhəba!

Könlümə heç səndən özgə nəsnə layiq görmədim,
Surətim, əqlim, üqulim, cismü canım, mərhəba!

Ey mələk surətli dilbər, can fədadır yoluna,
Çün dedin ləhmikə ləhmi, qanə qanım, mərhəba!

Gəldi yarım naz ilə, sordu, Nəsimi, necəsən?
Mərhəba, xoş gəldin, ey xırdadəhanım, mərhəba!

***

Məndə sığar iki cahan, mən bu cahana sığmazam,
Gövheri-laməkan mənəm, kövnü məkana sığmazam.

Ərşlə fərşü kafü nun məndə bulundu cümlə çün,
Kəs sözünüvü əbsəm ol, şərhi-bəyana sığmazam.

Kövni-məkandır ayətim, zatidürür bidayətim,
Sən bu nişanla bil məni, bil ki, nişana sığmazam.

Kimsə gümanü zənn ilə olmadı həqq ilə biliş,
Həqqi bilən bilir ki, mən zənnü gümana sığmazam.

Surətə baxü mə`nini surət içində tanı kim,
Cism ilə can mənəm, vəli cism ilə cana sığmazam.

Həm sədəfəm, həm inciyəm, həşrü sirat əsinciyəm,
Bunca qumaşü rəxt ilə mən bu dükana sığmazam.

Gənci-nihan mənəm mən uş, eyni-əyan mənəm, mən uş,
Gövheri-kan mənəm, mən uş, bəhrəvü kana sığmazam.

Gərçi mühiti-əzəməm, adəm adımdır, adəməm,
Tur ilə künfəkan mənəm, mən bu məkana sığmazam.

Can ilə həm cahan mənəm, dəhrilə həm zaman mənəm,
Gör bu lətifəyi ki, mən dəhrü zamanə sığmazam.

Zərrə mənəm, günəş mənəm, çar ilə pəncü şeş mənəm,
Surəti gör bəyan ilə, çünki bəyana sığmazam.

Zat iləyəm, sifat ilə, gülşəkərəm nabat ilə,
Qədr iləyəm bərat ilə, bəstə dəhana sığmazam.

Nara yanan şəcər mənəm, çərxə çıxan həcər mənəm,
Gör bu odun zəbanəsin, mən bu zəbana sığmazam.

Şəhd ilə həm şəkər mənəm, şəms mənəm, qəmər mənəm,
Ruhi-rəvan bağışlaram, ruhi-rəvana sığmazam.

Tir mənəm, kaman mənəm, pir mənəm, cavan mənəm,
Dövləti-cavidan mənəm, ayinədana sığmazam.

Gərçi bu gün Nəsimiyəm, haşimiyəm, qureyşiyəm,
Məndən uludur ayətim, ayətə, şana sığmazam.

Cahana sığmayan dahi

Ölkəmizin digər regionlarında olduğu kimi, Kürdəmir Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi rayonların mədəniyyət müəssislərində də mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi və "Nəsimi ili" ilə əlaqədar Kürdəmirdə müxtəlif tədbirlər təşkil olunub.

Kürdəmir rayon Mədəniyyət Mərkəzində "Nəsimi ili" çərçivəsində "Heç kimsə Nəsimi sözünü kəşf edə bilməz..." adlı qəzəl müsabiqəsi keçirilib. Müsabiqə Kürdəmir Regional Mədəniyyət İdarəsi, AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran regional filialı və Kürdəmir Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə gerçəkləşib. Tədbirdə Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran regional filialının müdiri, filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızı çıxış edərək Nəsiminin tərəqqipərvər, ictimai-fəlsəfi ideallarla zəngin irsindən, onun yaradıcılığının Azərbaycan ədəbiyyatı tarixində yeni mərhələ təşkil etməsindən, eləcə də türkdilli xalqların ədəbiyyatına təsirindən danışıb. Müsabiqədə qiraətçi şagirdlərin çıxışları dinlənilib.

Rayon Mədəniyyət Mərkəzində Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran regional filialı ilə birgə keçirilən "Nəsimi sözünün qüdrəti" adlı elmi-praktik konfransda da böyük söz ustadının yaradıcılıq məziyyətlərindən söz açılıb.

Tədbirdə Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin şöbə müdiri, filologiya elmləri doktoru, professor Şəfəq Əlibəylinin "Nəsiminin farsca "Divan"ının özəllikləri", AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Atif İslamzadənin "Nəsimi yaradıcılığında inanclar sistemi və şairin ədəbi təsir dairəsi" mövzusunda məruzələri dinlənilib. Sonra qəzəl qiraəti müsabiqəsinin qalibləri Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin və Kürdəmir Regional Mədəniyyət İdarəsi və rayon Təhsil Şöbəsinin fəxri fərmanları ilə təltif edilib.

Kürdəmir Tarix-Diyarşünaslıq Muzeyində "Nəsimi ili" ilə bağlı sərgi açılıb. Muzeyə gələn şagirdlərə sərgi ilə bağlı məlumat verilib, nümayiş olunan kitablardan müxtəlif şeirlər oxunub. Muzeyin elmi işçiləri şagirdlərə Nəsimi yaradıcılığı haqqında məlumat veriblər. Bildirilib ki, Nəsimi humanist, eyni zamanda insanı ilahiləşdirən şairdir, həm də öz dövrünün ədalətsizliklərinə, Orta əsrlər cahilliyinin bütün təzahürlərinə qarşı cəsarətlə mübarizə aparıb. Şair inanırdı ki, azadfikirli, kamil və ləyaqətli insan hər cür məhrumiyyətə, fanatizmə və mövhumata qalib gələcək. Bütün bunlarla yanaşı, məhəbbət və gözəlliyi vəsf edən şeirlər də şairin yaradıcılığını maraqlı edir.

***

Regional idarənin tabeliyindəki Xocavənd rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) Xocavənd kənd kitabxana filialı "Nəsimi ili" ilə bağlı tədbirlər təşkil edib. Kitabxana filialının müdiri Zümrüd İbrahimova Nəsiminin həyat və yaradıcılığı haqqında geniş məlumat verib. Tədbirlərdə şairin kitablarından ibarət sərgilər hazırlanıb.

Xocavənd rayon MKS-nin Mərkəzi Kitabxanasında və Kuropatkin kənd kitabxana filialında Nəsiminin yubileyinə həsr edilmiş sərgi və söhbətlər təşkil edilib. Tədbirlərdə vurğulanıb ki, Nəsiminin yaradıcılığı Azərbaycan türkcəsinin tarixi inkişafını öyrənmək baxımından da müstəsna əhəmiyyətə malikdir. Xocavənd rayon Mədəniyyət evində keçirilən "Nəsimi yaradıcılığı" mövzulu tədbirdə şairin ideyalar aləmindən söz açılıb.

***

Beyləqan rayon Heydər Əliyev Mərkəzində "Nəsimi dünyası" adlı ədəbi-bədii gecə təşkil edilib. Mərkəzin direktoru Yeganə Məmmədova bildirib ki, Nəsiminin yaradıcılığı Şərq xalqlarının mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutur. Bu yaradıcılıq uzun illərdən bəri elmi fikrin diqqət mərkəzindədir. Yarım əsr öncə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizdə Nəsiminin 600 illik yubileyi keçirilib. Ötən illər ərzində Nəsiminin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılıb. 1973-cü ildə çəkilən "Nəsimi" bədii filmi Azərbaycan kino sənətinin incilərindəndir.

Təbiət və humanitar fənlər təmayüllü liseyin direktoru

Mehman Kərimov çıxış edərək Nəsiminin Azərbaycan ədəbiyyatına böyük töhfələrindən danışıb.

Sonra tədbir bədii hissə ilə davam edib. Məktəblilərin ifasında Nəsiminin qəzəllərindən ibarət "Cahan mənəm" adlı ədəbi-bədii kompozisiya təqdim edilib. "Nəsimi" bədii filmindən fraqment nümayiş olunub.

Beyləqan rayon Niyazi adına Uşaq musiqi məktəbi Gənclər mərkəzində Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbir keçirib.

***

Füzuli Dövlət Dram Teatrında Nəsiminin 650 illik yubileyinə həsr olunan tədbirdə rayon İcra Hakimiyyəti başçısının müavini Gülbahar Eyvazova çıxış edərək Nəsiminin yaradıcılığı haqqında danışıb. Qeyd edib ki, Prezident İlham Əliyevin böyük şairin yubileyi haqqında, eləcə də 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan edilməsi haqqında sərəncamları ədəbiyyatımıza, mədəniyyətə olan yüksək diqqətin nümunəsidir.

Əhmədbəyli kənd tam orta məktəbinin müəllimi Cəmilə Qənbərova şairin zəngin yaradıcılığından danışıb. Məktəblilər Nəsiminin qəzəllərini söyləyiblər. Füzuli Dövlət Dram Teatrı aktyorlarının iştirakı ilə göstərilən ədəbi-bədii kompozisiya və "Nəsimi" filmindən səhnələr maraqla qarşılanıb.

***

İmişli rayon Mədəniyyət Mərkəzində Nəsiminin 650 illik yubileyinə həsr olunmuş bədii qiraət müsabiqəsi keçirilib. Layihə YAP rayon təşkilatı və rayon Təhsil Şöbəsi ilə birgə həyata keçirilib. Müsabiqədə rayonun ümumtəhsil məktəblərindən 30-dan çox şagird iştirak edib, qaliblər fəxri fərman və hədiyyələrlə mükafatlandırılıb.

İmişli rayon Mərkəzi Kitabxanasında isə "Nəsimi ili – Nəsimi dili" adı altında gənclər arasında intellektual oyunların final mərhələsi təşkil edilib.

***

Mədəniyyət Nazirliyi və regional idarələrinin iştirakı ilə keçirilən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalı çərçivəsində Kürdəmir şəhərində "Nəsimi ili" ilə bağlı şairin əsərlərindən və onun haqqında kitablardan ibarət sərgi nümayiş olunub. Mərasimdə rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov və Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi Elman Məmmədov nümayəndə heyətlərini salamlayaraq festivalın bu bölgədə keçirilməsindən məmnunluqlarını bildiriblər. Milli geyimli qızlar qonaqları şərbət və xonçalarla qarşılayıblar. Festivalın bədii hissəsində regional idarələr üzrə folklor qrupları, yerli incəsənət və bədii özfəaliyyət kollektivləri konsert proqramı ilə çıxış ediblər. Musiqi nömrələri, rəqslər tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Arifi-lamənkan otuz ikidir,
Sahibi-cismü can otuz ikidir.

Aç könül gözünüvü güzgüyə bax,
Ki yəqin, bigüman otuz ikidir.

Çün üzündür kitab, ayatı
İstiva ilə san otuz ikidir.

Endi İsa, gətirdi şirki-xilaf,
Uştə sahibzaman otuz ikidir.

Sidrətül-müntəhanın əqsamı,
Sayır isən, haman otuz ikidir.

Sənsən ümmül-kitabın əsrarı,
Bil ki, səbül-məsan otuz ikidir.

Vəhyü ilhamü ya nəbiyyü vəli,
Verən, alan əyan otuz ikidir.

Gör Nəsimi ki, surətü mə`ni,
Aşikarü nihan otuz ikidir.

***

Canımı yandırdı şövqün, ey nigarım, qandasan?
Gözlərim nuru, iki aləmdə varım, qandasan?

Bağrımı qan eylədi acı fəraqın, gəl iriş,
Ey ləbi vüslət şərabi-xoşgüvarım, qandasan?

Firqətin xarı məni gör kim, nə məcruh eylədi,
Ey gözü nərgis, həbibi-gülüzarım, qandasan?

Səbrimi yəğmaladı şövqün, qərarım qalmadı,
Ey mənim aramım, ey səbrü qərarım, qandasan?

Eylədi eşqin məni qalxan məlamət tirinə,
Ey gözü, qaşı yeləkli şəhriyarım, qandasan?

Ta üzün şəmindən iraq düşmüşəm, pərvanətək
Yanaram leylü nəhar, ey nurü narım, qandasan?

Səndən ayru könlümün yoxdur vəfalı yarü dust,
Ey cəfasız hüsni-kamil, yariğarım, qandasan?

Dəldi hicranın oxu eşqində yanan bağrımı,
Surətü mə`nidə, ey çapüksüvarım, qandasan?

Zülfünə vermiş əmanət həq əzəldə sirrini,
Ey əmanətdar, əmini-kirdigarım, qandasan?

Qatı müştaq olmuşam zülfü üzarın buyinə,
Ey üzü gülşən, saçı mişki-tatarım, qandasan?

Badilən göndər saçın buyin mana hər sübhdəm,
Ta ki yandım, keçdi həddən intizarım, qandasan?

Aşiqin cənnati-ədni şol camalın vəslidir,
Ey şərabi-kövsərim, getməz xumarım, qandasan?

Yar üçün hər guşədə min div olur düşmən mana,
Ey səvadi-əzəmü möhkəm həsarım, qandasan?

Çün Nəsimidir bu gün əyyami-eşqin Xosrovu,
Ey şəkərləb, yari-şirinruzigarım, qandasan?

Cahana sığmayan dahi

Orta əsrlər Azərbaycan poeziyasının inkişafına və zənginləşməsinə mühüm töhfələr verən mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illiyi Lənkəran Regional Mədəniyyət İdarəsinin tabe müəssisələrində də çeşidli tədbirlərlə qeyd olunur.

Lənkəran şəhər Mədəniyyət Mərkəzinin klub filialları böyük söz ustadının yubileyi münasibətilə teatrlaşdırılmış ədəbi-bədii kompozisiyalar, fotostendlər və tematik konsertlər təşkil edib. Türkəkəran kənd Folklor evi və Vel kənd Sənətkarlıq klubunun yaradıcı kollektivi "Nəsimi" filmindən parçalar səhnələşdirib. Boladi-1 kənd Folklor, Boladi-2 kənd Diyarşünaslıq klublarının hazırladığı tematik konsertlər, Ləj və Haftoni kənd sənətkarlıq klublarında bədii qiraət müsabiqəsi, Liman şəhər Folklor klubu və Osaküçə kənd Yaradıcılıq evinin təqdim etdiyi ədəbi-bədii kompozisiyalar yerli sakinlərdə böyük maraq doğurub.

Lənkəran MKS-də "Nəsimi parlaq bir günəşdir" adlı tədbir keçirilib. MKS-nin direktoru Nuranə Nəsirova tədbiri açaraq dahi şairin ədəbiyyat tariximizdə yerindən və rolundan danışıb. Lənkəran Dövlət Universitetinin müəllimi, filologiya üzrə elmlər doktoru Yədulla Ağazadə şairin həyat və fəaliyyəti haqqında söhbət açıb. Tədbirin sonunda kitabxananın fəal oxucuları, şəhər 5 saylı tam orta məktəbin şagirdləri Nəsiminin şeirlərini səsləndiriblər. Şeirlərin qiraətində fərqlənən şagirdlərə MKS-nin fəxri fərmanları təqdim olunub.

***

Astara rayon Artupa kənd Diyarşünaslıq evində Nəsiminin 650 illiyi münasibətilə keçirilən tədbirdə kinorejissor Həsən Seyidbəylinin 1973-cü ildə çəkdiyi "Nəsimi" bədii filmi nümayiş olunub. Kolatan kənd Diyarşünaslıq klubu və Kolatan kənd kitabxana filialı Şiyəkəran kənd 1 saylı tam orta məktəbinin müəllim və şagird kollektivinin iştirakı ilə şairin yubileyinə həsr olunmuş tədbir təşkil edib.

Astara rayon Uşaq musiqi məktəbində "Nəsimi ili" ilə əlaqədar keçirilən tədbirdə əvvəlcə şairin həyat və yaradıcılığını əks etdirən videoçarx nümayiş etdirilib. Sonra məktəbin müəllim və şagirdlərinin ifasında şairin qəzəllərindən ibarət ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

Maşxan kənd Folklor evində kənd tam orta məktəbinin müəllim və şagirdlərinin iştirakı ilə "650 illik Nəsimi çırağı" adlı tədbir keçirilib. Rayonun Kijəbə qəsəbə, Şahağac, Pensər kənd folklor evlərində sərgilər, dəyirmi masalar, Lovayn Sənətkarlıq evi, Toradi, Səncərədi kənd folklor evləri də kənd məktəblərinin iştirakı ilə ədəbi-bədii kompozisiyalar keçiriblər.

Astara rayon Heydər Əliyev Mərkəzində fəaliyyət göstərən rəsm dərnəyi üzvlərinin əsərlərindən ibarət sərgi nümayiş etdirilib. Sərgi iştirakçılarına Nəsiminin poetik dünyası haqqında məlumat verilib.

Ümumrayon "Oxu bayramı"nda və MKS-nin kənd kitabxana filiallarında da mütəfəkkir şairin yubileyi ilə əlaqədar kitab sərgiləri təşkil olunub.

***

Lerik rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) təşkilatçılığı ilə Nəsiminin 650 illiyinə həsr olunmuş tədbir keçirilib. Tədbirdə rayon İcra Hakimiyyəti başçısının müavini Arzu Vəlimə-mədova, ziyalılar, mədəniyyət müəssisələrinin kollektivləri, məktəblilər iştirak ediblər. Qonaqlar öncə "Nəsimi 650" adlı kitab sərgisinə baxıblar. Lerik rayon Heydər Əliyev Mərkəzinin direktoru Hüsaməddin Abbasov çıxış edərək Nəsimi poeziyasını sevənləri əlamətdar yubiley münasibətilə təbrik edib. MKS-nin direktoru Tərxan Feyziyev böyük söz ustadının həyat və yaradıcılığı haqqında məlumat verib. Şəhər Uşaq incəsənət məktəbinin, Çayrud Musiqi məktəbinin, şəhər 1, 2 və 3 saylı tam orta məktəblərin şagirdləri Nəsiminin qəzəllərini qiraət edib, musiqi nömrələri səsləndiriblər. Sonda bir qrup fəal oxucuya MKS tərəfindən kitab hədiyyə edilib.

Lerik rayon Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyası (YAP) rayon təşkilatı, Təhsil şöbəsi və Lənkəran Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə Nəsiminin 650 illik yubileyinə həsr olunmuş orta məktəblərin XI sinif şagirdləri arasında bədii qiraət müsabiqəsi keçirilib. Müsabiqədə rayonun 20 ümumtəhsil məktəbi təmsil olunub. Şagirdlər Nəsiminin qəzəllərini həzin musiqi sədaları altında qiraət ediblər.

Münsiflərin qiymətləndirməsi ilə qaliblər müəyyən olunub. Müsabiqədə ilk 3 yeri tutan şagirdlər respublika birinciliyinə vəsiqə qazanıblar.

Lerik Dövlət Rəsm Qalereyası Namiq Bağışov adına şəhər 3 saylı orta məktəbdə Nəsiminin yubileyinə həsr olunmuş sərgi keçirib. Sərgidə məktəb şagirdlərinin şairə həsr etdikləri rəsm əsərləri və s. nümayiş olunub. Məktəblilərin ifasında Nəsiminin qəzəlləri də səsləndirilib.

Mikayıl Qasımov adına Bibiyoni kənd orta məktəbində "Nəsimi ili"nə həsr olunmuş tədbirdə ulu öndər Heydər Əliyevin Nəsiminin yaradıcılığına göstərdiyi diqqət və qayğıdan söz açılıb. Qeyd edilib ki, ulu öndərin təşəbbüsü ilə şairin 600 illik yubileyi UNESCO səviyyəsində qeyd olunub. Daha sonra şagirdlər şairin qəzəllərini söyləyiblər. "Nəsimi" filmindən fraqmentlər nümayiş olunub.

Festival Lerik rayon Mədəniyyət Mərkəzinin "Bahar" xalq çalğı alətləri ansamblı, Mondigah kənd Folklor evinin oğlanlardan ibarət "Lakto" folklor rəqs qrupu, Cəngəmiran kənd Diyarşünaslıq evinin qızlardan ibarət "Bənövşə" folklor kollektivinin çıxışları ilə davam edib.

Regional idarələrin çadırguşələrində bölgələrimizin zəngin mədəni irsi, sənətkarlıq nümunələri nümayiş olunub. Xalçaçı qızların hana arxasında ilmə vurması, corab toxuması kimi qədim el sənətini əyani şəkildə nümayiş etdirmələri ziyarətçiləri keçmiş dövrlərin ab-havasına kökləyib.

Festivalda uzunömürlülər diyarının 12 nəfər qocaman sakini də iştirak edib. Rayon rəhbərliyi onlarla çay süfrəsi arxasında səmimi söhbət edib, hədiyyələr təqdim olunub.

Tədbirin rəsmi hissəsində rayonun icra başçısı Rövşən Bağırov çıxış edərək festivalın qonaqlarını salamlayıb, bu layihənin əhəmiyyətindən söz açıb. İcra başçısı Lerik rayonunun mədəni həyatında aktiv olan mədəniyyət işçilərini mükafatlandırıb.

Yaradıcılıq festivalının konsert hissəsində regional idarələr üzrə folklor qrupları, yerli incəsənət ustaları və bədii özfəaliyyət kollektivləri maraqlı proqramla çıxış ediblər.

***

Mədəniyyət Nazirliyinin təşəbbüsü, regional idarələrinin iştirakı ilə gerçəkləşən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının Lerik şəhərində təşkil olunan tədbiri də sakinlər tərəfindən böyük maraqla qarşılanıb. Tədbirdə "Nəsimi ili" ilə əlaqədar olaraq yerli şair və yazıçıların əsərlərindən ibarət kitab guşəsi qurulub. Nəsimi obrazı canlandırılaraq qiraət ustalarının ifasında ədibin "Mərhəba" və "Olmuşam" qəzəlləri səsləndirilib. Böyük şairin kitablarından ibarət sərgi nümayiş olunub.

Ey əzəli can ilə cananımız!
Eşqi-rüxündür əbədi şanımız.

Kəbə üzündə bizə, ey Fəzli-həq,
Zülfü rüxün qibləvü imanımız.

Vəchinə yazdı otuz iki hüruf,
Hikmət ilə münşiyi-ərkanımız.

Surəti çün əhsəni-təqvim imiş,
Səndə zühur eylədi sübhanımız.

"Səvvərəkəllahü əla şəklihi"
Üştə nəbinin sözü bürhanımız.

Möminə həq dünyanı zindan dedi,
Möminə çox qalmaya zindanımız.

Uymadı arif sözünə vaizin,
Divə müti olmadı insanımız.

Əvvəlü axırda üzündür, üzün,
Sün'i-xuda, qüdrəti-yəzdanımız.

Kim ki, sücud eyləmədi hüsnünə,
Divi-ləin olduvü şeytanımız.

Can necə tərk eyləsin, ey can, səni,
Çünki canın canısan, ey canımız!

Pərdə üzündən götür, ey surətin
Fəzli-ilahi ilə rəhmanımız.

Eynimə sənsiz tikan oldu cahan,
Qandasan, ey tazə gülüstanımız?

Ta biləsən kim, necədir, ey fəqih,
Adəmi-xaki ilə ehsanımız.

Hüdhüdü Bilqeysə rəsul eylədi,
Naməni göndərdi Süleymanımız.

Cövr ilə yandırdı Nəsimiyi dust,
Həm bu idi dust ilə peymanımız.

***

Şaha, səndən hər nə gəlsə cana xoşdur, yaxşıdır,
Cavidani-eşq üçün canana xoşdur, yaxşıdır.

Hər nə cövr etsən mana səndən könül xoşnud olar,
Həq bilir kim, inciməz fərmana xoşdur, yaxşıdır.

Soydular çıxardılar, başdan ayağa pustumu,
Aşiqəm, ah eyləmən qurbana xoşdur, yaxşıdır.

Həm soyan, həm soyduran zahid mənəm, səndən deyil,
Cümlədə ayinəyəm pünhana xoşdur, yaxşıdır.

Mənsur oldum çün bu gün aləmdə faş oldum sizə,
Mən ənəlhəq söylərəm ürfana xoşdur, yaxşıdır.

Şah yolunda eşq ilən baş verməyən mərdud olur,
Lacərəm, meydan əri mərdana xoşdur, yaxşıdır.

Tənə qılma ey fəqih, zira Nəsimi fəzlinə,
Netəkim, aşiqlərə nişana xoşdur, yaxşıdır.

Cahana sığmayan dahi

Böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi və "Nəsimi ili" ilə bağlı Masallı Regional Mədəniyyət İdarəsi tərəfindən təsdiq olunan plana uyğun olaraq müvafiq rayonlar üzrə tabe müəssisələrdə müxtəlif tədbirlər keçirilib.

Masallı rayon Mərkəzi Kitabxanasında Nəsiminin yubileyi ilə əlaqədar sərgi, "Nəsimi dünya poeziyasının kamil nümayəndəsidir" başlıqlı konfrans, "Dahi Azərbaycan şairi və mütəfəkkiri" başlıqları altında tədbirlər təşkil olunub. 20 saylı Öncəqala kənd kitabxanası və Xalq teatrının hazırladığı kompozisiya, dəyirmi masa, bədii qiraət və rəsm müsabiqələri keçirilib.

Rayon Tarix-Diyarşünaslıq Muzeyində Nəsiminin 650 illik yubileyi və 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan edilməsi ilə bağlı böyük şairin xatirə guşəsi yaradılıb. Guşədə Nəsiminin kitabları, şairin Hələb şəhərindəki məzarının təsvirlərinin fotosurətləri və s. yer alır. Muzeydə Ərkivan qəsəbə Əlvan Bağırov adına 4 saylı tam orta məktəbin müəllim və yuxarı sinif şagirdlərinin iştirakı ilə "Nəsimi yaradıcılığında ana dili" mövzusunda tədbir təşkil olunub. Muzeyin direktoru Əntiqə Tağıyeva və məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Sevinc Mikayılova şairin həyat və yaradıcılığı, ədəbi dilimizin inkişafında rolu və s. haqqında söz açıblar. Şagirdlərin ifasında şairin qəzəllərindən ibarət kompozisiya maraqla qarşılanıb.

Ə.Məmmədov adına kənd orta məktəbinin təşkilatçılığı ilə "Əbədiyyət üfüqlərində doğmuş eşq günəşi – İmadəddin Nəsimi" adlı konfrans keçirilib. Məktəbin IV-V sinif şagirdlərinin Nəsimi mövzusunda çəkdikləri rəsmlərdən ibarət sərgiyə baxış olub.

Heydər Əliyev Mərkəzində fəaliyyət göstərən 32 saylı kitabxana filialında Nəsiminin 650 illiyi ilə əlaqədar keçirilən dəyirmi masada şəhər 2 saylı orta məktəbin şagirdlərinin ifasında Nəsiminin qəzəllərinin səsləndirilməsi tədbirə xüsusi rəng qatıb.

Masallı rayon Mədəniyyət Mərkəzində və filiallarında şairin yubileyi ilə əlaqədar Tarix-diyarşünaslıq muzeyində daha bir tədbir Eminli kənd Həbib Sadıqov adına tam orta məktəbin müəllim və 11-ci sinif şagirdlərinin iştirakı ilə gerçəkləşib. "Nəsimi yaradıcılığında ana dili" mövzusunda dərsdə Nəsiminin yaşadığı tarixi dövr və ədəbi-bədii mühit, həyat və yaradıcılığının müxtəlif aspektləri, o cümlədən şairin ana dilli yaradıcılığı və s. haqqında şagirdlərə ətraflı məlumat verilib, mövzu ətrafında şagirdləri maraqlandıran suallar cavablandırılıb.

Muzey və Masallı rayon Uşaq-Gənclər İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə "Muzeylər və Nəsimi irsi" mövzusunda tədbir keçirilib. Çıxışlarda mütəfəkkir şairin həyat və yaradıcılığı, şeirlərinin bədii-fəlsəfi məzmunu barədə söz açılıb. Uşaq-gənclər inkişaf mərkəzində fəaliyyət göstərən dərnəklərin üzvləri ədəbi-bədii kompozisiya nümayiş etdiriblər.

Qızılavar kənd Əfqan Mirzəyev adına tam orta məktəbinin 7-ci sinif, Qodman kənd Cəlal Kazımov adına tam orta məktəbinin 6-cı sinif şagirdlərinin iştirakı ilə də Tarix-diyarşünaslıq muzeyində "Nəsimi yaradıcılığında ana dili" mövzusunda tədbirlər təşkil olunub.

***

Regional idarənin əhatə etdiyi Yardımlı rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində "2019-cu il "Nəsimi ili"dir", "Cahana sığmayan Azərbaycan şairi", "İmadəddin Nəsimi 650" başlığı altında tədbirlər keçirilib. Şairin həyat və yaradıcılığı barədə çıxışlar dinlənilib. Sonda tədbir iştirakçıları mövzu üzrə kitab sərgisinə baxıblar.

Rayondakı Uşaq musiqi məktəbində Nəsiminin 650 illik yubileyi ilə əlaqədar təşkil olunan tədbirdə təhsil ocağının direktoru Zeyni Əkbərov şairin yaradıcılığı, onun Azərbaycan xalqının bədii-fəlsəfi fikir tarixində dərin iz qoyması, ana dilində poeziyamızın inkişafında müstəsna rolundan bəhs edib. Məktəbin müəllimi Zakir Fazilov Nəsiminin qəzəlləri üstə muğamlarımızdan parçalar ifa edib.

Yardımlı rayonunun Ostayır kənd orta məktəbi və kənd kitabxana filialının birgə təşkilatçılığı ilə "İmadəddin Nəsimi 650" mövzusunda tədbir keçirilib. Təhsil ocağının müəllimləri və kitabxana filialının müdiri Elza Qurbanova Nəsimi yaradıcılığı barədə şagirdlərə ətraflı məlumat veriblər. Qeyd olunub ki, mütəfəkkir şair Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndəsi olsa da, novatorluğu ilə seçilib, ədəbiyyatımızı dil-üslub və janr baxımından zənginləşdirib. Çıxışlardan sonra tədbir iştirakçıları sərgiyə baxıblar.

MKS-nin 42 saylı Urakəran kənd kitabxanasında və rayon Mədəniyyət Mərkəzinin kənddəki 3 saylı Folklor klubunda da Nəsiminin 650 illiyi ilə əlaqədar tədbir keçirilib.

Tədbir iştirakçıları Nəsiminin əsərlərindən ibarət sərgi ilə tanış olublar.

***

Cəlilabad rayon MKS-də "Həqq mənəm" mövzusunda təşkil olunan tədbirdə rayon İcra Hakimiyyətinin məsul işçisi Varid Əsgərov, Azərbaycan Dövlət Pedaqoji Universiteti Cəlilabad filialının müəllimi Tofiq İsgəndərov, Gənclər və idman idarəsinin rəisi Elçin Hüseynov, rayon Mədəniyyət mərkəzinin direktoru Ramil İbrahimov və digər qonaqlar, tələbə və şagirdlər iştirak ediblər.

Əvvəlcə Nəsiminin həyat və yaradıcılığına həsr olunan slayd nümayiş etdirilib, şairin şeirləri səsləndirilib. Məktəblilərin ifasında "Nəsimi" bədii filmindən səhnəcik təqdim olunub. Daha sonra böyük şairin həyat və yaradıcılığı haqqında çıxışlar dinlənib.

Cəlilabad rayon Heydər Əliyev Mərkəzində Nəsiminin 650 illik yubileyi münasibətilə dəyirmi masa keçirilib. Şairin zəngin irsi barədə çıxışlar dinlənildikdən sonra tədbir iştirakçıları mərkəzin film otağında "Nəsimi" bədii filmini izləyiblər.

Rayon Uşaq incəsənət məktəbində "İmadəddin Nəsimi" başlığı altında keçirilən tədbirdə görkəmli söz ustadının Azərbaycan poeziyasına verdiyi böyük töhfələrdən danışılıb, qəzəlləri səsləndirilib.

***

Mədəniyyət Nazirliyinin təşkilatçılığı və regional idarələrin iştirakı ilə keçirilən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının Masallıda gerçəkləşən tədbirində "Nəsimi ili" ilə əlaqədar şairin əsərləri və haqqında yazılan kitablardan ibarət sərgi nümayiş olunub.

Masallı "ASAN Xidmət" Mərkəzinin qarşısında qurulan regional mədəniyyət idarələrinin sərgi-çadırları maraqla qarşılanıb. Çadır-ekspozisiyalardakı xalq sənətkarlığı növləri, o cümlədən misgərlik, dulusçuluq, həsirçilik, ağac üzərində bədii oyma, bədii tikmə, toxuculuq nümunələri, suvenirlər, rəsm əsərləri, kəlağayı və xalçalar ölkəmizin bölgələrinin mədəni irs zənginliyini nümayiş etdirib.

Festivalın bədii hissəsində hər bir regional idarə üzrə folklor qrupları, yerli incəsənət və bədii özfəaliyyət kollektivləri konsert proqramı ilə çıxış ediblər. Təqdim olunan rəngarəng musiqi nömrələri, o cümlədən Masallının "Halay" folklor kollektivinin rəqs nümunələri tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Qonaqlara cənub kulinariyasının ləziz təamları da təqdim olunub.

Mən ki dərvişəm, fəqirəm, padişahi-aləməm,
Ruhi-birəngəm, əgərçi rəngə girdim, adəməm.

Şeş cəhətdən çar ənasirdir məni faş eyləyən,
Yoxsa mən gəncineyi-vəhdətdə nuri-əbhəməm.

Aləmül-qeybin süfatı məndən oldu aşikar,
Ey bəsirətsiz, məni gör kim, nə zati-əzəməm.

Söyləyən həqdir mənim dilimdə hərdəm, yoxsa mən,
Çar ənasirdən mürəkkəb bilisanü əbkəməm.

Ümmühat ilən nə var abaya olmasa xələl,
Aləmi təhqiqə baxsan cümləsindən əqdəməm.

Cənnəti-firdövs üçün bir ləhzə qəmgin olmazam,
Talibi-didari-yaram, şadimanam, xürrəməm.

Ey Nəsimi, çünki iş təqdir əlindən işlənir,
Fariğəm dünyadavü üqbada qəmdən, biqəməm.

***

Ey qəflətin meyindən məstü xərabü heyran,
Gər həqqi tanımışsan, qanı dəlilü bürhan?

Nəfsi-xəbisə uymaq nadanların işidir,
İşin nədir gör axır, fikr eylə, olma nadan?

Çün hər nə kim, əkərsən, anı biçərsən axır,
Dünyada əkmə anı kim, adı oldu üsyan.

Tərk eylə səyyiatı, saləh əməl qazan kim,
Kanın cəzası həqdən həm lütf imiş, həm ehsan.

Əyyamını həyatın badi-həvaya vermə
Kim, itirən həyatı üqbadadır peşiman.

Müflis ticarət eylər sərmayəsiz və leykin,
Səyi əbəsdir anın, sevdası cümlə xüsran.

Naqis vücuda çün kim, nöqsan gəlir həmişə,
Cəhd eylə kamil ol kim, gəlməz kamala nöqsan.

Dünyayi-dun qəmindən sayru olub sararma,
Aləmdə kimsə çün kim, bulmaz bu dərdə dərman.

Hirsü həsəd sifatın tərk eylə, ayrıl andan,
Neçin kim, ol sifətdən nacidir ayrılan can.

Çün əscədu buyurdu adəm qatında həq, gəl
Həqqin xitabına uy, qıl səcdə, olma şeytan!

Divin libasını qo, Xızr ilə yoldaş ol kim,
Zülmətdə zahir olmaz heyvana abi-heyvan.

Həqqin rizasın istə, qüfranə qabil ol kim,
Şol uca qədrü bəxtin kəsbi degildir asan.

Olmazsa mülkü malın, andan nə qəm, nə qüssə,
Övladi-təyyibinsən, həm adəmü həm insan.

Əbd olma, ey Nəsimi, fani cahana çün kim,
İmanü din içində sənsən əmirü sultan.

Cahana sığmayan dahi

Ölkəmizin digər bölgələrində olduğu kimi, Sabirabad Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi şəhər və rayonlarda da "Nəsimi ili" və böyük şairin anadan olmasının 650 illiyi ilə əlaqədar mədəniyyət müəssisələrində silsilə tədbirlər keçirilir.

Sabirabad rayon Mədəniyyət Mərkəzində təşkil olunan sərgidə rəsm dərnəyi şagirdlərinin İmadəddin Nəsimi obrazını təsvir edən əl işləri, şairin müxtəlif illərdə çap olunmuş qəzəlləri, 1973-cü ildə nəşr olunmuş farsca divanı, türkcə divanının əlyazma nüsxəsi, şairin Suriyanın Hələb şəhərindəki qəbrinin fotosu və s. nümayiş olunub. Kənd mədəniyyət müəssisələrində keçirilən tədbirlərdə görkəmli şairin Azərbaycan ədəbiyyatında yeri, eləcə də ulu öndər Heydər Əliyevin böyük söz sənətkarının şəxsiyyətinə və yaradıcılığına göstərdiyi diqqət və qayğıdan danışıblar. Mərkəzin nəzdində fəaliyyət göstərən bədii qiraət dərnəyi üzvlərinin ifasında şairin qəzəlləri səsləndirilib.

Mərkəzi kitabxanada və kitabxana filiallarında "Nəsimi ili" çərçivəsində sərgilər, məlumat saatları təşkil olunub. Eyni zamanda tədris ocaqlarında, idarə və müəssisələrdə Nəsimi irsinin təbliği məqsədilə məlumatlandırıcı söhbətlər aparılıb.

Mərkəzi kitabxananın təşkilatçılığı ilə rayonun ümumtəhsil məktəblərində Nəsiminin 650 illiyi ilə əlaqədar şeir qiraəti müsabiqəsi keçirilib.

Heydər Əliyev Mərkəzində də böyük şairin yubileyi qeyd olunub. Sabirabad Dövlət İqtisad Kolleci, M.Ə.Sabir adına 1 saylı şəhər kitabxanası ilə birgə təşkil olunan tədbirdə qonaqlar mərkəzin foyesində mütəfəkkir şairə həsr olunmuş foto və kitablardan ibarət sərgi ilə tanış olublar. Mərkəzin direktoru Rəna Hacızadə çıxış edərək ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyinin UNESCO səviyyəsində qeyd olunduğunu diqqətə çatdırıb. Kollecin müəllimi Səidə Hüseynova İ.Nəsiminin həyat və yaradıcılığı haqqında məlumat verdikdən sonra tələbələr bədii kompozisiya ilə çıxış ediblər. Sonda mərkəzin 3D kinozalında "Nəsimi" filmi nümayiş olunub.

Sabirabad Rayon Tarix-Diyarşünaslıq Muzeyi S.Vurğun adına 3 saylı tam orta məktəbdə "Nəsimi 650" mövzusunda poeziya saatı keçirib. Ü.Hacıbəyli adına Uşaq musiqi məktəbi isə M.Müşfiq adına tam orta məktəbdə Nəsiminin 650 illik yubileyi münasibətilə konsert təşkil edib.

***

Şirvan Şəhər Tarix-Diyarşünaslıq Muzeyi M.İsrailov adına 18 nömrəli məktəb-liseydə "Nəsimi dünyası" mövzusunda ədəbiyyat dərsi təşkil edib. Şairin həyat və yaradıcılığı haqqında söhbət açılıb, şagirdlər Nəsiminin qəzəllərini səsləndirib, "Nəsimi" filmindən fraqmentlər izləyiblər.

Şirvan şəhər Mədəniyyət Mərkəzi "Dədə Qorqud" və "Aran" klubları ilə birlikdə Gənclər evində "Hüsnü camal, əqli kamal" adlı dəyirmi masa təşkil edib. Tədbirdə Nəsimi yaradıcılığının poetik zənginliklərindən danışılıb, şairin əsərlərinin Yaxın Şərq və Orta Asiyada geniş yayıldığı diqqətə çatdırılıb.

Heydər Əliyev Mərkəzində təşkil olunan "Zərrə mənəm, günəş mənəm" adlı tədbirdə Nəsiminin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verilib. Mərkəzin əməkdaşları və 21 saylı orta məktəbin şagirdləri şairin qəzəllərini oxuyublar. Uşaq musiqi məktəbinin müəllim və şagirdlərinin şairin qəzəlləri üstə ifa etdikləri musiqilər maraqla qarşılanıb.

Şirvan şəhər MKS tərəfindən "Mütaliə həftəsi" çərçivəsində Nəsiminin yubileyi münasibətilə şəhər ümumtəhsil məktəblərində tədbirlər keçirilib. Şairin kitabları, eləcə də onun haqqında yazılmış ədəbiyyatlar, qəzet və jurnallardan ibarət sərgilər təşkil olunub.

Şirvan Dövlət Rəsm Qalereyası tərəfindən "Nəsimi ili"nə töhfə olaraq şəhərdə fəaliyyət göstərən həvəskar dekorativ-tətbiqi sənət ustalarının əl işlərindən ibarət sərgi təşkil edilib. Sərgidə 6 tətbiqi sənət ustasının 40-dan çox əl işi yer alıb. Müxtəlif nəbati və həndəsi ornamentlərlə işlənmiş dekorativ bəzək əşyaları maraqla qarşılanıb.

Şirvan şəhər Uşaq musiqi məktəbində "Nəsimi dünyası" adlı ədəbi-bədii kompozisiya təşkil olunub. Şagirdlər şairin əsərlərini qiraət ediblər. "Nəsimi" filmi əsasında hazırlanan səhnəciklər alqışlarla qarşılanıb. Xanəndəlik sinfinin müəllimi İrşad İbişov Nəsimi qəzəlləri üstündə muğam parçaları ifa edib.

***

Saatlı rayon Heydər Əliyev Mərkəzində "Nəsimi ili" çərçivəsində dəyirmi masa təşkil olunub. Rayondakı Peşə liseyinin müəllim və

şagirdlərinin də iştirak etdiyi tədbirdə filologiya üzrə elmlər doktoru Şöhrət Bədəlov çıxış edərək böyük söz ustadı haqqında geniş məlumat verib, şairin yaradıcılığının özünəməxsus xüsusiyyətlərindən söz açıb.

Saatlı Dövlət Rəsm Qalereyasında rayon Peşə liseyinin müəllim və tələbə kollektivinin iştirakı ilə keçirilən dəyirmi masada Nəsiminin Azərbaycan ədəbiyyatına töhfələrindən söz açılıb.

Rayon MKS-nin təşkilatçılığı ilə Nəsiminin 650 illik yubileyilə əlaqədar məktəblilər arasında bədii qiraət müsabiqəsi keçirilib. Heydər Əliyev Mərkəzi və Mərkəzi kitabxananın birgə təşkil etdiyi ədəbi-bədii gecədə təhsil, mədəniyyət işçiləri, ziyalılar və məktəblilər iştirak edib. İştirakçılar Mərkəzi kitabxana əməkdaşlarının hazırladığı sərgi ilə də tanış olublar.

***

"Nəsimi ili" ilə əlaqədar Hacıqabul rayon Heydər Əliyev Mərkəzində, Mərkəzi kitabxana və filiallarında, Mədəniyyət mərkəzi, kənd mədəniyyət evləri və klublarda, Tarix-diyarşünaslıq muzeyində, Uşaq musiqi məktəbində mütəfəkkir şairin 650 illiyinə həsr olunmuş silsilə tədbirlər keçirilib.

Hacıqabul rayon MKS-nin 1 saylı şəhər kitabxana filialı V.Quliyev adına 6 saylı tam orta məktəblə birgə, Mərkəzi kitabxananın Uşaq şöbəsi və şəhər 9 saylı kitabxana filialı ilə birgə dəyirmi masa və sərgilər təşkil ediblər. 24 saylı şəhər kitabxana filialı tərəfindən "Nəsimi poeziyası – kamillik zirvəsi", Heydər Əliyev Mərkəzində "Əbədiyyət üfüqlərində doğmuş eşq günəşi" adlı aylıq bülleten, "Nəsimi 650" adlı foto guşəsi hazırlanıb, "Nəsimi" bədii filminin nümayişi təşkil edilib.

***

"Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının Saatlıda gerçəkləşən tədbirində Sabirabad rayon Mərkəzi Kitabxanası tərəfindən İ.Nəsiminin həyat və yaradıcılığını əks etdirən foto və kitablardan ibarət sərgi təqdim olunub. Festivala rəng qatan anlardan biri də Sabirabad Regional Mədəniyyət İdarəsinin tabeliyində olan Saatlı rayonunun "Muğan" instrumental ansamblının çıxışı, rayonun Nəsimikənd kənd Folklor evinin "Adıgün" türk xalq folklor kollektivinin təqdim etdiyi rəqs nümunələri olub. Sabirabad rayon Mədəniyyət Mərkəzinin Həşimxanlı kənd Mədəniyyət evinin "Cəngavər" pəhləvanlar qrupunun çıxışı böyük maraq doğurub. Regional mədəniyyət idarələrinin özfəaliyyət kollektivləri, folklor və rəqs qruplarının çıxışları, müğənnilər tərəfindən ifa olunan bəstəkar və xalq mahnıları izləyicilərə xoş əhval bəxş edib.

Şol şəmi gör ki, nuruna pərvanəyəm yenə,
Baş oynamaqda yoluna mərdanəyəm yenə.

Saqi, ləbindən əsrəmiş əvvəl qədəhdən uş,
Məstanə gözlərin kimi məstanəyəm yenə.

Qalu bəlada kuyi-xərabat idi yerim,
Şol mənidən mücaviri-meyxanəyəm yenə.

Bəzmi-əzəldə həmnəfəsim gərçi cam idi,
Şükr eylərəm ki, həmdəmi-peymanəyəm yenə.

Ey bilməyən bu cani-əzizin həqiqətin,
Canı bilənə sor ki, nə cananəyəm yenə.

Eşqində ay camalilə əfsanə, filməsəl,
Xəlqin dilində gör ki, nə əfsanəyəm yenə.

Əndişənin imarətini qılmışam xərab,
Şol gənci-binəhayətə viranəyəm yenə.

Yarəb, nə sehr edər şu pərişəklü şivə kim,
Zəncir-cədi-zülfünə divanəyəm yenə.

Ey gövhərin bahasını, miqdarını bilən,
Əsdaf içində gör ki, nə dürdanəyəm yenə.

Üzündə, ey sənəm, görəli zülfü xalını,
Dami-bəlada danə kimi danəyəm yenə.

Kəşf eylədi Nəsimi dəhanın rümuzunu,
Müftahi-qeybə gör ki, nə dəndanəyəm yenə.

***

Əgərçi candasan, candan nihansan,
Degilsən candan ayrı, bəlkə cansan.

Kişi verməz nişan səndən əgərçi,
Yerü gög dopdolu külli nişansan.

Necə gizlədəyim məndən səni kim,
Nəyə kim baxıram, andan əyansan.

Xəcil eylər rüxün hüsn ilə ayı,
Məgər sən fitneyi-axırzamansan?

Ərəb nitqi dutulmuşdur dilindən,
Səni kimdir deyən kim, türkmansan?

Canı tərh eylədim, bezdim cahandan,
Səni bildim ki, can ilə cahansan.

Görən sənsən, görünən sən gözümdə,
Nə var söyləmisən, külli lisansan.

Həqiqət, vəhyi-mütləqdir bu sözlər,
Bu sözü bil kim, andan tərcümansan.

Ətəgin silk, əlin çək kün-fəkandan,
Nə axır zübdeyi-kövnü məkansan.

Nəsimi, çün bu gün dövran sənindir,
Cahanda xosrovi-sahibzamansan.

Cahana sığmayan dahi

Görkəmli şair, mütəfəkkir İmadəddin Nəsiminin yaradıcılığı klassik Azərbaycan ədəbiyyatında xüsusi mərhələ təşkil edir.

Qüdrətli söz ustadı Azərbaycan dilində divan yaratmaq ənənəsinin yenicə başladığı bir dövrdə poeziyamıza lirik-fəlsəfi çalarlar bəxş edərək ədəbi mühitdə novator şair kimi məşhurlaşıb. Nəsimi dünya poeziyasının kamil nümunələri sırasında diqqətəlayiq yer tutan əsərlərində insanın əzəmətini, insani məhəbbəti və şəxsiyyətin azadlığını tərənnüm edib.

Altı əsr yaşı olan Nəsimi şeriyyəti bu gün də ideyasənətkarlıq xüsusiyyətləri ilə öz aktuallığını qoruyur, bəşəri idealların daşıyıcısı olaraq qəbul edilir. Şairin dərin fəlsəfi görüşləri və yüksək poetik dillə ifadə edildiyindən geniş çevrələrdə tanınıb. Onun ədəbi təsiri doğma vətəni ilə məhdudlaşmır. Nəsimi şeirinin səs-sorağı Yaxın Şərq, Anadolu və Orta Asiyada eşidilib.

Ölkəmizdə Nəsimi irsinə xüsusi maraq var. Əsərləri dəfələrlə çap olunub və tədqiqat obyektinə çevrilib. Son illər şairin yaradıcılığı öyrənilməsi təbliği istiqamətində mühüm layihələr həyata keçirilib.

Dövlət başçısının sərəncamı ilə Nəsiminin 650 illiyi yüksək səviyyədə qeyd olunur. "Nəsimi ili" çərçivəsində ölkəmizdə və xaricdə müxtəlif səpkili tədbirlər keçirilir. Şəmkir Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi Şəmkir, Gədəbəy, Daşkəsən və Göygöl rayon mədəniyyət müəssisələrində də Nəsiminin 650 illiyi münasibətilə tədbirlər keçirilib. Mədəniyyət mərkəzi və filiallarda şairin həyat və yaradıcılığının əks olunduğu bədii kompozisiyalar göstərilib, kitabxanalarda sərgilər təşkil edilib. Dəyirmi masalarda Nəsimi yaradıcılığından söz açılıb, şairin Azərbaycan ədəbi dilinin inkişafına verdiyi töhfələrdən danışılıb.

Şəmkir Gənclərin İnkişaf və Karyera Mərkəzi "Nəsimi ili"nə həsr olunmuş regional intellektual yarış keçirib. Yarışda Şəmkir, Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Göygöl, Samux və Daşkəsən rayonlarının komandaları iştirak ediblər. Müsabiqədə Qazax rayon komandası qalib gəlib.

***

Daşkəsən rayon Heydər Əliyev Mərkəzində Nəsiminin 650 illik yubileyi ilə əlaqədar sərgi təşkil olunub. Sərgidə Nəsiminin həyat və yaradıcılığının əks olunduğu nəşrlər nümayiş etdirilib.

"Muzeylər və Nəsimi irsi" layihəsi üzrə təşkil edilən muzey həftəsində Uşaq-gənclər inkişaf mərkəzinin şagirdləri Heydər Əliyev Mərkəzində ekskursiyada olublar. Şagirdlər "Nəsimi 650" adlı sərgiyə də baxıblar. Bildirilib ki, məktəblilərin tarixi-mədəni yaddaşın saxlanc yeri olan muzeyləri ziyarət etməsi onların yaddaşında silinməz izlər buraxır, doğma xalqın dəyərləri haqqında bilgi qazanırlar.

Rayonun Alunitdağ qəsəbə məktəbinin şagirdləri də Muzeylər və Nəsimi irsi" proqramı çərçivəsində Heydər Əliyev Mərkəzini ziyarət ediblər.

Daşkəsən rayon Mədəniyyət Mərkəzində böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi ilə bağlı sərgi və tədbir keçirilib. Tədbirdə dahi mütəfəkkirin həyat və yaradıcılığı barədə geniş məruzə edildi, "Nəsimi" filmindən parçalar nümayiş olunub. Məktəblilər dahi şairin qəzəllərini söyləyiblər.

Daşkəsən rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində (MKS) "Nəsimi sözünün sirri" başlığı altında şeir saatı və dahi şairin kitablarından ibarət sərgi təşkil olunub. Kitabxananın fəal oxucuları şairin qəzəlləri söyləyiblər.

Daşkəsən şəhər İ.Nəsimi adına 1 saylı tam orta məktəbdə "Nəsimi ili"nə həsr olunmuş regional məktəb çempionatı keçirilib. Rayon ümumtəhsil məktəblərinin 8-10-cu sinif şagirdləri arasında gerçəkləşən müsabiqədə 13 komanda zona turuna vəsiqə qazanmaq uğrunda mübarizə aparıb.

Yarışda İ.Nəsimi adına 1 saylı tam orta məktəbin komandası I, A.Mürsəlov adına 2 saylı tam orta məktəbin komandası II, Quşçu kənd Ə.İsmayılov adına kənd tam orta məktəbin təmsilçiləri isə III yerə layiq görülüb.

Daşkəsən şəhərində açıq havada Nəsiminin kitablarından ibarət sərgi təşkil edilib. Sərgi ziyarətçilərinə nəşrlər haqqında məlumat verilib.

***

Göygöl rayon Hacıməlik şəhərtipli qəsəbə 2 nömrəli tam orta məktəbində Nəsiminin 650 illik yubileyi ilə əlaqədar tədbir keçirilib. Tədbir şagirdlərdə mütaliə vərdişlərinin inkişaf etdirilməsi, Nəsimi yaradıcılığı haqqında məktəblilərə məlumat verilməsi məqsədilə təşkil olunub. Çıxış edənlər bildiriblər ki, Nəsimi Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarındandır. Kamil insan Nəsiminin nəzərində ali mərtəbədə qərarlaşıb. Çünki kamil insan bütün mənfiliklərə qapı bağlayan insandır və o, cəmiyyətin inkişafına, münasibətlərin normal ahənginə xələl gətirməz.

***

Mədəniyyət Nazirliyinin təşəbbüsü və regional idarələrin iştirakı ilə gerçəkləşən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalı çərçivəsində Şəmkir şəhərində keçirilmiş tədbirdə "Nəsimi ili" elan edilməsi ilə əlaqədar şairin əsərlərindən və haqqında yazılmış kitab və monoqrafiyalardan, müxtəlif nəşr nümunələrindən ibarət guşə təqdim olunub. Ziyarətçilərə Nəsiminin söz dünyası haqqında məlumat verilib. Kitab guşəsində bu il yubileyləri qeyd olunan Cəfər Cabbarlı, İsmayıl Şıxlı, Cəlil Məmmədquluzadə ədiblərin əsərlərinə də yer verilib.

Tədbir iştirakçıları regional mədəniyyət idarələrinin sərgi-guşələrində nümayiş etdirilən əl işləri, dekorativ-tətbiqi sənət, rəsm əsərləri və digər sənətkarlıq nümunələrinə baxıblar.

Festivalın konsert hissəsində vətənpərvərlik ruhunda ifalar səsləndirilib. Uşaq incəsənət və musiqi məktəbləri şagirdlərinin və Əhməd Cavad adına Mədəniyyət mərkəzinin rəqs qrupunun çıxışları tədbiri daha da rəngarəng edib. Konsertdə hər bir regional idarə üzrə folklor qrupları, yerli incəsənət və bədii özfəaliyyət kollektivləri çıxış ediblər. Təqdim olunan musiqi nömrələri, rəqslər tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Sonda şagirdlər müxtəlif səhnəciklər nümayiş etdirib, şairin poeziyasından örnəklər səsləndiriblər. Göygöl rayon MKS-nin Haçaqaya kənd kitabxana filialında mütəfəkkir şairin 650 illiyinə həsr olunmuş tədbir keçirilib. Tədbir iştirakçıları "Nəsimi 650" adlı kitab sərgisinə baxıblar.

Nadil kənd kitabxana filialı kənd orta məktəbi ilə birlikdə "Nəsimi 650" başlığı altında tədbir keçirib. Filialın müdiri G.Həsənova Nəsimi yaradıcılığı haqqında məlumat verdikdən sonra məktəblilərin hazırladıqları ədəbi-bədii kompozisiya təqdim edilib. Sonda tədbir iştirakçıları kitab sərgisinə baxıblar.

Rayonun Balçılı kənd 1 nömrəli tam orta məktəbində də Nəsiminin yubileyi ilə əlaqədar tədbir keçirilib.

Tuyuqlar

Gəl ki, müştaq olmuşam didarına,
Vermişəm can zülfi-ənbərbarına,
Məhrəm etdin çün məni əsrarına,
Ey pəri, gəl çək məni bir darına.

***

Ey saçın vəlleyl, üzün vəzzüha,
Surətin şə`nində gəldi qül kəfa.
Ey saçından çün əyan oldu mana,
Sirri-ərrəhman ələl-ərş-istiva.

***

Ey üzündən zahir əsmayi-xuda,
Şöylə ki, Quranda dedi külləha.
Adəmi bil, andadır əsrarha,
Can ilə başın yolunda qıl fəda.

***

Eşq ilə gəldi cəmiyi-ənbiya,
Eşqdir seyrü süluki-övliya.
Eşq ilə yola girərlər biriya,
Eşq ilə vasil olurlar Tanrıya.

***

Ey üzün min-indəhü elmül-kitab,
Qül kəfa gəldi camalından xitab.
Surətin həqdir, götür həqdən niqab,
Həq budur, vəllahu-ə`ləm-bissəvab.

***

Ey camalından münəvvər afitab,
Düşdü hüsnün pərtövündən aya tab.
Kirpiyin, zülfün, qaşın ümmül-kitab,
Oldu üzündən əyan yövmül-hesab.

***

Ey saçın dövründə məstur afitab,
Vey üzün aləmdə məşhur afitab,
Utanır hüsnündən, ey hur, afitab,
Səndən oldu məstü məxmur afitab.

***

Ey qəmər üzlü, götür həqdən niqab
Kim, üzündə rövşən oldu afitab.
Arada munca nədəndir bu hicab?
Şərh edər min indəhü ümmül-kitab.

***

Ey məlik, mülkündə vəchin afitab,
Ey boyu sidrə, rüxün ümmül-kitab.
Düşdü cana ateşi-hicrində tab,
Şövqi-eşqin bağrımı qıldı kabab.

***

Ey özündən bixəbər, qafil qərib,
Bilməmişsən sirri-əsrari-əcib.
Olmasın bu sirrə məhrəm hər rəqib,
Həmçinin pünhan gərək razi-həbib.

***

Canımın cananəsi sənsən, həbib,
Xubların fərzanəsi sənsən, həbib,
Küntə-kənzin xanəsi sənsən, həbib,
Vəhdətin dürdanəsi sənsən, həbib.

Dünyanı sözlə bəzəyən həqiqət aşiqi

Adı dünyanın ölməz söz sənətkarları sırasında şərəfli yer tutan, ana dilli poeziyamızın inkişafında müstəsna rol oynayan mütəfəkkir şair İmadəddin Nəsimi (1369-1417) əbədi yaşayacaq bədii irs yaratmışdır. Onun geniş təfəkkür sahibi olmasında dünyaya göz açdığı Şamaxı-Şirvan mühiti mühüm rol oynamışdır.

Nəsimi doğulduğu Şamaxıda mədrəsə təhsili almış, ərəb və fars dillərini, eləcə də riyaziyyat, astronomiya, təbiət, fəlsəfə, məntiq elmlərini öyrənmişdir. O, həmçinin türk-müsəlman aləminin tanınmış fikir adamlarının irsini mütaliə etmiş, öz dünyagörüşünü zənginləşdirmişdir.

Görkəmli şair əsərlərini məşhur sufi Hüseyn Həllac Mənsurun şərəfinə "Hüseyni", "Seyid Hüseyni" və öz müəllimi Şeyx Fəzlullah Nəimiyə ehtiram əlaməti olaraq "Nəsimi" təxəllüsü ilə yazmışdır. XIV əsrin sonlarından Azərbaycanda geniş yayılan hürufi təriqətinə qoşulan Nəsimi bu hərəkatın nəinki Azərbaycanda, həmçinin Misir, İraq, İran, Suriya və Anadoluda ən tanınmış simalarından birinə çevrilmişdir.

Şeirlərinin təməl anlamını İslam təsəvvüfünün vəhdəti-vücud ideyası və ilahi eşq təşkil edən Nəsimi Azərbaycan, fars və ərəb dillərində mükəmməl bədii nümunələr qələmə almışdır. Onun yaradıcılığı nəinki türk xalqları ədəbiyyatına, eyni zamanda bütövlükdə klassik Şərq poeziyasına ciddi təsir göstərmişdir. Şeirlərində istifadə etdiyi dərin təsəvvüf düşüncəsi sonralar bir çox böyük mütəfəkkirin yaradıcılığında təzahür etmişdir.

İnsan ruhu və idrakı ilə böyükdür

Böyük şair insana olduqca yüksək dəyər verir, onu ən ali varlıq hesab edir, ülviləşdirir. Nəsimi insan sifətinin Allah qələmi ilə çəkilən gözəlliyini tərifləyir və "ənəlhəqq" deyən fədakar sufilərin bu məşhur şüarını sözün həqiqi mənasında deyil, məcazi mənada qəbul edir:

Səcdəgah etmişdi eşq əhli
qaşın mehribanı,
Qılmadan xeyli mələyik
səcdeyi-Adəm hənuz.

Nəsimi poeziyasının leytmotivi insandır; zəkalı, kamil, gözəl insan; öz amalından dönməyən, mübariz, haqq, həqiqət yolunda canından keçməyə hazır olan mərd, doğru, sadiq, vəfalı insan! Nəsimi öz şəxsində insanın bəşəri keyfiyyətlərini açır, onu mənalandırır. Şairin fikrincə, insan bütöv bir aləmdir, insan kainatdır.

Mən mülki-cahan, cahan mənəm, mən,
Mən ərşi-məkan, məkan mənəm, mən...

Şairə görə, insan ruhu, idrakı ilə böyükdür, o kainata da sığmır. İnsana, şəxsiyyətə aid bütün bəşəri keyfiyyətlər şairin gözəllik aləminə daxildir, onun təsvir hədəfidir. Haqqın, həqiqətin tərənnümü Nəsiminin şəxsiyyəti ilə poeziyası arasında bir vəhdət, bağlılıq, həmahənglik yaradır. İnsanların çətin həyat şəraiti humanist şairi daim düşündürmüşdür. Sərvət yığmaq xəstəliyinə tutulan hökmdarlara üz tutaraq deyirdi:

Simü-zər yığmaq üçün cəhd eyləmə
Qarun kimi,
Hər xəzinə torpaq altında qalıbdır min kərə.

Sərvət ilə yüklənərsə kəştisi dövrün əgər
O tufanlı dəryada düşməz məgər
şuri-şərə?...

Nəsimi fitrətən haqq, həqiqət aşiqi idi. Buna görə hər şeydən əvvəl, həqiqət olan insanın sözü də həqiqət olmalıdır. Bu keyfiyyətlər Nəsiminin poetik amalı kimi səslənir:

Cümlə həqqdir, hər nə kim, mövcud imiş,
Həqqə sacid, həqqə hər məscud imiş...

Əsl böyük həqiqət isə insandır, insanın mövcudluğudur. Haqq, həqiqət özü də insanla bağlı keyfiyyətdir, insana məxsusdur, bəşəridir. Belə olan surətdə insan həqiqətin keşiyində durmalıdır:

Ey könül, həq səndədir, həq səndədir,
Söylə həqqi kim, ənəl-həq səndədir.

Və ya:

Bulmuşam həqi, ənəl-həq səndədir,
Həq mənəm, həq məndədir, həq söylərəm.

İmadəddin Nəsimi dərin, sarsılmaz inam və işıqlı ideal sahibi olmuşdur. Sözün böyük mənasında heyrət doğuran cəhət budur ki, şair öz həqiqətini yalnız poeziyasının qüdrəti hesabına deyil, şəxsi dönməzliyi, fədakarlığı ilə əfsanələrə çevrilmiş, mərdanə və amansız ölümü ilə təbliğ və təsdiq etmişdir.



Söz candır...

"Doğru söz doğrulara acı deyil", "Qövli yalançı ilə olma müsahib, çək əlin..." Altı yüz ildən bəri hökmünü itirməyən bu müdrik kəlamlar böyük Nəsiminin köhnəlmək, unudulmaq bilməyən həyat qənaətidir. Söz insanın mənəvi dayağı, zövqü-səfasıdır, ləyaqəti, şöhrəti, şanıdır. Əbəs yerə deyil ki, həqiqi, cazibəli, mənalı sözün qüdrəti Nizami Gəncəvi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai kimi görkəmli söz ustadlarımız tərəfindən də dönə-dönə etiraf olunmuş, yüksək dəyərləndirilmişdir.

Nəsiminin "Söz" rədifli qəzəli bu mənada klassik söz xəzinəmizdə əhəmiyyətli yer tutur. Şeirdə sözə, söz sənətinə yüksək qiymət verilir, çünki söz, nitq insanın ilk zəruri keyfiyyətidir:

Dinləgil bu sözü ki, candır söz,
Aliyi-asiman məkandır söz...

Nəsimiyə görə, söz dünyanın bəzəyidir, dünyada söz qədər füsunkar, söz qədər ali bir nemət yoxdur. Söz "tərcümandır", söz "könüldə candır", söz "payəkandır", söz "asimandır", söz "sahib zamandır"... Söz həqiqəti aşkar edir, insanlar arasında ünsiyyət yaradır, onları bir-birinə bağlayır, qovuşdurur. Buna görə də Nəsimi aqil insanın sözündən, söhbətindən zövq alırdı. Bir sözlə, insan nəfəsi onu qanadlandırırdı. Nəsimi deyirdi ki, insan olan kəs gərək ağıllı danışsın, sözü yığcam, fikri isə geniş olsun:

Aqilsən, sözünü müxtəsər et!
Ey Nəsimi, çü bikərandır söz.

Gələcəyə səslənən poeziya

Haqsızlığa, ehkamçılığa, nadanlığa, idraksızlığa, zülm və ədalətsizliyə üsyan edən Nəsimi Azərbaycan ədəbiyyatında ictimai-fəlsəfi poeziyanın ən parlaq nümayəndələrindən hesab olunur. O, ana dilimizin zənginliyindən ustalıqla istifadə etmiş, anlaşılır tərzdə, yüksək poetik vüsəti ilə səciyyələnən bədii nümunələr yaratmışdır. Altı əsr öncə qələmə aldığı əsərlər bu gün də oxunur, dillər əzbərinə çevrilir.

Nəsiminin bənzərsiz yaradıcılığı ilə bağlı sistemli araşdırmalar aparılmış, xarici ölkələrin arxiv və muzeylərində saxlanılan əlyazmaları əldə edilərək tədqiq olunmuşdur. Nəsimi yaradıcılığından ilk dəfə tədqiqatçı, ədəbiyyatşünas Salman Mümtaz bəhs etmişdir. Onun tərtib etdiyi "Seyid İmadəddin Nəsimi. Əsərləri" kitabı 1926-cı ildə işıq üzü görmüşdür. Sonrakı mərhələdə bir sıra ədəbiyyatşünas alimlər şairin yaradıcılığının öyrənilməsi istiqamətində mühüm addımlar atmış, əsərlərini lüğət və şərhlərlə çap etdirmişlər.

Görkəmli şairin yaradıcılığının tədqiqi və təbliği ötən əsrin 70-ci illərində ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə daha sistemli xarakter almış, bu sahədə araşdırmaların əhatəsi genişlənmişdir. 1973-cü ildə Nəsiminin 600 illik yubileyi UNESCO səviyyəsində qeyd edilmiş, böyük Azərbaycan şairinin yaradıcılığı dünya miqyasında təbliğ olunmuşdur. O zaman ölkəmizdə və keçmiş ittifaqın paytaxtı Moskvada keçirilən yubiley tədbirlərində dünyanın bir çox ölkəsindən elm adamları iştirak etmişdir.

Azərbaycanda Nəsiminin zəngin yaradıcılığına və əfsanələşən şəxsiyyətinə həmişə böyük maraq olmuş, adı əbədiləşdirilmişdir. AMEA-nın Dilçilik İnstitutuna, paytaxtımızda rayonlardan birinə, metro stansiyasına Nəsiminin adı verilmiş, heykəli ucaldılmışdır.

Nəsiminin ömür yolu və yaradıcılığını dolğun şəkildə əks etdirən bədii film çəkilmiş, musiqi və ədəbi əsərlər yazılmışdır. Xalq şairi Qabilin "Nəsimi" poeması bu baxımdan diqqətəlayiq əsərlərdəndir. Poemada şairin keşməkeşlərlə dolu həyatı, bəşəri idealları yüksək sənətkarlıqla ifadə olunmuşdur. Əsər 1976-cı ildə Azərbaycanın Dövlət mükafatına layiq görülmüşdür. Müəllif poemasında böyük şairin bədii dilini büllur bulaqla müqayisə edir:

O uzaq, o qədim lisana bir bax!
Büllur bulaq kimi süzülər, çağlar.
Əsər var yazılıb otuz il qabaq,
Otuz cür lüğətə ehtiyacı var...

Bayrağa çevrildin, qanlı bayrağa,
Axıb üz-gözünü örtdükcə qanın.
Elə bil, boylanıb baxdın uzağa,
Uzaq sabahına Azərbaycanın!

Şair ömrünün ekran təcəssümü

Böyük şair, mütəfəkkir İmadəddin Nəsiminin (1369-1417) əfsanəyə çevrilən şəxsiyyətinin, bənzərsiz yaradıcılığının ölkəmizdə və dünyada təbliğində qüdrətli söz ustadının obrazının canlandırıldığı bədii filmin müstəsna yeri var.

Xalq yazıçısı İsa Hüseynovun (Muğanna) ssenarisi üzrə görkəmli rejissor, Xalq artisti Həsən Seyidbəylinin 1973-cü ildə çəkdiyi tarixi-bioqrafik "Nəsimi" filmi şairin anadan olmasının 600 illiyinə həsr edilmişdi. Bu ekran əsəri həm baş qəhrəman haqqında, həm də şairin yaşadığı dövrün mənzərəsini yaratmaq baxımından böyük əhəmiyyət kəsb edir.

Filmin redaktoru, Əməkdar incəsənət xadimi İntiqam Qasımzadə qeyd edir ki, həm elmi, həm tarixi, həm də etnoqrafik cəhətdən dəqiqliyi saxlamaq üçün filmin müəllifləri çəkilişlərə görkəmli nəsimişünas filoloqları, sənətşünasları dəvət etmişdilər:

- "Nəsimi" filminin çəkilişlərinə hazırlıq iki il əvvəldən başlamışdı. İsa Hüseynov Nəsimi obrazı üzərində gərgin işləyirdi. O dövrdə mən kinostudiyada ssenari-redaksiya heyətinin kollegiya üzvü idim, filmin ssenarisində yaxından iştirak edirdim. H.Seyidbəylinin yaxşı filmləri çox olsa da, bir rejissor kimi onun şah əsəri "Nəsimi"dir. O, bütün istedadını, enerjisini, biliyini məhz bu filmə həsr etdi. Nəsimi kimi şəxsiyyət haqqında filmin ədəbi ssenarisi güclü olmalı idi və bu işdə İ.Hüseynovun əməyi danılmazdır. İsa müəllim rejissora material qıtlığı yaşatmadı.



O, ssenarini yazmaqla işini bitmiş hesab etmirdi, daim rejissorun yanında idi. Bəzən ən güclü ssenarilər zəif rejissorlar tərəfindən baxımsız edilib. Amma bu filmdə həm ssenari, həm də rejissor işinin möhtəşəmliyi mükəmməl bir ekran əsərinin yaranmasına zəmin oldu.

Filmə tanınmış mətnşünas, əruzun bilicisi Əli Fəhminin məsləhətçi seçilməsini mən təklif etmişdim. Çünki o, universitetdə mənə dərs demişdi və mən onun klassik şeirimizi, əruzu gözəl bildiyinin şahidi idim. Bu gün "Nəsimi" filminin ən təsirli xüsusiyyətlərindən biri də bədii qiraət səhnələridir. Rasim Balayevin ifasında Nəsiminin qəzəllərinin səslənməsi filmə bir möhtəşəmlik verir. Ə.Fəhmi R.Balayevlə saatlarla, günlərlə məşqlər edirdi. Filmin səsləndirilməsi zamanı o, yenə də rejissorun və aktyorun yanında düzəlişlər verirdi. Kinostudiyanın direktoru Adil İsgəndərov filmin çəkilişinə xüsusi nəzarət edirdi. Filmə lazım olan bütün maddi-texniki ləvazimat vaxtında hazır edilirdi. Teymurləng obrazını yaradan Yusif Vəliyevin oyunu Azərbaycan aktyorluq sənətinin yüksək zirvələrindən birini təşkil edir.

Filmin redaktoru çəkiliş prosesində ssenaridə yer alan təriqətçiliklə bağlı nüanslara heç bir qadağa qoyulmadığını bildirir: "Həmin dövrə kimi bizim heç bir filmimizdə, yaxud teatr tamaşamızda Nəimi, hürufilik idealları qabardılmamışdı. Filmdə şəxsən mənim çox sevdiyim səhnələr var. Bu səhnələrdən biri dərvişlərin deyişmə anıdır. Bütün bunlar bizim mədəni irsimizin incilərdir. Filmdə, təbii ki, müəyyən işarələr var ki,



onlar da ümumən şəkli ifasını tapıb. Bir sözlə, bu film böyük şairimizi xalqa bir daha sevdirə bildi.

Azərbaycan kinosunun uğuru

Nəsimi obrazının ifaçısı, Xalq artisti Rasim Balayev film haqqında danışarkən deyir: "Çəkiliş zamanı dərk edirdim ki, bu mənim üçün ölüm-qalım məsələsidir. Nəsimi obrazı ilə ya sənətdə öz yolumu müəyyənləşdirəcək, ya da uğursuzluğa düçar olub kinodan birdəfəlik gedəcəkdim. Üzərimdə böyük məsuliyyət hiss edirdim. Həyəcanımı boğa bilmirdim. Zəhmətsevərliyim, istedadım və çəkiliş meydançasında daima yanımda olan insanların köməyi sayəsində belə çətin işin öhdəsindən gəldim. Ondan sonra bütün filmlərə sınaq çəkilişlərsiz dəvət edilirdim. Nəsimi rolu kino aləmində mənim "vizit kartım" oldu".

Sənətkar bildirir ki, rol üzərində işləyərkən alimlərdən, xüsusilə də Əli Fəhmidən Nəsimini öyrənib: "Biz Nəsiminin şəklini görməmişdik, xatirələr oxumamışdıq. Onun poeziyasından, fəlsəfəsindən çıxış edərək obraz üzərində işlədim. Bu film Azərbaycan kinematoqrafiyasının uğuru idi. İsmayıl Osmanlı, Məmmədrza Şeyxzamanov, Yusif Vəliyev kimi böyük aktyorlar ilə çəkiliş meydanında rastlaşanda ayaqlarım əsirdi. Bir aktyor kimi Nəsiminin geniş kütləyə tanıdılmasında xidmətim olubsa, xoşbəxtəm".

Qeyd edək ki, Nəsimi obrazı R.Balayevin kinoda ilk böyük işidir. Kino tədqiqatçıları yazırdılar ki, əslində, bu obrazın kəşfi H.Seyidbəyliyə aid idi. O, 600 ildən sonra dahi şairin kino sənətində surətini ortaya çıxarmışdı...

Bütün kadrlar tarixi məkanlarda lentə alınıb

Xalq rəssamı Mais Ağabəyov ekran əsərinə quruluşçu rəssam kimi dəvət alanda 32 yaşı varmış. Sənətkar bildirir ki, "Nəsimi"yə qədər cəmi iki filmdə işləmişdi: "Kinostudiyaya yenicə gəlmişdim. "Yeddi oğul istərəm" və "Həyat bizi sınayır" filmlərində geyim üzrə rəssam kimi çalışmışdım. Tanınmış rəssam Məmməd Hüseynov "Nəsimi" filmində onunla işləməyi təklif edəndə ürəklə qəbul etdim. O deyirdi ki, film böyük və məsuliyyətli filmdir və yetərincə də iş var. Biz məkan seçimi edəndə artıq aktyor heyəti tam hazır idi və məşqlər gedirdi. Nəsimi obrazını hamı Rasim Balayevdə görürdü. H.Seyidbəylinin ən seçilən xüsusiyyətlərindən biri də o idi ki, filmlərdə gənc nəsillə peşəkarlar arasında körpü yarada bilirdi. Quruluşçu operator Rasim İsmayılovla bir çox yerləri gəzib məkanlar seçirdik. Həsən müəllim Kinematoqrafçılar İttifaqının sədri olduğu üçün qərargahımız da, demək olar ki, elə həmin idarə idi. Məkanlar və filmin rəssamlığı ilə bağlı orada müzakirələr aparardıq. Elə məkanlar seçilməli idi ki, Nəsiminin Azərbaycanda yaşadığı mühit əks olunsun. Naxçıvanda Əlincə qalası, Suraxanıda "Atəşgah"da çəkilişlər etdik. Rejissor yığdığı komandaya inanırdı və bizim seçimlərə müdaxilə etmir, şübhə ilə yanaşmırdı. Geyimləri rəssam Elçin Aslanov hazırladı. O, tarixi yaxşı bilirdi və bu film onun kinoda ilk işi idi. Filmdə pavilyon dekorlarından demək olar ki, istifadə edilmədi. Bütün kadrlar tarixi abidələrin fonunda lentə alınıb. Bu çox çətinlik törədirdi. Karvansaraları elə interyerdə qururduq ki, zamanın nəbzini göstərə bilsin və tamaşaçı bunu duya, hadisələri olduğu kimi qəbul edə bilsin. Bakıda Şirvanşahlar sarayında, Özbəkistanın Xivə şəhərində, Hələbdə çəkilişlər oldu".

"Nəsimi" ekranlara çıxandan bir il sonra, 1974-cü ildə Bakıda VII Ümumittifaq kinofestivalında tarixi mövzuda ən yaxşı filmə görə mükafata layiq görülür və ən yaxşı kişi rolu ifasına görə Rasim Balayevə mükafat verilir.

Filmdə verilən mesajlardan biri də budur ki, bəşəri ideallar sahibi olan şairi öldürmək olar, lakin onun insanlığın gələcəyinə işıq salan ideyalarını məhv etmək mümkün deyil. Çoxplanlı filmdə hürufilərin dini fanatizm və ehkamçılıqla, teymurilərlə ideoloji mübarizəsi, müxtəlif qütblərdə dayanan xarakterlərin çarpışmalarına həsr edilən bütün süjet xətləri yüksək sənətkarlıqla işlənib. Ssenari müəllifi İ.Hüseynov film haqqında danışarkən deyib: "Nəsimi poeziyasını, şairin çoxcəhətli şəxsiyyətini öyrənərkən mən bir müəllif kimi, onda müasir gəncliyimizin tərbiyəsi üçün vacib olan cəhətləri daha qabarıq təsvir etməyə çalışmışam".

Nəsimi dünyası təsviri sənətdə

"Məndə sığar iki cahan, mən bu cahana sığmazam" misrası ilə bu gün də düşüncələri tarıma çəkən Nəsimi yaradıcılığının təsviri sənətdə təcəssümü, yaradılan əsərlər baxımından zəngin olmaqla bərabər, ayrı-ayrı müəlliflərin mövzuya özünəməxsus yanaşmasını da ortaya qoyur.

Sağlığında və ölümündən sonra dini fanatizm və xurafatın hədəfinə çevrilən şairlə bağlı XIV-XV əsrlərdə milli təsviri sənətdə (miniatür sənətində) yaradılmış əsərlər, demək olar ki, yoxdur. Dövrümüzə gəlib çatmış Nəsimi ünvanlı ən qədim təsvirlərdən biri XVI əsrə aiddir. Aşiq Çələbinin "Şairlərin şeirləşməsi" əlyazmasında yer almış bu təsvir Nəsiminin ondan sonra yaradılacaq çoxsaylı portretlərindən kəskin şəkildə fərqlənir. Şairin qayalıq qarşısında, ağacların yanında qolları açıq bəyaz geyimdə təsvirində onun irfan əhli olmasına işarə duyulmaqdadır. Başqa bir miniatür üslublu təsvirdə isə Nəsiminin edamı səhnəsi əks olunub. 2009-cu ildə elmi ictimaiyyətə alman nəsimişünası Mixael Reinhard Hess tərəfindən təqdim olunan bu miniatür naməlum rəssam tərəfindən 1700-cü ildə çəkilib. Naməlum rəssam kompozisiyanın ikinci planında dar ağacının altında görüntüyə gətirdiyi şairi edamı izləyən insanların əhatəsində təsvir edib.

***

Nəsimi ünvanlı bu iki qrafika nümunəsindən sonra bədii məkanda uzun müddət şairin təzadlı taleyinə və bənzərsiz poetik dünyasına "bədii güzgü" tutan əsərlər yaradılmayıb. Yalnız 1941-ci ildə Xalq rəssamı Əzim Əzimzadə "Nəsiminin edamı" süjetli kompozisiyasını işləmişdir. Kompozisiyada şairin öz mərdanə ölümü ilə düşmənlərini təəccübləndirməsi, insanların qəlbində əsrlərlə yaşamasına zəmin yaratması duyulandır.

1941 və 1943-cü illərdə isə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin sifarişi ilə rəssam Sadıq Şərifzadə (1912-1986) şairin bir neçə portretini işləmişdi.

Bununla belə Nəsimi yaradıcılığı sovet dönəmində də bir müddət təsviri sənətin diqqətindən kənarda qalmışdı. 70-ci illərdə şairin 600 illik yubileyinin geniş şəkildə qeyd olunması, o cümlədən UNESCO səviyyəsində (1973) keçirilməsi onun həyat və yaradıcılığına təsviri sənət ustalarının diqqətini artırdı. Yubiley münasibətilə Nəsiminin rəngkarlıq və heykəltəraşlıq obrazının yaradılması üçün müsabiqələr keçirildi.

Rəssamlar arasında açıq müsabiqə 1969-cu ildə elan olunmuşdu. Bir il sonra sənət yarışmasına təqdim olunan əsərlərə ilk baxış keçirilir, rəssamlara bu istiqamətdə axtarışların davam etdirilməsi tövsiyə olunur. Eyni zamanda Azərbaycan Rəssamlar İttifaqı və Mədəniyyət Nazirliyinin qərarı ilə müsabiqənin gedişində xüsusi fəallıq göstərən Sadıq Şərifzadə ilə müqavilə də bağlanır və ona ikinci tura ciddi hazırlaşmaq tapşırığı verilir. Nəhayət, komissiya müsabiqəyə təqdim olunmuş portretlərə baxış keçirir və S.Şərifzadənin yaratdığı obraz-portret qalib əsər kimi seçilir. Lakin bir müddət sonra qərar dəyişdirilir və Xalq rəssamı Mikayıl Abdullayevin çəkdiyi, indi hamının yaxşı tanıdığı məşhur portret qalib elan edilir.

Əməkdar incəsənət xadimi Sadıq Şərifzadənin işlədiyi portret isə geniş auditoriyaya məlum olmasa da, Nəsimi mövzulu əsərlər sırasında xüsusi yerə malikdir. Bir çox tarixi şəxsiyyətlərin (Babək, Məhəmməd Füzuli, Sabir və s.) obrazlarının yaradıcısı kimi tanınan S.Şərifzadə bu portretdə Nəsimini gecə mənzərəsi fonunda təsvir edib. Gözlərini naməlum istiqamətə tuşlayan dahi söz xiridarının düşüncəli – cəlbedici portreti və dizinin üstündəki "Ənəlhəq" kəlamlı əlyazması onun həyatda mövqeyini və əqidə bütövlüyünü təsirli şəkildə əyaniləşdirir, desək, yanılmarıq.

***

Yubileylə bağlı portretin yaradılması digər rəssam və heykəltəraşlarımızın öz əsərlərində artıq təsdiqlənmiş ikonoqrafiyadan istifadələrinə yol açdı. Həmin illərdə yaradılmış qrafik əsərlər arasında Xalq rəssamı Oqtay Sadıqzadənin Nəsiminin yeni nəşrinə çəkdiyi illüstrasiyaları (1973) xüsusi qeyd etmək lazımdır. Rəssamın yığcam kompozisiyalı illüstrasiyalarında bədii vasitə kimi miniatür üslubundan istifadə etməsinin kökündə, heç şübhəsiz, təsvirlərin ovqatdaşıyıcı ruhunu Nəsimi dövrünə qaytarmaq istəyi durur. Rəssamın şairin qəzəllərinə çəkdiyi və hazırda Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində saxlanılan dörd illüstrasiyada da poetik misraların məna-məzmun tutumundan qaynaqlanan lirizm qabarıq göstərilib.

Xalq rəssamı Altay Hacıyevin Nəsiminin "Lirika"sına çəkdiyi rəsmlərdə (1973) şairin gizli-açıq tutumlu poeziyasına düşündürücü bədii şərhi görmək mümkündür. Onun fəlsəfi qata bələnmiş Nəsimi ünvanlı rəsmlərində cahana sığışmayan irfan əhlinin yaşantılarına obrazlı münasibət mövcuddur.

Elə həmin yubiley ilində tanınmış qrafika ustası Elçin Aslanov da Nəsimi poeziyasına həsr olunmuş iki illüstrasiyada şairin misralarına düşündürücü görüntü verməyə nail olmuşdu. Qara tuşla çəkilmiş bu kompozisiyalardan birinin yuxarı hissəsində çərçivə içərisində ağ örtüklü qadın təsviri verilmişdir. Çərçivəyə dolaşan buludlardan ox şəklində yağış tökülür. Aşağıda bir tərəfində kol bitmiş iri göy hovuzun üstündən çərçivə içərisindən göyə sarı iki əl uzanmışdır. Əllərə sarılan qara buludlar göyə doğru qalxıb qadının ayaqlarına dolaşmaqdadır...



Digər əsərdə isə insanın mücərrəd təsviri verilmişdir. Onun daxilindən yüksələn məşəl qara alov hər yanı bürümüşdür. Arxa planda dağılıb uçulan evlər alov içindədir. Havada uçan bir mələyin əlində qaval, digərinin əlində ud görünür. İnsan oğlu aləmdə olan qarışıqlığa qarşı əllərini göyə qaldıraraq imdad diləyir. Hər iki əsərin ümumi kompozisiyasındakı fəlsəfi-psixoloji bədii yükdə şairin poeziyasının leytmotivini təşkil edən insan fəlsəfəsini əyaniləşdirmək istəyi duyulmaqdadır...

Orta əsrlər ədəbiyyatına tez-tez müraciət edən rəssam-heykəltəraş Sənan Qurbanov da yubiley günlərində Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin sifarişi ilə maraqlı iki qrafika əsəri yaratmışdır. Onlardan biri şairin "Bədəni qoy, ey könül, gəl bu dəmi xoş görəlim" şeirinə tuşla çəkdiyi illüstrasiyadır. Nəsiminin məşhur "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" şeiri ikinci əsərin məzmununu təşkil edir. Burada buludların arasından görünən günəş hər tərəfə parlamaqdadır. İki dağın arasından isə çay axır. Təsvirdə sanki dağ, çay, günəş – bütün aləm birləşmişdir.

Ədəbiyyat nümunələrinə maraqlı bədii münasibəti ilə seçilən Xalq rəssamı Arif Hüseynovun Nəsimi ünvanlı silsilə qrafik əsərlərində lirizmin fəlsəfəyə bələnmiş gözoxşayan ifadəsini görmək mümkündür. Bir-birindən fərqli koloritdə həll edilmiş bu kompozisiyalarda yer almış şairin bir neçə portreti, Azərbaycan poeziyasında yeni dövr açmış yaradıcılığının məna-məzmun yükünə bələnmiş müxtəlif biçimli ayrıntılar Nəsimi dünyasının, doğrudan da, fərqli mənəvi enerjiyə malik olduğuna oxucusunu-tamaşaçısını inandırmaq gücündədir.

Yaradıcılığında klassik miniatür üslubunun ifadə vasitələrinə tapınan Pərnisə Əsgərovanın "Nəsiminin edamı" (2015) qrafik lövhəsi belə əsərlərdəndir. Nəsiminin ağrılı yaşantılarını yığcam vasitələrlə bədiiləşdirən rəssam mənəvi zənginliyi ilə bədxahlarının yuxusunu ər-

şə çəkən şair vücudunu onun ayaqlarına əyilərək dərisini soymağa başlayan iblis xislətli cəlladın üzərində yenilməzlik rəmzi kimi təqdim etmişdir.

Xalq rəssamları Elmira Şahtaxtinskaya və Yusif Hüseynovun Nəsiminin 600 illik yubileyi münasibətilə çəkdikləri plakatlarda (1973) təntənəyə uyğun gələn ciddilik duyulmaqdadır. Hər iki əsərin kompozisiyasını şairin saya – mavi və boz yerlikdə fas və profil verilmiş portretləri və yazı təşkil edir. Gənc rəssam Emin Aslanovun "Nəsimi" filminə həsr etdiyi iki plakat da mövzunun obrazlı açımı baxımından maraq doğurur.

Tanınmış xəttat-rəssam Yavər Əsədovun Nəsimi dünyasına fərqli bədii münasibəti var. Onun Nəsimiyə həsr etdiyi portretlərin (2018) yazı ilə – ərəb qrafikası ilə çəkilməsidir. Birinci əsərdə fas təsvir olunan söz xiridarının çalması və üz cizgiləri "Seyid Əli İmadəddin Nəsimi" sözlərindən əmələ gətirilmişdir. Şairin profil verilmiş ikinci portreti isə onun doğulduğu və vəfat etdiyi illərin (1369-1417) və şəhərlərin adının (Şamaxı – Hələb) yazılışı ilə yaradılmışdır.

Xəttatlıqla rəssamlığın qovşağının nəticəsi olan bu qrafika nümunələrində müəllif fantaziyasının uğurlu nəticəsini görmək mümkündür.

Yaradıcılığında ədəbi mövzulara geniş yer ayıran Yaşar Səmədovun çəkdiyi "Məndə sığar iki cahan..." adlı qrafik lövhəsinin (2019) qum saatını xatırladan ümumi siluetində şairin edamı ilə

anım yaradan bədii məqamlar duyulmaqda, axıb gedən ağlı-qaralı "şair ömrü"nü xatırlatmaqdadır...

Şairin yubileyi ilə əlaqədar çəkilmiş "Nəsimi" bədii filminin (1973) rəssamları Məmməd Hüseynov və Mayis Ağabəyovun ərsəyə gətirdikləri dekorasiya eskizlərində Orta əsrlər memarlığı, hadisələrin cərəyan etdiyi məkanın inandırıcılığı duyulmaqdadır.

***

Nəsimiyə həsr olunmuş rəngkarlıq əsərləri arasında süjetli tablolar və portretlər üstünlük təşkil edir. Bu xüsusda S.Şərifzadə və M.Abdullayevin yuxarıda qeyd etdiyimiz portretlərindən savayı hər iki rəssamın yaratdığı digər əsərləri qeyd etmək olar.

S.Şərifzadənin "Nəsimi məhkəmədən öncə" (1950-ci illər) adlı çoxfiqurlu tablosu şairin həyatının ən çətin məqamlarından birinə həsr olunub. Kompozisiyada Hələbin şeyxi, naibi, qazilər qazısı və şəriət alimlərindən ibarət olan mühakimə qrupu arasında dayanmış şair həm geyimi, həm də qürurlu duruşu ilə seçilir. M.Abdullayevin "Nəsimi mühakimə ərəfəsində" (1968) və "Nəsimi edam ərəfəsində" (1971) əsərlərində gördüyümüz şairin obrazı onun müsabiqədə qalib elan olunmuş "İmadəddin Nəsimi" (1972) portretindən daha mübariz ruhlu və təsirlidir, desək, yanılmarıq.

Əməkdar incəsənət xadimi Nəcəfqulu İsmayılovun çəkdiyi portret (1973) və süjetli tablonu (1973) da rəssam və heykəltəraşların yaratdıqları bədii Nəsimi salnaməsinə layiqli töhfə saymaq olar. Nəsimini füsunkar Azərbaycan təbiətinin fonunda – oturmuş və düşüncəli vəziyyətdə profil təsvir edən müəllif, lakonik bədii vasitələrlə şairin qətiyyət dolu obrazını yaratmışdır. Çoxfiqurlu "Nəsimi Hələbdə şeir oxuyur" tablosu isə küçədə yazdıqlarını – həyata fərqli fəlsəfi yanaşmasını yerli əhali qarşısında səsləndirən hürufi şairin maraqla qarşılandığını əks etdirir.

Əməkdar incəsənət xadimi Toğrul Sadıqzadənin "İmadəddin Nəsimi" (1972) tablosunda şair Hələb şəhərinin fonunda görüntüyə gətirilib. Bir qədər romantik ruha bələndiyi duyulan şair vücudunda əqidəsinə inam, gələcəyə ümid duyulmaqdadır.

Xalq rəssamı Səlhab Məmmədovun "Nəsiminin məzarı" (1993) əsəri də Hələb ünvanlıdır. Ötən əsrin sonlarında Nəsiminin edam olunduğu bu şəhərdə yaradıcılıq ezamiyyətində olan sənətkar şairin məzarı üzərində ucaldılmış məqbərəni ziyarət etmişdir. Şairin məqbərəsini qızılı, boz və qara rənglərin qovşağında təqdim edən rəssam bu boya təzadında sanki uzaq ellərdə "qəribsəyən" məqbərinin Vətən xiffətini göstərmək istəmişdir...

Ələkbər Rəsulovun çəkdiyi "Cahana sığışmayan şair" (2019) tablosu da obrazlı bədii həllinə görə diqqət çəkir. Ruhunda gəzdirdiyi missiyanın dünyəviləşməsinə qərar verən Nəsiminin cahana sığmazlığı bu əsərdə Şamaxıdan Hələbə yol alan əqidə adamının Yer kürəsi ilə əlaqəli təqdimatda ifadə olunub.

Rəngkar Eldəniz Babayevin "Əqidə yolunda" (2000-ci illər) tablosunda da hürufi ideyalarını yaymağa başlayan şair görüntüyə gətirilmişdir. Uzaq səfərlərin rəmzi kimi qəbul olunan dəvə karvanının fonunda təsvir olunan Nəsiminin addımlarında özünə inam hissi qabarıq göstərilmişdir...

Nəsiminin ömür yolunu dərindən öyrənən Tərlan Eyvazovun ərsəyə gətirdiyi iki portretdə (2019) şair ruhuna tutulan "bədii güzgü" inandırıcı olmaqla yanaşı, həm də təsirli və yaddaqalandır.

***

Nəsimi ünvanlı heykəltəraşlıq əsərlərinin arasında, heç şübhəsiz, şairin paytaxtda ucaldılan abidəsi diqqətçəkəndir. Şairin abidəsi üçün elan olunmuş müsabiqədə ilk turda qalibi müəyyən etmək mümkün olmamışdı. İkinci turda qalib adını xalq rəssamları Tokay Məmmədov və İbrahim Zeynalovun hazırladığı layihə qazandı. 1979-cu ildə təntənəli açılışı keçirilən bu abidə plastikasının romantik ruhlu olması ilə göz oxşayır.

Müsabiqədə ikinci mükafata layiq görülmüş layihə-abidə (müəllifi Telman və Eldar Zeynalov qardaşlarıdır) şairin vətəni Şamaxıda ucaldılmalı idi. Amma subyektiv səbəblərdən bu baş vermədi və sonralar burada Cavanşir Dadaşovun hazırladığı nisbətən kiçik həcmli abidə (1990-cı illər) qoyuldu.

Qeyd etmək lazımdır ki, heykəltəraşlarımız 1973-cü ilin müsabiqəsinə qədər də şairin portretini işləmişdilər. Əməkdar rəssam Münəvvər Rzayeva əvvəlcə Nəsiminin kəcdən (1958), sonra isə ağacdan (1960) portretini (hazırda Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində saxlanılır) hazırlamışdır.

Tanınmış tişə ustası Asim Quliyev və Vaqif Nəzirovun Sumqayıtda ucaldılan "Nəsimi abidəsi" (2003) əsəri şairə həsr olunmuş heykəllər arasında müasir bədii həlli ilə seçilir.

Ukraynanın paytaxtı Kiyevdə həmyerlimiz, tanınmış heykəltəraş, bu ölkənin Xalq rəssamı Seyfəddin Qurbanovun müəllifi olduğu Nəsimi abidəsi ucaldılmışdır (2019). Monumental tutumlu bu heykəltəraşlıq nümunəsində şairin vüqarlı baxışı və daxili gərginliyinin plastikası yaddaqalan tutumda ifadə olunmuşdur.

Dekorativ-tətbiqi sənət ustalarımız da müxtəlif illərdə Nəsimi şəxsiyyətinə öz yaradıcı münasibətlərini sərgiləmişlər. Xalq rəssamları Lətif Kərimov (1970) və Kamil Əliyevin (1974), eləcə də İ.Kərimovanın (1973) toxuduqları xalça-portretlər, keramika ustası Səkinə Şahsuvarovanın hazırladığı vaza (1970) və s. həmin münasibətlərin nəticəsidir...

Mütəfəkkir şairin faciəvi taleyi xarici ölkə heykəltəraşlarının da marağına səbəb olmuşdur. Belə əsərlərdən birini (1974) polşalı heykəltəraş Qustav Zemla yaratmışdır. Şairin xarakterinin açılmasını onun gözlərinin ifadəliliyinə etibar edən müəllifin ərsəyə gətirdiyi portretdə, doğrudan da, "cahana sığışmayan" bir adamla üz-üzə, göz-gözə qaldığına əmin olmaq mümkündür. Nəsimi nə xəyala dalmış, nə də baxışlarını dəqiq bir nöqtədə cəmləşdirmişdir. Onun nəzərləri sirli bir aləmə - öz düşüncə və ümidlərini apardığı gələcəyə yönəlmişdir.

Nəsimi obrazı və idealları musiqidə

Nəsiminin obrazı, onun faciəvi taleyi, dünyaya baxışının genişliyini və humanizmini əks etdirən misilsiz bədii irsi daim ölkəmizin incəsənət xadimlərinin marağına səbəb olub. Bu mövzuda rəssamlıq və heykəltəraşlıq nümunələri ilə yanaşı, musiqi əsərləri də yaradılıb.

XX əsrin 40-50-ci illərindən etibarən, ənənəvi muğam ifaçıları ilə yanaşı, Azərbaycan bəstəkarları da Nəsiminin poetik irsinə müraciət etməyə, şairin qəzəllərinə kamera-vokal əsərləri bəstələnməyə başlamışlar. Ağabacı Rzayeva, Səid Rüstəmov, Süleyman Ələsgərov, Cahangir Cahangirov, Tofiq Quliyev, Nazim Əliverdibəyov, Ramiz Mustafayev, Ramiz Mirişli, Tamilla Məmmədzadə, Emin Sabitoğlu və başqa bəstəkarlarımız mütəfəkkir şairin sözlərinə mahnı və romanslar yazmışlar.

Bu mövzuya müraciət edən Azərbaycan musiqisinin korifeyləri arasında ilk növbədə şairin 600 illik yubileyi ərəfəsində "Nəsimi haqqında dastan" vokal-xoreoqrafik poemasını yaradan görkəmli bəstəkar Fikrət Əmirovun adını çəkmək lazımdır. Şairin faciəli taleyi ilə bağlı hadisələri real şəkildə canlandırmaq üçün bəstəkar unikal qərar qəbul edib və nəticədə ondan əvvəl heç kimin müraciət etmədiyi – orkestr musiqisini rəqs və vokal ifa (solo və xor), həmçinin poetik sözlə vəhdətini təşkil edən yeni janr ərsəyə gəldi. Bu komponentlərin sintezi nəticəsində balet kompozisiyası yaradıldı.

Libretto müəllifi olan Anar bu barədə xatirəsində ("Musiqi dünyası" jurnalının 2011-ci il 1-ci sayı) yazır: "Bir gün Fikrət müəllim mənimlə görüşmək istədi. Evlərinə getdim. Mənə dedi ki, gələn il Nəsiminin 600 illik yubileyi qeyd ediləcək və o, bu mövzuda birpərdəli balet yazmaq, həmin baletin librettosunu da mənim yazmağımı istəyir.

Mən sevincək razılaşsam da, bildirdim ki, indiyədək balet librettosu yazmamışam deyə, ortaya nə çıxacağını bilmirəm. Fikrət müəllim gülüb dedi ki, o da indiyədək heç vaxt balet musiqisi yazmayıb…"

Libretto müəllifliyi təklifini qəbul edən yazıçı öz növbəsində xoreoqraf olaraq Nailə Nəzərovanı, rəssam kimi Toğrul Nərimanbəyovu dəvət etmək təklifini verir. Bəstəkar bu təkliflərlə razılaşır. Ondan öncə Qara Qarayevin "Leyli və Məcnun" simfonik poemasının xoreoqrafik həllini vermiş Nailə Nəzirova "Nəsimi haqqında dastan"ın da uğurlu səhnə yozumunu tapa bilir. On səhnənin (Cəlladların rəqsi, Nəsiminin monoloqu, Nəsimi və sevgilisinin birinci dueti, Qızların Nəsimi və sevgilisi ilə rəqsi, Hücum, Qızların kədəri, Nəsimi və sevgilisinin ikinci dueti, Nəsiminin üsyanı, Savaş, Əbədilik) bir-birini istər musiqi və məzmun, istərsə də xoreoqrafik izhar olaraq tamamladığı balet, sadəcə, yubiley xətrinə hazırlanmış tamaşa olmur. Bu, şairin həyat yolu haqqında xronoloji-bioqrafik hekayət deyildi. Mütəfəkkir şair romantik başlanğıcın qabardıldığı vokal-xoreoqrafik poemanın əsas qəhrəmanı idi. Hadisələrin epik canlandırılması səhnənin arxasında oxuyan və antik teatrlarda olduğu kimi səhnə hərəkətlərini şərh edən xor ifası ilə daha da güclənir. Baletin personajları Nəsimi, onun sevgilisi, cəlladlar, işğalçılar və xalqdır. Onların müqayisəsi və qarşılıqlı fəaliyyəti əsərin əsas qayəsini ortaya çıxarır, insan şəxsiyyətinin ləyaqətinin məğlubedilməzliyi ideyasını tərənnüm edir. Bu ideya Nəsimi yaradıcılığında daim ehtirasla təbliğ edilib. O zaman istər respublika, istərsə də sovet mətbuatı bu tamaşanı çox yüksək qiymətləndirir.

1973-cü il sentyabrın 23-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında ilk dəfə oynanılan tamaşada əsas partiyaları tanınmış

artistlər Vladimir Pletnyov və Çimnaz Babayeva ifa edirlər. Tamaşaya Nazim Rzayev dirijorluq edib. Tamaşa ikinci dəfə Moskvada – Böyük Teatrda – UNESCO-nun iştirakı ilə Nəsiminin 600 illik yubiley tədbirləri çərçivəsində nümayiş etdirilib.

Premyeradan sonra bəstəkar F.Əmirov, librettonun müəllifi Anar, quruluşçu rəssam T.Nərimanbəyov, baletmeyster N.Nəzirova, dirijor N.Rzayev, balet ustaları V.Pletnyov və Ç.Babayeva Azərbaycan Dövlət mükafatına layiq görüldülər. Bir müddət sonra isə F.Əmirov özünün bu səhnə opusunun əsasında "Nəsimi haqqında dastan" adlı sırf orkestr üçün əsərini – simfonik orkestr üçün faciəli musiqisini yaratdı.

"Nəsimi haqqında dastan" baleti 46 il sonra – 2019-cu il mayın 25-də , şairin 650 illiyi münasibətilə fərqli quruluşda (və "Nəsimi" adı ilə) sənətsevərlərə təqdim edildi. Yeni librettonun müəllifi Əjdər Ulduz tamaşanın süjetini üç şəklə bölmüşdü: Sufinin gəncliyi, Sufinin səyahətləri və Sufinin edamı. Yeni librettonun bizə təqdim etdiyi Nəsimi gerçək lirik qəhrəman yox, geniş tamaşaçı kütləsinin daha çox "Nəsimi" filmindən tanıdığı şair, mütəfəkkir, "Ənəlhəqq" deyib həqiqət axtarışına çıxan şəxslə demək olar ki eynidir. Elə tamaşanın süjet xətti də müəyyən qədər məşhur filmdəki hadisələrin ardıcıllığını təkrar edir. Nəiminin (Əməkdar artist Samir Səmədov) dərs keçdiyi mədrəsədə sufilik təliminə yiyələnən gənc Nəsimi (İslam Məmmədov) və onun məsləkdaşları kainatın sirlərini açmaq, həqiqətin nə olduğunu insanlara yaymağa başlayırlar. Xilafət döyüşçüləri Nəimini və mədrəsədəki sufiləri öldürdükdən sonra Nəsimi insanlara sülh, əmin-amanlıq hislərini aşılamaq, həqiqəti çatdırmaq üçün yola çıxır. Səyahət boyunca Azərbaycanı, Yaxın Şərqi dolaşan şair (Anar Mikayılov) bir qadına (Əməkdar artist Nigar İbrahimova) aşiq olur və bu izdivacdan bir qızı (Dinara Şirinova) dünyaya gəlir. Hələbdə qərar tutan şair-filosofun təlimi Misir sultanını narahat edir. Çünki Nəsiminin tərəfdarları, onun təlimini dərk edənlər ədalətsiz savaşlara qarşı çıxırlar. Nəsimi əzizlərini, ardıcıllarını itirməkdənsə, özünü qurban verməyi üstün tutur...



Fikrət Əmirovun əsərləri ilə paralel olaraq, 70-ci illərdən etibarən şairin obrazını təcəssüm etdirən bir sıra musiqi əsərləri ərsəyə gəlir. Bunlar Cahangir Cahangirovun "Nəsimi" üçhissəli kantatası, Azər Rzayevin orkestr, bass-tar və şeir ifası üçün "Nəsimi" simfonik poeması, Əfrasiyab Bədəlbəylinin "Nəsimi" vokal-xoreoqrafik poeması, Əziz Əzizlinin eyniadlı simfonik poeması, Ədilə Hüseynzadənin xor kapellası üçün iki kompozisiyası və digər əsərlərdir. Tofiq Quliyev 1973-cü ildə "Azərbaycanfilm" kinostudiyasında rejissor Həsən Seyidbəylinin lentə aldığı "Nəsimi" kinofilminə çox gözəl musiqi yazıb. Daxili təlatüm notları və incə ifadə tərzi ilə zəngin olan, simfonik fraqmentlərin böyük rol oynadığı bu musiqi filmin uğur qazanmasına əhəmiyyətli dərəcədə kömək edib.

İri janrlarda və formalarda əsərlərlə yanaşı, bəstəkarlarının yaratdıqları bir çox kamera-vokal əsərlərinin tərkibinə Nəsiminin poetik şedevrləri daxil edilib. Bundan əlavə, qeyd etdiyimiz kimi, dahi şairin şeirlərinə gözəl mahnılar və romanslar bəstələnib.

***

Nəsimi obrazı, onun əsl sakral poeziyasının mübhəm məqamları müasir musiqi yaradıcılığında bəstəkarların xəyal gücünü coşdurmaqda davam edir. Mütəfəkkir şairin obrazı Xalq artisti, professor Firəngiz Əlizadənin yaradıcılığında xüsusi yer tutur. Görkəmli bəstəkar Nəsiminin ölümünün 600-cü ildönümündə (2017) xor, ifaçı və simfonik orkestr üçün möhtəşəm "Nasimi Passion" əsərini yaradıb. Həmin əsərdə həyatı dəhşətli edamla başa çatan böyük şair və mütəfəkkirin keçdiyi ömür yolu musiqinin dili ilə təqdim olunur.

2017-ci ilin aprelində premyerası Amsterdamda (Niderland) keçirilmiş bu əsərin ərsəyə gəlməsinin maraqlı tarixçəsi var. Avropanın ən nüfuzlu konsert zallarından olan "Amsterdam Royal Consertgebouw" artıq bir neçə ildir ki, "Passions" (tərcüməsi ehtiraslar, əzablar deməkdir) musiqi layihəsini həyata keçirir. Layihə çərçivəsində müxtəlif mədəniyyətlər və dinləri təmsil edən görkəmli bəstəkarlara həmin mövzuda əsərlər sifariş olunur və ifa edilir. İslam dininə həsr olunmuş bu cür əsərin yaradılması haqqında söhbət getdikdə, onun müəllifi kimi bizim məşhur Azərbaycan bəstəkarı Firəngiz Əlizadə seçilib. O, öz "Passion"unu dahi şair və böyük əzabkeş, həyatını humanizm ideyalarının tərənnümünə qurban vermiş Nəsimiyə həsr edib.

"Nasimi Passion" əsərinin premyerası solistlərin, xorun və ingilis dirijoru Martins Brabbisin rəhbərliyi ilə Niderlandın Kral Simfonik Orkestrinin ifasında təqdim edilib. Nəsiminin qəzəllərinin əsasında bəstələnmiş mahnılar orijinalda – Azərbaycan dilində səsləndi, eyni zamanda konsertin gedişində ekranda tərcümə olunmuş mətn nümayiş etdirildi. İlk müsəlman "Passion"nun premyerası üç min dinləyicini iştirak etdiyi zalda böyük uğurla keçdi.

"Nəsimi Passion" əsərinin Bakıda ilk ifası isə 2017-ci ilin iyununda M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında odu. Fəxrəddin Kərimovun idarəçiliyi ilə Dövlət Simfonik Orkestri, Xor Kapellası və solistlər əsərin zəngin orkestr koloritini, xor partiyalarının məzmununu, solistlərin monoloqlarının bütün dərinliyini tam şəkildə əks etdirərək dinləyicilərə şairin parlaq obrazının incəliklərini çatdırdılar.

2017-ci ildə UNESCO-nun Parisdəki mənzil-qərargahında Nəsiminin ölümünün 600 illiyi münasibətilə keçirilən təbirlər çərçivəsində Firəngiz Əlizadənin musiqisi əsasında daha bir əsər – "Nəsimiyə ithaf" tamaşası təqdim olundu.

Bu quruluş iki məşhur kamera əsərinin əsasında yaradılmış balet-konsertdir. Onlar bəstəkarın "Muğamsayağı" əsərinin və Amerikanın "Kronos" kvartetinin sifariş etdiyi və Yo-Yo Ma "İpək Yolu" transkontinental layihə üçün məxsusi yazılmış "Dərviş" musiqisinin vəhdətidir. Bu əsərlərin əsasında hazırlanan xoreoqrafik tamaşa dinləyicilərə təkcə musiqi ifaçılarını görmək deyil, həmçinin beş rəqqasın oynadığı səhnə hərəkətlərini müşahidə etmək imkanı yaradır. Burada Nəsimi obrazı daim həqiqəti axtaran və ədalət uğrunda mübarizə aparan kontekstdə təqdim olunub. Şair qara geyimlərdə olan iki personaj şəklində təqdim edilmiş "şər qüvvələri" dəf etməyə məcbur olur. Tamaşanın finalında Nəsiminin mistik və sehrli obrazının vasitəsilə xeyirin şər üzərində qələbəsi nümayiş etdirilir.

Tanınmış xoreoqraf Nailə Məmmədzadənin verdiyi quruluşda Nəsimi obrazını Anar Mikayılov, digər obrazları Anar Tahirov, Eduard Arazov, Cəmilə Kərimova və Tamilla Məmmədzadə ifa ediblər. Musiqini tanınmış xanəndə, Xalq artisti Teyyub Aslanov, istedadlı skripkaçılar, Əməkdar artist Elvin Qəniyev, beynəlxalq müsabiqələrin laureatları Elina Drux, violonçel ustası Orxan Hüseynov və digərləri iştirak edirlər. "Nəsimiyə ithaf" əsərinin Parisdə keçirilmiş premyerasından sonra tamaşa Bakıda VI Beynəlxalq Humanitar Forumu və "Muğam dünyası" V Beynəlxalq Musiqi Festivalı çərçivəsində də qonaqlara təqdim olundu və alqışlarla qarşılandı.

***

2019-cu ilin "Nəsimi ili" elan edilməsi ilə əlaqədar Bəstəkarlar İttifaqı gənclərin cəlb olunduğu yeni layihəyə dair təşəbbüs irəli sürüb. Layihənin iki əsas məqsədi var. Onlardan biri gənclərin diqqətini Nəsiminin tükənməyən yaradıcılığına cəlb etmək, ikincisi Üzeyir Hacıbəylinin təkrarolunmaz "Sənsiz" və "Sevgili canan" romans-qəzəlləri ilə əsası qoyulmuş musiqili qəzəl janrının dirçəldilməsinə kömək etməkdir.

"İpək Yolu" musiqi festivalında "Nəsimiyə ithaf"

2010-cu ildən Şəkidə ənənəvi olaraq keçirilən "İpək Yolu" Beynəlxalq Musiqi Festivalına bu il Nəsimi irsi də öz möhürünü vurdu. 29 iyun – 3 iyulda gerçəkləşən sayca 10-cu festival günlərində "Nəsimiyə ithaf" vokal-xoreoqrafik kompozisiyası nümayiş olundu, Şəki Musiqi Kollecində "Nəsimi mövzusunun Azərbaycan bəstəkarlarının əsərlərində təcəssümü"nə həsr edilmiş dəyirmi masa keçirildi.

İyunun 27-də isə festival ərəfəsində Bəstəkarlar İttifaqında "Nəsimiyə ithaf" layihəsinin ilk musiqi axşamı təşkil edildi.

İlk konserti Azərbaycan klassik musiqisinin şah əsərləri – Niyazinin "Rast" simfonik muğamının violin ilə fortepiano dueti üçün işlənməsi (beynəlxalq müsabiqə laureatları pianoçu Fəqan Həsənli, violin ifaçısı Süleyman Əyyubov) və Ü.Hacıbəylinin "Cəngi" miniatürü (F.Həsənli) ilə haşiyələnmişdi. Bu klassik körpü arasında gənc bəstəkarların Nəsimi qəzəllərinə olan musiqi ithafları məmnuniyyətlə dinlənildi.

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Bəstəkarlıq fakültəsinin tələbəsi Vüqar Məmmədzadənin (bəstəkar Aydın Əzimovun sinfi) bariton və fortepiano üçün bəstələdiyi "Hardasan" vokal əsəri dahi şairin qəzəlinin ənənəvi "Şüştər"-"Çahargah" məqamlarına əsaslanan ehtiraslı lirik obrazda və həzin ifa ilə (beynəlxalq müsabiqə laureatları vokalçı Rza Xosrovzadə pianoçu Fuad Əlizadənin müşayiətilə) yadda qaldı.

Eyni formanı – yəni bariton-fortepiano duetini təqdim edən növbəti vokal ithaf Aysel Əzizovanın bəstəsi – "Dünya duracaq yer deyil..." əsəri oldu. Əsər vokalçı Rza Xosrovzadə və beynəlxalq müsabiqələr laureatı Firuzə Nəcəflinin ifalarında səsləndi.

Kəmalə Əlizadənin "Nəsimi-qəzəl" bəstəsini Əməkdar artist Fəridə Məmmədova (soprano), beynəlxalq müsabiqələr laureatları – Ümidə Abbasova (I violin), Süleyman Əyyubov (II violin), Humay Hacızadə (viola), Nicat Bağırov (kontrabas) və Əməkdar artist Əyyub Əliyevin ifasında simli kvintet, eləcə də əməkdar artistlərdən ibarət muğam üçlüyü – Sahib Paşazadə (tar), Toğrul Əsədullayev (kamança) və Soltan Əliyev (nağara) təqdim etdilər. Müəllifin özü ifaçıları fortepiano arxasında müşayiət etdi.

Sara Dilrubanın "Heyran olmuşam" əsəri də qismən ənənəvi-klassik qavranılan poetik Şərq vokal miniatürləri ovqatını daşıyırdı. Beynəlxalq müsabiqələr laureatları – Ruslan Persan (bariton), Nərmin İsgəndərova (piano), Seyid Talıbov (qaval) və Əyyub Əliyevin (violonçel) ifasında səslənən bu əsər də ənənəvi lirik əsərlər xəttini tamamladı.

Konsertin vizual effektli – dövrə mənsub geyim və milli tembrlər seçiminə əsaslanan və Nəsimi şeiriyyətinin ilhamlı obraz aləmini açan nömrəsi gənc bəstəkar İlahə İsrafilovanın – "Mədhi Əhəd" adlanan mürəkkəb heyət və musiqi inkişafına malik bəstəsi idi. Rza Xosrovzadə (tenor), Kamran Talıblı (fleyta), Şahin Məmmədov (klarnet), Mahmud Salah və Ağarəhim Salah (zərb alətləri), Fəqan Həsənli (piano), Ümidə Abbasova (violin), Əyyub Əliyev (violonçel) milli üslub ilə müasir bəstəkar texnikasında yazılmış kompozisiyanın məharətli ifasını təqdim etdilər.

Nəsimi poeziyasının daha bir maraqlı, Qərb çalarlı çözməsi – Tural Məmmədlinin "Məndə sığar iki cahan" əsəri müəllifin özü (fortepiano), Ülkər Əliyeva (soprano), Kamran Talıblı (fleyta), Toğrul Məmmədli (valtorna) və adıçəkilən simli kvintetin ifasında səsləndi.

Nəsimi qəzəllərinə yazılmış musiqilərlə bərabər Xalq rəssamı Arif Hüseynovun "Nəsimi dünyası" rəsm silsiləsi də tədbir iştirakçılarının ruhən şairin söz və fikir dünyasına apardı.

Nəsimi irsi tədqiqat və nəşrlərdə

Azərbaycan poeziyasının və ədəbi dilinin inkişafında mühüm bir mərhələ təşkil edən Nəsimi yaradıcılığı dilçilik, xüsusilə Azərbaycan türkcəsinin tarixi inkişafını öyrənmək baxımından müstəsna əhəmiyyətə malikdir.

Nəsimi canlı xalq danışıq dilindən bacarıqla istifadə etməklə yanaşı, klassik şeir dilində çox yayılmış bədii ifadələri də məharətlə işlətmişdir. Şair Azərbaycan şeirinin şəkli xüsusiyyətlərinin təkmilləşməsində çox mühüm rol oynamış, əruz vəzninin bəhrlərini Azərbaycan dilinin xüsusiyyətlərinə uyğunlaşdırmağa çalışmışdır. Onun altı əsr öncə yazdığı qəzəllər, müləmmələr, müstəzad, mürəbbe və tərcibəndlər, rübailər, tuyuqlar poeziyamıza aydınlıq, şəfqət gətirmiş, ana dilimizi və bədii sözümüzü yeni zirvələrə qaldırmışdır.

Bu zəngin irs Azərbaycanla yanaşı, dünyanın bir sıra ölkələrinin kitabxanalarında – Britaniya Muzeyi Kitabxanası, Düşənbə Əlyazmalar Fondu, Tehran Milli Kitabxanası, Təbriz Milli Kitabxanası, İstanbul Topqapı Sarayı Muzeyi Kitabxanası və digər kitabxanalarda mühafizə olunur.

Nəsiminin ana dilində yazdığı əsərlər Azərbaycan şeirinin inkişafına, o cümlədən Füzuli, Nəvai, Şeyxi, Niyazi və başqa böyük sənətkarların yaradıcılığına qüvvətli təsir göstərmişdir. Bundan başqa, Həbibi, Kişvəri, Həqiqi, Şah İsmayıl Xətai kimi şairlərin yaradıcılığında öz əksini tapan sufi-hürufi inam və düşüncələri də şairin ölməz irsinin təsiri ilə əlaqədardır.

Nəsiminin əsərləri ilk dəfə 1844, 1871 və 1880-ci illərdə İstanbulda nəşr edilmişdir. Azərbaycanda isə 1923-cü ildə "Maarif və mədəniyyət" jurnalının 1-ci nömrəsində şairin bir sıra qəzəlləri - "Ey cənnətin xəndan gülü...", "Firqətin dərdindən ey can...", "Dəryayi mühit cuşa gəldi...", "Məndə sığar iki cahan..." və s. çap olunmuşdur. Görkəmli ədəbiyyatşünas alim, maarifçi Firidun bəy Köçərlinin 1925-ci ildə "Azərbaycan ədəbiyyatı tarixi materialları" kitabında şairin qəzəli də çap edilmişdir. 1926-cı ildə ədəbiyyatşünas alim Salman Mümtaz Nəsiminin qəzəllərini "Seçilmiş şeirlər" və "Şeirlər" adı ilə nəşr etdirmişdir.

Şairin həyat və yaradıcılığı haqqında ədəbiyyatşünas alim, akademik Həmid Araslı 1942-ci ildə "Fədakar şair (İmadəddin Nəsimi)" oçerkini qələmə almışdır. O, həmçinin, M.Rəfili ilə birgə "Qədim ədəbiyyat" (1942, 1945), "İmadəddin Nəsimi" (1972) və Nəsiminin 600 illik yubileyi ərəfəsində nəşr olunan "Nəsimi" (Azərbaycan, rus, ingilis, fransız, alman, ərəb, fars dillərində, 1973) kitablarında şairin həyatının bəzi məqamlarına aydınlıq gətirmiş, Nəsimi şeirinin dil və poetik ifadə gözəlliklərindən söz açmışdır.

Şairin ana dilində divanının elmi-tənqidi mətnini ilk dəfə Azərbaycan alimlərindən professor Cahangir Qəhrəmanov nəşrə hazırlamışdır. O, Bakı, Leninqrad (indiki Sankt-Peterburq) və İrəvan əlyazmalar fondlarında saxlanılan beş nüsxəni İstanbul və Bakı nəşrləri ilə tutuşduraraq şairin ana dilində əsərlərinin ilk elmi-tənqidi mətnini 1973-cü ildə ərəb əlifbası ilə çap etdirmişdir.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyinin UNESCO-nun tədbirləri siyahısına daxil edilməsi və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunması onun irsinin dərindən öyrənilməsinə də təkan vermişdir. Yubiley münasibətilə şairin həm Azərbaycan, həm də başqa dillərə tərcümə edilmiş kitabları, haqqında elmi tədqiqat əsərləri, biblioqrafiya (M.F.Axundzadə adına Milli Kitabxana tərəfindən) işıq üzü görmüşdür. Həmçinin Xalq yazıçısı İ.Hüseynovun "Məhşər" romanı, Xalq şairi R.Rzanın "Son gecə" poeması, Xalq şairi Qabilin "Nəsimi" poeması və digər bəddi əsərlər Nəsiminin həyatına işıq salmışdır.

***

Bu gün kitabxanalarımızda Nəsiminin əsərlərinin müxtəlif nəşrləri, həmçinin şairin həyat və yaradıcılığı haqqında müxtəlif kitablar, monoqrafiyalar var. Prezident İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamına (2004) əsasən, İmadəddin Nəsiminin əsərləri iki cilddə nəfis şəkildə çap olunaraq bütün kitabxanalara hədiyyə edilmişdir. Nəsiminin əsərləri rus, ingilis, alman, fransız, türk, fars və başqa dillərdə işıq üzü görmüşdür. Milli Kitabxananın fondunda Nəsiminin əlyazmaları, daşbasma üsulu ilə ərəbə gəlmiş kitabları daxil, 300-dək çap nümunəsi var.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında, F.Köçərli adına Respublika Uşaq Kitabxanasında, eləcə də şəhər-rayon MKS-lərin mərkəzi kitabxanalarında və kitabxana filiallarında da oxucular Nəsiminin söz xəzinəsi, onun yaradıcılığı ilə bağlı kitabları əldə edə bilərlər. Bundan əlavə, şairin 650 illiyi ilə bağlı Azərbaycan Milli Kitabxanası tərəfindən respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, mərkəzləşdirilmiş kitabxana sistemləri üçün, Respublika Uşaq Kitabxanası tərəfindən isə yubiley münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri üçün metodik vəsaitlər hazırlanaraq nəşr edilmişdir.

Yubiley münasibətilə AMEA-nın Ədəbiyyat İnstitutu tərəfindən "Böyük Azərbaycan şairi İmadəddin Nəsimi" monoqrafiyası hazırlanır. İnstitutun direktoru, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin bildirdiyinə görə, monoqrafiya il ərzində nəşr olunacaq.

Qüdrətli söz ustadına həsr olunmuş elmi konfranslar

AMEA-nın Humanitar Elmlər Bölməsinin, Memarlıq və İncəsənət İnstitutunun təşkilatçılığı ilə "İncəsənətdə Nəsimi obrazı" mövzusunda respublika elmi-praktik konfransı keçirilib.

Konfransda sənətşünaslıq üzrə elmlər doktoru Sevil Fərhadova "İmadəddin Nəsimi poeziyası muğam-ozan konseptuallıq kontekstində", sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Vidadi Qafarov "Nəsimi obrazının Azərbaycan teatrında səhnə təcəssümü" və Əməkdar incəsənət xadimi Ayaz Salayev "Nəsimi" filmi sovet dövlətinin qürubu dövründə milli özünüdərk amili kimi" mövzularında məruzə ilə çıxış ediblər.

AMEA-nın Folklor İnstitutunda keçirilən "İmadəddin Nəsimi və folklor" mövzusunda respublika elmi konfransında filologiya üzrə elmlər doktoru, professor Cəlal Qasımovun "İmadəddin Nəsimi yaradıcılığında insan və tanrı münasibətləri", filologiya üzrə elmlər doktoru İslam Sadığın "Nəsiminin tanrı-insan konsepsiyasının "Dədə Qorqud" və Şumer qaynaqları", filologiya üzrə fəlsəfə doktoru Atif İslamzadənin "Nəsimi dünyagörüşü Aşıq Ələsgər poeziyasının məzmun səviyyəsi kimi", filologiya üzrə fəlsəfə doktoru Elçin Qaliboğlunun "Nəsimi yaradıcılığında mifoloji obrazların məsəlləşmiş biçimdə ifadəsi" mövzularında məruzələri dinlənilib.

Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda isə "İmadəddin Nəsimi: sələflər və xələflər – Orta əsrlər əlyazmaları və Azərbaycan mədəniyyətinin tarixi problemləri" mövzusunda XVII respublika elmi konfransı təşkil edilib. Konfransda institutun elmi işlər üzrə direktor müavini, filologiya üzrə elmlər doktoru, professor Paşa Kərimovun "Professor Cahangir Qəhrəmanovun nəsimişünaslıq fəaliyyəti", institutun əməkdaşları – filologiya üzrə fəlsəfə doktorları Nəzakət Məmmədlinin "Nəsimi və Əttarın "Ber aməd" rədifli qəzəllərinin müqayisəli təhlili", Tünzalə Seyfullayevanın "İmadəddin Nəsimi şeirləri cünglərdə", Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru, filologiya üzrə elmlər doktoru Yaqub Babayevin "Nəsimi poeziyasında insan konsepsiyası" və başqa məruzələr təqdim olunub.

Böyük şairə bəşəri ehtiram

Mən mülki-cahan, cahan mənəm, mən!
Mən həqqə məkan, məkan mənəm, mən!
...İnsanü bəşərsən, ey Nəsimi,
Həqq der ki, haman, haman mənəm, mən!

Sözünün qüdrəti ilə əsrləri aşaraq zəmanəmizə qədər gəlib çıxan Nəsimi humanizm carçısı, bəşəri ideyaların tərənnümçüsü kimi dünyada özünə əbədi ad qazanıb. Müxtəlif ölkələrin tanınmış elm, ədəbiyyat, mədəniyyət xadimlərinin Azərbaycanın böyük şairinə, onun ədəbi-fəlsəfi irsinə bəslədiyi dərin ehtiram bunun göstəricisidir.

Nəsimi poeziyası 600 ilin qaranlığını işıq şüası kimi yırtaraq bizə gəlib çatmışdır. Ən qiymətli cəhət də budur ki, o, indi də əvvəlki kimi parlayır! Mən Nəsimini dünya lirikasının Kopernikі adlandırmaq istəyirəm. Nəsimidən yüz il kiçik olan Kopernik təsdiq edirdi ki, kainatın mərkəzi Yer deyil, Günəşdir. Böyük astronomun Günəş haqqında dediklərini Nəsimi ondan yüz il əvvəl insan haqqında demişdir. Günəş kimi insan da kainatın mərkəzində durur. Nəsiminin poetik sisteminin əsas müddəası məhz budur.

Lev Ozerov
rus şərqşünası

Cordano Bruno Qərb dünyasının Nəsimisi sayılmaqla fəxr edə bilər... Dahi Nəsimi şahlar, sultanlar, xaqanlar dövründə - cəhalət zülmətində ictimai ədalətsizlik hökm sürən bir zamanda Prometey kimi canını, qəlbini məşələ döndərib qaranlıqlara ildırım təki şəfəq saçmışdır. Buna görə də onun müdrik və hikmətli sözləri dünya durduqca zülmətləri parçalayıb nəsillərdən-nəsillərə keçə-keçə örnək olacaq. Nəsiminin dərin mənalı diqqətəşayan sözlərini oxuduqda heyrətlənməmək, qürur, fərəh duymamaq olmur.

Cozef Nort
Amerika yazıçısı

XIV əsrdə şair olmaq qorxusu, XII əsr Nizami dövrünə görə daha təhlükəli idi. Bu dövrdə Nəsimi adlı bir şair yetişmişdir... Nəsimini diri-diri dabanından soydular və sonra Hələb şəhərinin qapılarından asdılar. Altı əsr özündən sonra yetişmiş Musa Cəlil kimi, Nəsimi də son nəfəsinə qədər yazıb-yaratmışdır.

Lui Araqon
fransız yazıçı və şairi

İmadəddin Nəsiminin yaşayıb-yaratdığı dövrdən bizi ayıran altı əsr bu nəhəngin poeziyası üzərindən qələm çəkə bilməmişdir. Yaradıcılığı dünya ədəbiyyatı xəzinəsinə daxil olmuş böyük Azərbaycan şairinin adı bu gün də göy qübbəsində ən böyük ulduzlardan biri kimi parlayır və öz şəfəqləri ilə üstümüzə işıq salır.

Bobocan Qafurov
akademik (Tacikistan)

Nəsiminin doğma ədəbiyyat qarşısında başlıca tarixi xidməti yazılı ədəbiyyata Azərbaycan dilini gətirməsidir. Şərq poeziyasının ərəb və fars dillərində yazdığı bir dövrdə onun doğma dildə yazılmış gözəl "Divan"ı parlaq şəkildə sübut etdi ki, Azərbaycan dilində də gözəl nəzm əsərləri yaratmaq mümkündür.

Sergey Vasilyev
rus şairi

Alman alimin Nəsimi sevgisi

Klassik Azərbaycan ədəbi irsi əsrlərdir Qərb şərqşünaslığının da diqqət mərkəzindədir. Bu sahənin nüfuzlu araşdırmaçıları sırasında alman alimi, tanınmış nəsimişünas Mixael Hess (Michael Reinhard Hess) xüsusi yerə sahibdir.

Qeyd edək ki, tədqiqatçı almandilli məkanda mütəfəkkir şairin həyat və yaradıcılığına dair fundamental əsərlər yazıb, öz doktorluq dissertasiyasını bu mövzuya həsr edib.

Azərbaycan və bir sıra türk dillərini bilən M.Hess Nəsimi yaradıcılığının alman dilinə mükəmməl tərcüməçisi kimi də tanınır. Onun tərcüməsində dahi şairin şeirlər kitabı alman dilində işıq üzü görüb. Alimin klassik irsimizin nümayəndələri ilə bağlı çıxışları və məqalələri maraqla qarşılanır.

Alman tədqiqatçıda Nəsimi sevgisi İstanbulda çalışdığı vaxt yaranıb. Böyük Britaniyadan aldığı elektron məktubda Nəsimi şeriyyəti ilə ilk dəfə tanış olan alim şairin poetik dünyasına, ideyalarına necə vurulursa, o vaxtdan da Şərqin böyük mütəfəkkirinin irsini araşdırmağa başlayır.

M.Hess hesab edir ki, Azərbaycan mədəniyyətlərin toqquşduğu deyil, qovuşduğu, yaxınlaşdığı məkandır: "Bu ölkənin mədəniyyət, ədəbiyyat, incəsənət, musiqi nümunələri zəngindir. Azərbaycan ədəbiyyatının ən maraqlı xüsusiyyəti, zənnimcə, milliliyi qorumaq şərtilə, tarix və mədəniyyətlərin birləşməsi, bu harmoniyanın əks etdirilməsidir. Azərbaycanın çox maraqlı mədəniyyəti və ədəbiyyatı var ki, İmadəddin Nəsimi burada xüsusi bir yer tutur".

Alim Nəsimi şeirində bir dərinlik olduğunu qeyd edir: "Nəsimi şeriyyətində elə bir duyğu gücü var ki, məncə, hətta tərcümədə belə hiss edilir. Şairin şeirlərində o qədər təfərrüat, o qədər söz, o qədər dərin məna var ki, onun hamısını bir tərcümədə vermək mümkün deyil. Çünki onu vermək üçün minlərcə şərh vermək lazımdır. Böyük Nəsimi yaradıcılığının çəkisi ölçüsüzdür. Nəsiminin mənəvi irsinin dəyərini qiymətləndirmək çox çətindir. Məsələn, onun dövründə hakim olan dini ehkamdan fərqli Hürufilik təlimini yaydığına görə çəkdiyi əziyyət və faciəli ölümündən dini tolerantlıq barədə dərslər ala bilərik".

Tədqiqatçıya görə, Nəsimi şeriyyətinin bədii keyfiyyəti və fəlsəfi görüşlərinin dərinliyi onu öz müasirlərindən ciddi şəkildə fərqləndirir. Nəsimi dühası, onun yaradıcılığındakı keyfiyyət və fəlsəfi görüşlər XXI əsrdə də öz aktuallığını qoruyur. Bu da bir tərəfdən oxucu auditoriyası üçün bədii zövq, digər tərəfdən isə elmi araşdırmalar üçün yeni stimul deməkdir. Alimin sözlərinə görə, "Nəsimi ili" bu sahədə tədqiqatlara öz töhfəsini verəcək.

"Nəsimi 650" xüsusi buraxılışının hazırlanmasında "Mədəniyyət" qəzetində dərc edilmiş yazılardan, akademik İsa Həbibbəylinin, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyevin məqalələrindən, AZƏRTAC-ın materiallarından, Milli Kitabxananın "İmadəddin Nəsimi 650" metodik vəsaitindən, digər elektron resurslardan istifadə olunub.

Nəşrin üzərində işləyənlər: Vüqar Əliyev, Fariz Yunisli, Cavid Sərxanbəyli, Səbinə Məmmədova.

Kainatda bir planet də var...

İmadəddin Nəsiminin 650 illiyi ilə əlaqədar Beynəlxalq Astronomiya İttifaqı (BAİ) kiçik planetlərdən birinə onun adının verilməsi barədə qərar qəbul edib. Müvafiq vəsatət ittifaqın üzvü, azərbaycanlı astronom, fizika-riyaziyyat elmləri doktoru Əyyub Quliyev tərəfindən qaldırılıb. Nəsimi planetinin kataloq nömrəsi 32939, hərəkət zonası isə Mars və Yupiter planetlərinin arasındakı asteroid qurşağıdır. Bu planet 1995-ci il oktyabrın 24-də Çexiya astronomları tərəfindən Klet rəsədxanasında aşkar edilib.

Böyük Çöl mirasında iz

May ayında Parisdə UNESCO-nun mənzil-qərargahında qurumun himayədarlığı ilə Beynəlxalq Türk Akademiyası tərəfindən "Böyük Çöl: mədəni mirası və dünya tarixində rolu" adlı beynəlxalq forum keçirilib. Forum çərçivəsində türk dünyasının görkəmli alim və mütəfəkkirləri (Yusif Balasaqunlunun 950, Əhməd Ağaoğlunun 150 illiyi) ilə bərabər İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyi də qeyd olunub. Forumda çıxış edən Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov Orta əsrlərdə Nəsimi tərənnümçülərinin Böyük Çölün ədəbi inkişafına verdiyi töhfələrdən söz açıb, həmin dövrlərdə fəaliyyət göstərmiş və təriqət və dini-fəlsəfi cərəyanlardan danışıb.

Baş redaktor: Vüqar Əliyev

Ünvan: AZ 1012, Moskva pr, 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

Telefon: (012) 530 34 38

«Mədəniyyət» qəzeti və
«Baku Guide» MMC-nin birgə nəşri

«Renessans-A» Nəşriyyat Evində çap edilib,
5 iyul 2019-cu il

Tiraj: 8000

"...Mən bu cahana sığmazam"

Nəsimi sözünün qüdrəti dünya ölkələrində

Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, böyük şair və mütəfəkkirin 650 illik yubileyi və "Nəsimi ili" Azərbaycanın hüdudlarından kənarda da çoxsaylı tədbirlərlə qeyd edilir.

"Nəsimi ili"nin ölkəmizdən xaricdə ən yaddaqalan hadisələrindən biri Ukraynanın paytaxtı Kiyevdə qüdrətli söz ustadının abidəsinin ucaldılması olacaq. Mayın 24-də açılışı keçirilən heykəlin müəllifi Ukraynanın Xalq rəssamı, tanınmış heykəltəraş həmyerlimiz Seyfəddin Qurbanovdur.

Azərbaycanın Ukraynadakı səfirliyinin sifarişi ilə ucaldılan heykəlin açılış mərasimində Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, Kiyev şəhərinin meri Vitali Kliçko, diplomatik korpusun nümayəndələri, soydaşlarımız, şəhər sakinləri iştirak ediblər. Vitali Kliçko bildirib ki, Kiyevdə Azərbaycan xalqının böyük şairinin abidəsinin ucaldılması Ukrayna və Azərbaycan xalqlarının bir-birinə verdiyi dəyərin nəticəsidir. Eldar Əzizov da ölkələrimiz arasında mehriban münasibətlərdən bəhs edərək vurğulayıb ki, Bakıda Taras Şevçenkonun, Kiyevdə ulu öndər Heydər Əliyevin, Müslüm Maqomayev və indi də İmadəddin Nəsiminin heykəlinin ucaldılması iki ölkə arasında dost münasibətlərin bariz nümunəsidir.

Gülyanaq Məmmədova Nəsiminin qəzəllərini ifa edib. Xalq artisti Mehriban Zəki, gənc aktyorlar Mirsənan Kazımlı və Ziya Ağayev Nəsiminin qəzəl və rübailərini söyləyiblər. Qaval ifaçısı Mahmud Salahın müşayiət etdiyi sənətçilər ifaları ilə tamaşaçılara xoş təəssürat bəxş ediblər.

***

Serbiyadakı səfirliyimizin təşəbbüsü və Belqradda fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin dəstəyi ilə iyunun 18-də Nəsiminin serb dilinə tərcümə edilmiş seçmə şeirlərindən ibarət kitabının təqdimatı, "Nəsimi" filminin serb dilində subtitrlərlə nümayişi olub. İyunun 19-da isə Serbiya Kral Akademiyasının

təşkilatçılığı ilə Belqrad Universitetində Nəsiminin 650 illik yubileyi münasibətilə elmi simpozium təşkil olunub. Səfir Eldar Həsənov, Serbiya Kral Akademiyasının üzvü, akademik Sokol Sokoloviç bu cür tədbirlərin ikitərəfli əlaqələrə müsbət təsirini qeyd ediblər.

Simpoziumda serb və azərbaycanlı alimlər məruzələrlə çıxış ediblər. Alimlərə Serbiya Kral Akademiyasının qərarı ilə təsis olunmuş "Nəsimi 650 il" yubiley və "İvo Andriç" medalları təqdim edilib.

***

Bişkek şəhərindəki Manas Universitetində İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Universitetin foyesində Azərbaycan Milli Kitabxanasının fondunda olan Nəsiminin əsərlərindən ibarət kitab sərgisi açılıb. Kitabxananın direktoru Kərim Tahirov, Azərbaycanın TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı çıxış ediblər. Qırğızıstanın TÜRKSOY-dakı daimi nümayəndəsi Kojageldi Kuluyev Nəsiminin əsərlərinin türk xalqlarının dillərinə tərcümə edilməsinin vacibliyini qeyd edib.

AMEA-nın Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, Manas Universitetinin professorları Layli Ukubayeva, Asılbek Kulmurzayev, türk yazıçı-araşdırmaçı Kenan Çarboğa, qazax şairi Sayat Kamşiger, başqırd şairi Tamara Yuldaşeva Nəsimi yaradıcılığı haqqında söhbət açıblar.

***

Beynəlxalq Türk Akademiyasının təşəbbüsü ilə Qazaxıstanın paytaxtı Nur-Sultan şəhərində "Beynəlxalq Avrasiya Kitab Sərgisi 2019" çərçivəsində "Nəsimi ili"nin açılışı olub. Akademiyanın prezidenti, professor Darxan Kıdırali bildirib ki, Nəsimi öz yaradıcılığının miqyası ilə bəşəriyyətin böyük dəyərinə çevrilib. Bunları nəzərə alaraq Beynəlxalq Türk Akademiyası şairin şeirlərini qazax dilində nəşr edib.

Mərasimdə ölkəmizin Qazaxıstandakı səfiri Rəşad Məmmədov, Milli Məclisin deputatı Musa Quliyev, Qazaxıstanın Avrasiya Milli Universitetinin professoru, tərcüməçi, türkoloq Amantay Şarip çıxış ediblər. Beynəlxalq Türk Akademiyası tərəfindən qazax dilində çap olunan "Azərbaycan ədəbiyyatı antologiyası" və Nəsiminin şeirlərindən ibarət "Mən aləmə sığmazam" kitabları təqdim

olunub, Azərbaycan, qazax və rus dillərində şairin şeirlərindən parçalar səsləndirilib.

***

Azərbaycanın Belarusdakı səfirliyi tərəfindən Minskdəki "Dostluq evi"ndə Nəsiminin 650 illik yubileyinə həsr olunmuş bədii-musiqili tədbir keçirilib. Belarus Mədəniyyət Nazirliyinin idarə rəisi Viktoriya Ratabılskaya və səfir Lətif Qəndilovun açılış sözlərindən sonra Belarus Milli Elmlər Akademiyası Ədəbiyyatşünaslıq İnstitutunun kiçik elmi işçisi Tatyana Borisyuk və Belarus Dövlət Universitetinin müəllimi Valeriya Leşenko İ.Nəsiminin həyat və yaradıcılığına dair məruzə ilə çıxış ediblər. Tələbələr tərəfindən Nəsiminin şeirlərindən parçalar oxunub, Azərbaycan rəqsləri ifa olunub.

***

"Nəsimi ili" ilə əlaqədar Daşkənddəki Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) "Məndə sığar iki cahan" adlı poeziya müsabiqəsi elan edib. Müsabiqəyə təqdim olunan əsərlər sonra hər iki dilə tərcümə olunaraq kitab halında çap ediləcək.

Yubiley münasibətilə Nəsiminin "Cananı sevirəm" adlı qəzəllər kitabı özbək dilində çap olunub. AMM-in layihəsi ilə çap olunan kitabı Azərbaycan dilindən şair və tərcüməçi Tahir Qəhhar çevirib. Ön sözün müəllifi AMM-in direktoru Samir Abbasov, kitabın elmi məsləhətçisi Sona Vəliyevadır.

***

Helsinki şəhərində Finlandiyada fəaliyyət göstərən diaspor təşkilatlarının birgə layihəsi olaraq Nəsiminin 650 illiyinə həsr olunmuş konfrans keçirilib. Məlumat verilib ki, Finlandiyada Avropa Ədəbi Tərcüməçilər İttifaqının (SİETL) üzvü Tahirə Cəfərovanın təşəbbüsü və redaktorluğu ilə fin dilində "Gövhəri-laməkan mənəm" adlı Azərbaycan poeziya antologiyası çap edilib. Topluya daxil edilən poetik əsərləri Finlandiyanın tanınmış şairləri Xannu Myakelya, Leyevu Lehto, həmçinin Yukka Malnilen, Timo Malmi və Tahirə Cəfərova tərcümə ediblər.

***

Azərbaycan Dövlət Tərcümə Mərkəzi tərəfindən İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr edilən rus dilində ərsəyə gətirilmiş kitab Moskvada nəşr olunub. Kitaba daxil edilmiş 200-ə yaxın qəzəl və rübai Nəsimi yaradıcılığını işıqlandıran məqalə, eləcə də əsərlərdə yer alan çətin anlaşılan sözlərə dair izah və şərhlərlə verilib.

Avstriyanın paytaxtı Vyanada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində Nəsiminin 650 illik yubileyi münasibətilə musiqili-ədəbi gecə və almaniyalı alim Mixael Hessin dahi Azərbaycan şairinə həsr olunmuş məruzə axşamı keçirilib.

Mərkəzin rəhbəri Leyla Qasımova çıxış edərək Nəsimi haqqında məlumat verib.

Musiqili-ədəbi gecədə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin yaradıcı heyəti "Bulmuşam həqqi..." adlı proqramla çıxış edib. Xalq artisti